# ŞAHMƏMMƏD

# SEÇİLMİŞ ƏSƏRLƏR
# BEŞ CİLDDƏ

# POEMALAR

## CİLD IV

«MBM» nəşriyyatı
Bakı - 2009

**Redaktor:** Zülfiqar Şahsevənli
**Naşir:** Rafiq Xan-Sayad oğlu

**Tərtibatçılar:** Könül Abasova
Fərqanə Məmmədova
**Korrektorlar:** Ruhiyyə Rasimqızı
Günel Idrisqızı
**Dizaynerlər:** Ceyhun Əliyev
Iradə Əhmədova
**Operatorlar:** Aysel Həsənova
Gülarə Hacıyeva

**Şahməmmədov Şahməmməd Gülməmməd oğlu,**
**«Seçilmiş əsərlər» beş cilddə, Poemalar, cild IV**
**Bakı, «MBM» 2009, 400 səh.**

**ISBN: 978-9952-29-016-4**

**© Şahməmməd**
**«MBM»**

# KARVAN

***Soltan Hacıbəyovun «Karvan» simfonik lövhəsini dinləyərkən həmişə gözlərim qarşısında Azərbaycan xalqının müdrik, yenilməz, məğrur oğlu Heydər Əliyevin böyük amallar uğrunda apardığı mübarizələr dayanır...***

«Karvan» süitası – yaşıl bir ada,
Qulaq kəsilibdi sanki gül-gülə.
«Karvan» süitası – həzin səs-səda,
Yol gedir, yol gedir könlümdə elə...

«Karvan» süitası – karvan yolları…
Dünyanı qoynuna alıb ovudur.
Elə bil əriyir dağların qarı,
Saralmış üfüqlər dağları udur…

Çalın, bir sərinlik duysun könlümüz,
Çalın, zınqırovlar səslənsin bu gün!
Çalın, yuxusundan oyansın dəniz,
Titrəsin qəm yüklü sarı sim bu gün!

Ləngərli dəvələr ağzı köpüklü,
Qaldır bu karvanı, qaldır harayla.
Yol gəlir bu karvan mirvari yüklü…
Daş olub «bayatı», daş olub «layla…»

«Karvan» süitası dodaqlarımda
Əsrlərdən gələn səsdir, nidadır.
«Karvan» süitası – dodaqlarımda
Qabar-qabar olmuş xeyir-duadır.

«Karvan» süitası – təsəlli, təskin,
Qumlu səhralarda bircə gilə su…
Çalın, parçalansın ürəklərdə kin,
Göyərsin bir xalqın kövrək arzusu.

«Karvan» yol üstündə oddur, ocaqdır,
«Karvan» bir dünyadır, sahibi kimdir?!
Xəstə ürəkləri sağaldacaqdır,
Çalın süitanı, o bir həkimdir...

Çalın, dəvələrlə danışa bilim,
«Karvan» süitası nərlər dilidir.
Danışa-danışa alışa bilim –
Könlümdə çağlayan qəmlər selidir.

Deyin hardan gəlir bu yüklü karvan,
Deyin necə gedir, haraya gedir?
Dayan! Ayaq saxla sən də qızıl Dan,
Dayan! Qoy danışsın dəvələr bir-bir…

Göynəyir gözümdə sovrulan qumlar,
Batıram bir anlıq qum dəryasında.
Yox, itən deyildir, bu soyqırımlar,
Uzaq səhraların qasırğasında.

İpək yolları da qalır yadımda,
Udub tarixləri qum təpələri.
Təbrizdə, Bağdadda, Dərbənddə, Şamda,
Göyərib Xəzərim göy ləpələri.

Çalın, beynimizin dinclik marşını,
Çalın, ürəklərin nəğmə varını.
Sonra da, qaldırıb verin arşını,
Ölçüm dəvələrin ayaqlarını…

Hələ yol gedəcək bu boz dəvələr,
Sonu görünməyən səhralar durur…
Boğub qaranlığı, doğacaq səhər,
Yağacaq göylərdən yağış, işıq, nur…

Dünyanı karvan tək çəkmək çətindir,
Yollarmı uzundur, ömürmü gödək?
Danışır dəvələr, danışır bir-bir,
Yenə də uğultu, yenə də külək…

* * *

Dünya mənim, ərz də mənim,
Səhra mənim, düz də mənim,
Boz qumlara naxış vuran,
Ölçən biçən göz də mənim.

Ay dəvələr, ay dəvələr,
Gəlib çıxdı yay, dəvələr.
Bu qaranlıq gecələrdə,
Çırağımız Ay, dəvələr…

Dərd də, dərdə dözər gedər,
Boz qumları əzər gedər.
İtib-batan cığırları
Qatar-qatar bəzər gedər.

Nə ağac var, nə bir bulaq,
Nə bir ev var, qonaq qalaq.
Yollar uzun, yollar sonsuz,
Vərəqlənir varaq-varaq.

Yar gözü də yolda qalıb,
Dünya qalmaqalda qalıb.
Ovsarınız əllərdədir,
Baxışınız kolda qalıb.

Ay dəvələr, ay dəvələr,
Çiyninizdə kəcavələr.
Gəlin, gedək yol uzaqdır,
Daş çeynəyir «əsabələr».

Zaman tonqala qalanır,
Qərinələr bir-bir yapır.
Dəvələrin gözlərində,
Xatirələr alovlanır…

Dayan insan! Dayan insan!
Dayan karvan! Dayan karvan!
Dəvələr də ağlayarmış…
Gəl danışaq, dayan zaman!

* * *

Dəvələr də ağlayarmış için-için,
Boğularmış göz yaşında səhra daşı.
Musiqini çalın, içim, çalın, içim,
Danışacaq mənim üçün dəvə yaşı.

«Biz çox idik, nəhəng idik, güclü idik,
Doğulurduq, böyüyürdük, ölürdük də.
Səhraların boz qumunda ömr edirdik,
Varımızı qardaş kimi bölürdük də.

Bir gün biri, öz başına yığıb bizi,
Vəd verdi təbilini çala-çala.
Bir az keçmiş karvan-karvan dəstəmizi,
Ümid ilə yüklədilər çıxdıq yola…

* * *

Bu dünyanı
Çəkib-çəkib
Bu sahilə gətirmişik.
Bu dünyanı
Düyün düşmüş
Bu günlərə,
Biz əl-əl gətirmişik.
Göz yaşını içə-içə,
Silə-silə,
Gülə-gülə gətirmişik.
Tər tökmüşük
Puçur-puçur,
Səhralarda,
Al Günəşin caynağında.
Yana-yana.
Sübh çağının sazağında
Dona-dona.
O günləri
Biz cahana gətirmişik.
Özümüzü
İmtahana gətirmişik.

Sarvanımız igid olub, udmuşuq biz,
Sarvanımız naşı olub, uduzmuşuq.
Bu dünyanın nələrini dadmışıq biz,
Düz yolda da, bəzən elə yol azmışıq.

Qılınclardan keçiriblər bu karvanı,
Azalmışıq, ələnmişik, qorxmamışıq.
Qoparıblar əlimizdən halal varı,
Halallığın dünyasından çıxmamışıq.

Nəhs günlərin acısını dadmışıq biz,
İradəmiz basılmayıb, alınmayıb.
Ümidlərdən yapışıbdır əllərimiz,
Amalımız tonqallara qalanmayıb…»

* * *

Bir dərd gəlib yüz olub,
Boz yollar dümdüz olub.
Gün olub qara gecə,
Gecəsi gündüz olub.

Ay karvan, qoca karvan,
Ürəyi haça karvan.
Düşmən yolu kəsəndə,
Qoyular baca karvan…

Yollar… Yarlı-yaraqlı,
Yollar sabah soraqlı,

Bu yollar yora bilməz,
Karvan, dəmir çarıqlı.

Ağ bulud, qara bulud.
Uçubdur hara bulud?
Ürək yağış istəyər,
Çəkilər dara bulud.

* * *

Səhranın dəryaya bənzəməsi var,
Birinin varı su, birininki qum.
Qopsa qasırğalar, dünyanı udar,
Boylanar suallar: «Ölüm, ya olum?…»

Gəmi karvanları ağ sular üstə,
Dəvə karvanları boz qum boyunca…
Karvanlar həmişə qulağı səsdə,
Karvanlar uyumur heç vaxt doyunca.

Karvanlar udubdur səhra yolları! –
Yükləri ədviyyat, ipək, qızıl, yun.
Avropa itirib çox milyonları,
Göyərib içində dərdi Kolumbun .

Avropaya gələn istiot… İnan! –
Min insan ömrünə bərabər idi.
Ölçürdü, biçirdi Fernan Magellan ….
Səfərdən dönənlər bəli, nər idi.

Ölümlü, itimli səhra yolları…
Yaddaşlara köçmüş səksəkəli iz.
Dünyaya bəxş etdiz siz kolumbları,
Bəxş etdiz nə qədər sərkərdələr siz,

Gəmilər karvanı, dəvə karvanı,
Sonsuzluq içində ulduza bənzər.
Çalın, o şərqini, çalın, «Karvanı?»
Qəmi, sevinci də musiqi bəzər.

Çalın, süitanı, çalın, ucadan.
Dəvə yerişini görə bilim mən.
Çalın, üfüqlərdə köz bağlasın dan.
Tutun dəvələri, tutun əlindən.

Çalın, dilə gəlsin kamanım, sazım,
Çalın, bu karvana qoşulaq gedək.
Çalın, bu şərqini, bağrıma basım,
Çatsın istəyinə sinəmdə urək.

Silin dəvələrin göz yaşlarını,
Keçmişdən gəlirlər, uzaq gedirlər,
Ovudun köpüklü alqışlarını,
Yoxsa üfüqlərdə boğular səhər.

«Karvan» – əsrlərdən gələn səda, səs,
«Karvan» – əsrlərə gedib çıxan yol.
«Karvan» – babalardan qalmış
bir nəfəs,
«Karvan» – millətimi yaşadan simvol.

Xristofor Kolumb, sonra Magellan,
Gəmi karvanına sarvan oldular.
Sonsuz dəryalarda itmədi güman,
Əbədi yaşayan cığır saldılar.

Nə qədər karvanlar udub ağ sular,
Nə qədər arzular qalanıb oda.
Dəryanın səhraya bənzəməsi var,
Həyat karvanını aparır o da!

Göylərin özü də karvanlar udub,
Yem olub şimşəyə dəmir qanadlar,
Yatmış ulduzları insan oyadıb,
Bu gün də yol gedir karvan – inadlar.

Çalın, süitanı… Bu dünya karvan,
Üzü qırış-qırış, saçları dən-dən.
Büdrəmə, yıxılma ey sadiq insan,
Yaxşı tanıyırsan bu yolları sən.

Yaxşı tanıyırsan o sarvanları,
Yaxşı tanıyırsan yol azanları.
Yaxşı tanıyırsan «baş adamları»,
Yaxşı tanıyırsan daş yazanları.

Apar bu karvanı, apar mənzilə,
O qumlu cığırlar indi daşlıdı.
Çalın, o şərqini, qaldırın zilə,
Yazıq dəvələrin gözü yaşlıdı.

Çalın, beynimizin dinclik marşını,
Yandırın xalqımın çıraqlarını.
Sonra da qaldırın, verin arşını.
Ölçüm dəvələrin ayaqlarını.

Dəyişik düşübdür qədim Saxara ,
Bu qumlu yollardan keçilsin gərək.
İşıqlı sabaha gedən yollara,
Dinclik nəğmələri biçilsin gərək.

Karvan! – O bir dünya, sahibi kimdir
Karvan yol üstündə oddur, ocaqdır.
Çalın, o nəğməni, o bir həkimdir,
Xəstə ürəkləri sağaldacaqdır!

Hər xalqın, hər dövrün öz rəhbəri var
Sıxıb ürəyinin başına gedir.
İnsanı dünyaya inamı bağlar,
İnamın itirsə dünyan da itir.

Qacar da gəlmişdi əlində yedək,
Çingiz xan, İskəndər, nə bilim kimlər.
Hitler də deyirdi: – Dünyanın gərək,
Qanını dəyişə Alman həkimlər.

«Karvan» süitası… Dinlədim bu gün,
Qəlbimin başında qəm kolu bitdi.
Özümə təsəlli dilədim bu gün,
Karvanlar gözümdə doğuldu, itdi.

Karvanlar içində karvandı xalqım,
Ovsarı əllərdən, əllərə düşüb,
Hardasa yatmışdı, oyandı xalqım,
Dağlara, daşlara bir nərə düşüb.

Çalın, süitanı, yerisin karvan,
Yerisin inamla, saçları dən-dən.
Ey igid sərkərdə, ey böyük insan,
Yaxşı tanıyırsan bu yolları sən.

* * *

Sərkərdə var,
Bircə anı
Zaman qədər!
Sərkərdə var.
Layla, nəğmə.
Sərkərdə var,
Ömür yolu
Başdan-başa
Düyün, kədər…
Sərkərdə var,
Öz ömrünü
Həsr eləyir öz xalqına,
millətinə.
Dözür onun əzabına,
zillətinə.
Sərkərdə var,
Sevə-sevə, duya-duya
Yaşayır o!
Dünyamızın acısını,
Ağrısını.
Öz çiynində
Daşıyır o!

Sərkərdə var,
Karvan kimi
                Keçir gedir,
İnsanların sevincindən,
                kədərindən…
Sərkərdə var,
Zaman kimi
                keçir gedir,
Ömrümüzün
                axşamından,
                cəhərindən…
Keçir Karvan,
                Zaman kimi,
Keçir zaman,
                Karvan kimi…
Uzaqlardan gəlir bu iz,
Uzaqlara gedir bu iz.
O karvanın,
O zamanın,
Önündədir
Sərkərdəmiz!
Sərkərdəmiz!
Uzaqlardan
Gələn karvan,
Uzaqlara
Gedən karvan,
Bax beləcə,
Addımlayın,
Yeriyin siz.
Bu dünyanı
Lərzə salıb!

Sərkərdəmiz!
Sərkərdəmiz!

Büdrəməzsiz,
Yıxılmazsız
İndən belə, ulu karvan.
Boz dumanda, qum selində
Azmazsınız
İndən belə, yolu karvan.
Qorxutmasın sizi qumlar
Bax beləcə,
Addımlayın,
Yeriyin siz!
Yumruğunu
Dağlar kimi,
Qaya kimi
Düyünləyib
Sərkərdəmiz!
Sərkərdəmiz!

Yaşayırıq,
İndən belə udmaz bizi boz səhralar,
Nəhəng əlin kölgəsində,
Nəhəng əlin hərarəti
Bəsimizdir, ey insanlar!
Hər duyğunu,
Hər kəlamı
Duyuruq biz!
Əbədidir,
Müqəddəsdir
Rəhbərimiz!
Rəhbərimiz!

Üfüqlərdən
Çıraq kimi
Asıl Günəş!
Bu karvanın taleyinə
Doğan Günəş,
Qızıl Günəş!…
Gedir karvan,
Gedir zaman.
Ağır-ağır,
Aram-aram.
Qaysaq tutur
Dərin yaram
Qucaqlaşır
Günəş – Dəniz!…
Al Günəşdir
Rəhbərimiz!
Rəhbərimiz!

* * *

«Karvan» süitası… Karvan yolları…
Dünyanı qoynuna alıb ovudur.
Elə bil əriyir dağların qarı,
Saralmış üfüqlər dağları udur.

Çalın, bir sərinlik duysun könlümüz.
Çalın, zınqırovlar səslənsin bu gün!
Çalın, yuxusundan oyansın dəniz,
Hönkürsün qəm yüklü sarı sim bu gün!…

***1995***

## ARXALI DAĞLAR

*Atamın söhbətlərindən.*

Ömürdən saatlar xəbərsiz ötdü,
Bizi də qocaltdı bu qoca dağlar.
Cığırlar salındı, cığırlar itdi,
Döndü nağıl oldu tapmaca dağlar.

Laylalar üstünə layla gətirdik,
Böyüdük, böyütdük nağılları da.
Bəzən biz qazandıq, bəzən itirdik,
Həyat sıxdı bizi, sığalladı da.

Hər şitil böyüyüb bir ağac oldu,
Meyvələr asıldı budaqlarından.
Yamaclar düzlərə qızıl tac oldu,
Sellər «Cəngi» oldu dodaqlarında.

Növbə mənə çatdı, durduq göz-gözə,
Uşaqlıq hardasa uzaqda qaldı.
Oturdum atamla bu gün diz-dizə,
Dağlar bulud olub, üstümü aldı.

Atamla doyunca danışmamışdım,
Buna vaxtımız da olmamışdı heç.
Beləcə göynəyib, alışmamışdım,
Ömrümdə beləcə dolmamışdım heç.

Bilməzdim atamı belə narahat,
Söhbət sandığıymış sən demə atam.

Sən demə şəkərə dönərmiş həyat,
Nəvələr əlindən yapışan zaman.

Hər şeyi astadan danışırdı o,
Nə qədər xatirə xatirəm oldu.
Qızıl günəş kimi alışırdı o,
Qara bulud kimi boşaldı, doldu.

Elə danışırdı, elə dinirdi,
Onu duya bilim, yaza bilim mən.
Elə bil, elə bil, o yol gedirdi,
Tutub keçmişinin ətəklərindən.

Dağlardan baxırdı doğan al Günəş,
Sanki, kövrək atam şəkil çəkirdi.
Söz də cücərərmiş, söz də bitərmiş,
Qoca söz əkirdi, söhbət əkirdi.

O novruz axşamı, bahar gecəsi,
Doyunca danışdıq ocaq başında.
Dəydi qulağıma illərin səsi,
Elə bil, oyandı divar daşı da.

İllər vərəqləndi, qaralı, ağlı,
Qoşuldu söhbətə şahid bulaqlar.
Qoşuldu söhbətə yarlı, yaraqlı,
Xatirə düzümlü o sıra dağlar.

Səsimi içimə çəkdim o axşam,
Qaranlıq gecənin dondu nəfəsi,
Əriyib qurtardı bir büküm ağ şam,
Fəqət, qurtarmadı ata nəğməsi.

İzn ver, söyləyim o nəğmələrdən,
Nə vaxtsa, hardasa gərəyin olar.
Yapışar əlindən saçları dən-dən,
Nəğməli yamaclar, arxalı dağlar.

**Birinci söhbət**

Ay oğul, bu kəndin  tarixi qədim,
Bəlkə də dağların yaşı qədərdir.
Şeh düşüb yaşıma, bükülüb qəddim,
Xatirəm çayların daşı qədərdir.

Atam deyənləri danışsam əgər,
(Babam deyənləri demirəm hələ).
Bu söhbət ay oğul, səhərə çəkər…
Başım çəkənləri söyləsəm elə…

Bəlkə də dünyanın ən ağır ili,
Mən də göz açmışam Azərbaycana.
Yapışıb çiynimdən Allahın əli…
Eh… Nələr çəkməyib atamla, anam…

Oğul, görməmisən öküzü, kəli,
Sən qoşulmamısan cütə, kotana.
İşıqlı böyüdüb taleyin səni.
Yaraşıq olmusan evə, atana.

Bu kəndlə yanaşı böyümüşəm mən,
Titrəyə-titrəyə qışdan çıxmışam.
Mayam tutulubdu tuncdan, dəmirdən,
Sanki bulaq kimi daşdan çıxmışam.

Varlı sayılıbdı çarıq geyənlər,
Gəlinin cehizi isməti olub.
Bəxtinə, gününə kirpik döyənlər,
Halal südəmmişin qisməti olub.

Çillə çıxaranlar, hədik asanlar,
Novruzdan-novruza «Yallı» gedibdir,
Qapı-qapı gəzib o mis qazanlar,
Varlı da, kasıb da bayram edibdir.

Kasıb qapısını döyüb kasıblar,
Bir cam qovurğanı bölüblər yarı.
Basıb cığırları, basıb soyuq qar,
Fəqət don vurmayıb ağ arzuları.

Yaxşını yaxşı tək, pisi pis kimi.
Asmışam yaddaşın budaqlarından.
Boğub kor dumanı, silib çiskini,
Öpmüşəm ağ günün dodaqlarından.

Ağ gün pərvazlanan balalarımdı…
Torpaqla, zəhmətlə verib baş-başa.
Bu ulu dünyanın dolaylarında,
Yaşa, ana torpaq, yaşa, sən yaşa!!.

Ay oğul, zəhmətkeş olub nəslimiz,
Torpağa məhəbbət əzəldi bizdə.
Günəş övladıdı bizim əslimiz,
Günəş hikməti var zəhmətimizdə.

Günəşi torpağa calayan baban,
Yapışıb yağışın ətəklərindən.
Ömrünü odlara qalayan baban,
Həmişə güc alıb alın tərindən.

Buğda zəmisini çindən keçirib,
Ömrünü dərz edib hey qalaq-qalaq.
Xırmanı xəlbirdən dən-dən keçirib,
Mehi dəsmal bilib, küləyi daraq.

Geyinib baharı, çıxarıb qışı,
Səpib tapşırıbdır torpağa dəni.
Ellərdən cavabı: onun alqışı,
Dövlətdən cavabı: «Lenin ordeni».

Beləcə atmışıq kasıblığı biz,
Muzeyə köçübdür qara çıraqlar.
Beləcə dirçəlib, qalxıb kəndimiz,
Beləcə yaşayıb arxalı dağlar.

**İkinci söhbət**

Üç qardaş, bir bacı, nə az, nə də çox,
Bir evin dörd yanan çırağı olduq.
Tumurcuq bağladı hər kol, hər budaq,
Evin gülü olduq, boyağı olduq.

Böyüdük, toy yaşı gəlib yetişdi,
Dedik ki, anamız gətirər gəlin.
Sevinclə kədərin yeri dəyişdi,
Bəxti qara gəldi həmin o ilin.

İyirmi iki iyun, qırx birinci il…
Analar, gəlinlər soldu, sozaldı.
Dünyanı dünyaya vurdu bir səfil,
Kəndin igidləri bir-bir azaldı.

Aşıqlar sazını divardan asdı,
Toylar yarpaq kimi saraldı getdi.
Qadınlar gedəni bağrına basdı,
Kişilər silaha sarıldı getdi.

«Əzizim, salamat qal,
Bu yurda amanat qal,
İnşallah, qayıdarıq,
Sona yetər bu qalmaqal.

Əzizim, göz-qulaq ol,
Su yerinə ax, bulaq ol.
Atam, anam yetim qalır,
Saçlarıma sən daraq ol.

Əzizim, yıxılmaram,
Düşmən varsa, mən də varam.
Analardan muğayat ol,
Yoxsa südü olar haram».

Əlimiz çörəyə çatdı, çatmadı,
Getdik döyüşlərə, getdik üç qardaş.
Atamız, anamız yuxu yatmadı,
Arzular, ümidlər dönüb oldu daş.

Azaldı evlərdə kişi nəfəsi,
Bacı ümidinə qaldı qocalar.

Qalan kişilər də kişi kölgəsi,
Tüstüsün içində boğdu bacalar.

Döyüşdük, kişi tək, öldük mərd, mətin,
Kişilik sözündə xəyanət olmaz.
Kişisi özündən olan həyatin,
Ağacı qurumaz, çiçəyi solmaz.

Döyüşdük Mozdokdan Berlinə qədər,
Birbaşa… Diz büküb, nəfəs dərmədən,
Yuxu görmüş kimi durub bir səhər,
Gördüm ki, dörd ildir döyüşürəm mən.

Əlində al bayraq gedən oğullar,
Əlində al bayraq qayıtdı geri.
Dolandı dünyanı təzə nağıllar,
Gedən oğulların göründü yeri.

Qardaşlı getdiyim cığırlarla mən,
Qardaşsız qayıtdım doğma kəndimə.
Bir ata, bir bacı öpdü üzümdən,
Anam dözməyibmiş dərdə sən demə.

Ürəyi yollarda qalan ananın,
Gözləri yollarda saraldı, Allah!
Cəbhədə üç oğlu olan ananın,
Sevinci bulud tək qaraldı, Allah!

Beləcə başladı fəlakətimiz,
Hamının gözündə kədər yatırdı.
Yetim uşaq kimi baxan kəndimiz,
Dənsiz dəyirmanı xatırladırdı.

## Üçüncü söhbət

Ay oğul, demə ki, gileyliyəm mən,
Taleyin diz bükən yoxuşlarından.
Çox da ki, saçıma dən ələnib, dən,
Şəfəqlər yaşayır baxışlarımda.

O acı illəri unutmaq çətin,
Canlı abidəyə dönüb analar.
Yağıya nifrətin, yada nifrətin
Odunda alışıb, yanıb analar.

Niyə ölməliydi igid balalar?
Analar nə üçün saç yolmalıydı?
Niyə yad çiyində kövrək atalar
Sonuncu mənzilə yollanmalıydı?

Günahı nə idi günahsızların?
Tarixin ədalət qanunu bumu?
Oxu daşa dəydi o quduzların,
Yağsa da yağışlar, göyərtməz qumu.

Bilmirəm, nədənsə təbiətin də
Acığı tutanda soyuya bilmir.
Niyə addımbaşı döngədə, tində
Talelər susanda il də bəd gəlir.

Mən qayıdan ili…
                        Oğul, qırx dörddə
Elin dərdi burda başdan aşırdı.
Aman, qayıtmasın o illər bir də,
Çörək ilə qızıl qoşalaşırdı.

Bir acı xatirə danışım sənə,
Yadıma düşəndə nitqim quruyur.
Alışıb-yanıram hey dönə-dönə,
O dəhşət gözümdə yatır, uyuyur.

Ayağı yer tutan kəndlilərimiz,
Üç-üç, beş-beş olub, yola çıxdılar,
Çörək arxasınca…
Bu səfərimiz…
Göydən də quşbaşı qar yağırdı, qar.

Gedən dəstələrə qoşulub mən də,
Gəldim Sığırlıya, qatar yoluna.
İnsanlar nə gündə, yollar nə gündə,
Qarışdım vağzalın qalmaqalına.

Ay oğul, heç demə müharibədən,
Çıxan bir ölkənin halı nə haldı?
Tarix yaxşı bilir, bunu törədən,
Özü hamımızdan pis günə qaldı.

Aclığın nə yaman sərt üzü varmış,
Gözlə gördüyümü deyəsiyəm mən.
Oğul anasını darda atarmış,
Dəhşətli olsa da söyləyəsiyəm:

– Qatar gethagetdə bizim vaqona
Bir ana oğluyla minmək istədi.
Çatmadı istəyə zavallı ana,
Doğradı təkərlər… Titrədim, əsdim,

Bağırdım, hamıdan kömək istədim…
Qatar fit verərək tövşüdü getdi.
Çörək səfərindən dönmədi oğul,
Ananın taleyi beləcə bitdi.

Bir parça daş oldu, dinmədi oğul,
Bumu zamanənin, bumu sifəti?
Dönmədi geriyə, dönmədi oğul,
Gözümdə donmuşdu oğul, heyrətim.

Necə dəfn olundu o yazıq qoca?
Çörəkmi, anamı şirin dünyada?
Məni düşündürür bu sual bala,
O xoşbəxt olarmı görən dünyada?

Ananın ən ağır qarğışı – «bala,
Görüm mənə gəlsin, azarın, ağrın»,
Atardı balasın bu gündə ana?
Yolardı saçını, sökərdi bağrın…

Tutardı qatarın təkərlərindən,
Çırpardı özünü daşa, torpağa.
Dönərdi qan düşmüş bu səfərindən,
Dönərdi bir qarış kəfənə, ağa.

Bir bayatı oxudu
Qatarın təkərləri.
Asılıb yaddaşımdan,
Mənim o vaxtdan bəri.

«Buza döndü baxışlar,
Qalxdı, endi baxışlar,
Belə dərdi, naləni
Vicdan necə bağışlar?

Dağı qatıb arana,
Düzəmi gəldi ana?
Qatara çatar-çatmaz
Gözəmi gəldin ana?

Keçib illərin yaşı,
Hanı o məzar daşı?
Gözlərimdə bitibdir
Ana, oğul yanaşı.

Elə o vaxtdan bəri,
Daş etmişəm bu «sirri»,
Demək istəmişəm mən,
Ürəyim deyib, «kiri».

Qocaldım birəm-birəm,
Daha dözə bilmirəm.
Oğul, deyirəm, eşit,
O zamandan gülmürəm.

Harda ana görürəm,
Harda bala görürəm,
Harda qatar görürəm
Ağı qara görürəm».

Ay oğul, bilirdim hardasa bir gün,
Bu dərd ürəklərdən yan durasıdır.
Dönüb səfərindən, küskün, didərgin,
Hər kəs çırağını yandırasıdır.

**Dördüncü söhbət**

Bu aclıq, bu zillət çəkmədi uzun,
Xoş günlər əlini uzatdı kəndə.
Axır ki, qızardı çöhrəsi yazın,
Cavanlar ev olu…
Evləndim mən də.

Başladı «elçilik», çoxaldı «hə»lər,
Barışıq pay oldu, umu-küsənə.
Yenə də toy gördü evlər, həyətlər,
Qayalar oyandı zurna səsinə,

Elin güzəranı hər ildən-ilə,
Dəyişdi… Gözlərdə işıq göründü.
Yenə söz qoşuldu çiçəyə, gülə,
Yenə də dağların qəlbi döyündü.

Qırx doqquzuncu il düşür yadıma,
Taxıl birdən-birə oldu birə on.
«Böyüyüb göl olar su damla-damla» –
Ürək yanğısıyla deyərdi atam.

Ürəyi döyündü dəyirmanların,
Od saldı təndirə qoca nənələr.
Üstü təzələndi daman damların,
Dünyaya göz açdı körpə nəvələr.

Kəndimiz çörəkli kənd oldu, fəqət –
Nə qədər yarımçıq işlər dururdu.
Çörəyə yetişmək böyük səadət,
Çörəyin olması dövlətdi, vardı.

Hardasa, kimdənsə məktub gələndə,
Qapılar açırdıq oxutmaq üçün.
Çıxmazdı üzünə qız da, gəlin də,
Hələ iliklərdə yaşayırdı din.

Qalırdı pis, yaxşı, hər adətimiz,
Evlərin bəzəyi cəhrə, mil, hana.
Bel, kotan, araba, vəl alətimiz,
Zavod, fabrikimiz – dəmirçixana.

Nə müəllim vardı, nə həkim vardı,
Olan da uzaqdan gəlmələr idi.
Nə qədər xəstəni soyuq apardı,
Nə qədər xəstələr sevinməliydi.

Atam…
        Nə gəlirdi axı əlimdən,
Hərənin bir cürə qisməti varmış.
Dağ kimi kişini alıb əlimdən,
Bir göz qırpımında torpaq udarmış»
Atam…
        Bircə anda döndü növrağı,
Dedilər «yaman»dır…
                        Gəldi qarılar.

Sən demə heç nəymiş, – kor bağırsağı…
İndi on saymamış kəsib atırlar.

Qıvrılıb-açıldı kişi yay kimi,
Torpağı ovcunda sıxdı, nə sıxdı.
Qohumu, qonşunu süzdü Ay kimi,
Dağına, düzünə son dəfə baxdı.

Qocalar hərəsi bir çarə dedi,
Gedəni yolundan saxlamaq olar?
Qəlbindən keçəni açdı söylədi,
Dayandı baş-başa nakam arzular.

Ağrıya qovrulub qoyuldu kəpək,
Atamın dizləri titrədi, əsdi.
Küçük yarıb qoyduq, etmədi kömək,
Bəlkə də o itin qarğışı kəsdi?…

Araba qoşdular, düzəldim yola,
Dedim çatdıraram həkimə bəlkə?
Öküz yerişiylə ata və bala,
Çıxdıq dağ yolunda ölümlə cəngə.

Dağların qoynunda keçindi atam,
Bağrımın başını sökdü, yardı o.
Əgər gəlməsəydi bu qəfil qada,
Güman ki, indi də yaşayardı o.

## Beşinci söhbət

Gün kimi, ay kimi işıqlı illər,
Doğuldu min ağrı acı yerində.
Dağların özündən ağır dəlillər
Göründü tarixin vərəqlərində.

İndi kəndimizə dönüb baxanda,
İnsanın ürəyi bahar geyinir.
Atmışıq daşını «of»un, «ax»ın da,
Odur ee… Var-dövlət dağlardan enir.

Çənəsi torpağa dəyən evlərin,
Yerində saray tək evlər tikilib.
Yolu kəndə düşüb bu gün şəhərin,
İlanlı düzlərə arxlar çəkilib.

Evlərin əlləri göyə uzanıb,
Hələ görünməmiş möcüzələr var.
Hər evin qoynunda göz olub, yanıb,
Dünyaya pəncərə – televizorlar.

Daşdan məktəbimiz, qırdan yolumuz,
Mədəniyyət evi, uşaq bağçası.
Ulduzdan-ulduza qonur arzumuz,
Kəndimiz nənəmin nağıl boğçası.

Qazımız, suyumuz, işığımız var,
Üzüm bağlarının görünmür sonu.
Maşın almağa da gücümüz çatar,
Qaynayır insanın canında qanı.

Cəbhədən evinə qayıtmayanlar,
Abidəyə dönüb, qayıdıb geri.
Kənddə muzeyimiz, «park»ımız da var,
İndi hamımızın görünür yeri.

Bu gün gözlərimdə böyüdü bahar,
Nə qədər şirinmiş quşların səsi.
Deyərdi:
          « – Qaranquş yurda qayıdar»…
Keçdi ürəyimdən «ata» kəlməsi…

Ağzı sarı haşiyəli
Qaranquşlar yem gözləyir.
Ayağıyla sıxıb teli
Ana quşlar əzizləyir:

Bu tək səbir, bu cüt səbir,
Sayır bir-bir, sağ balalar.
Ana quşlar gedir, gəlir,
Sinələri ağ balalar.

Cilalanır, qanadlanır,
Təbiətin qucağında.
Nəğməsiylə haray salır
Xoş bir ömrün sorağında.

Bax belədir kənd səhəri,
Üfüqləri çatma-çatma.
Demirəm ki, at, şəhəri,
Deyirəm ki, kəndi atma.

Kəndin yolu dolay-dolay,
Ocağı var, təndiri var.
Sürüləri alay-alay,
Qaymağı var, pendiri var.

Dağlarının kəməri daş,
Kəmərinin qaşı Günəş.
Günəş, torpaq burda sirdaş,
İllərin yaddaşı Günəş.

Şəhərə nəyimiz çatmır bilmirəm,
Nə görüb cavanlar görən şəhərdə?
Bunu milyonlara oğul, verməræm,
Bütün kənd yığışır xeyirdə, şərdə.

Qayıt kəndimizə, ay oğul, qayıt,
Qaytar bacını da, qardaşını da.
İtirər odunu bu ocaq, bu yurd –
İtirər qarını, yağışını da.

İtirər kəndimiz öz görkəmini,
Dağlar ayağını hara uzadar?
Kəndin bapbalaca toyuq hinini
Unutsaq, yolları tutar şaxta, qar.

Qayıt gəl, kəndinə, tapılar bir iş,
Hər tərəf ruzudur, bağdır, tənəkdir.
Nə qədər gec deyil, peşəni dəyiş,
Odur, ee… Torpağa bağban gərəkdir.

Kəndimin ağ üzümü,
Sıra-sıra bağ üzümü.
El-oba qarşısında
Elədin ağ üzümü.

Qara şanı, ağ şanı,
Tənəklərdə bal şanı,
Şöhrətinlə bağlıdır
Elin şöhrəti, varı.

Dirəklərə sarmaşıq,
Bu torpağa yaraşıq,
Ləngəbizə səpilmiş,
Ya nəğmədi, ya işıq…

İndi Boyat  kəndi yox olub oğul,
Qədim divarları söküb-töküblər.
Kənd də ağac kimi yıxılıb oğul,
Orda şum eləyib, tənək əkiblər.

Axı kənd neyləsin, ağac neyləsin,
Əgər uçubdusa qaranquşları?
Əgər boş qalıbsa, qucaq neyləsin?
De, kimə gərəkdir divar daşları?

Bulağı mələr qaldı,
Ürəkdə nələr qaldı,
Dedilər təzə evin
Gəlini gələr, qaldı.

Bu fəsil, nə fəsildi,
Qoca çinar kəsildi.
Bir kənd köçdü dünyadan,
Əlim yerdən üzüldü.

Tarix daşa dönərmiş,
Sevinc yaşa dönərmiş,
İstək uçub gedəndə
Bahar qışa dönərmiş.

Bu kənddə igidlər nələr edərdi…
Hanı qızıl Novruz, yaşıl səməni?
İnsanlar dünyada gəldi-gedərdi,
Bir kəndin ölməyi yandırır məni.

Doğma yurdum Ləngəbiz,
Dedim, durdum Ləngəbiz.
Babam arzu dilədi,
Yuva qurdum, Ləngəbiz.

Bu dağlar, ulu dağlar,
Əritməz dolu dağlar.
Sənin boyunbağındı,
Kəndimin yolu dağlar.

Kəndimin adı qədim,
Ocağı, odu qədim,
Yaşını dağlar bilir,
Yaddaşı, yadı qədim.

Qayıt kəndimizə, ay oğul, qayıt,
Qaytar bacını da, qardaşını da.
İtirər odunu bu ocaq, bu yurd,
İtirər qarını, yağışını da.

Qayıt bu səfərdən, qayıt bu yoldan,
Qoyma intizarda qala kəndimiz.
Yollar silinməsin yamacdan, yaldan,
Qoyma Boyat kəndi ola kəndimiz.

***1983***

# ƏSGƏR QARDAŞIMA

## I

Aldıq şəkilini, məktubunu da,
Anamız quş kimi qalxdı yerindən.
Atıb bir tərəfə teşti, unu da,
Əlləri xəmirli yapışdı səndən.

Öpərək gözünün üstünə qoydu,
Titrək kəlmələri yaş boğdu qardaş.
Əsgər məktubları gəldimi, toydu…
Bu gün evimizə gün doğdu qardaş.

Yaman dəyişmisən bu bircə ildə,
Sənə göz dəyməsin, pis gözə bıçaq.
İnana bilməzdim dördcə fəsildə,
Boyun çinar ola, qolların budaq.

Gedəndə demişdik: – yazıq uşağın
Silah götürməyə çatarmı gücü?
İndi keşiyində durub bayrağın,
Gedir ön sırada, gedir birinci.

Kişini papaqla tanımışıq biz,
Ölkəni özünün bayrağı ilə.
Kişini çətində sınamışıq biz,
Ərzi silkələyən yarağı ilə.

Kişinin papağı yerində gərək,
Qeyrəti, namusu yaşatmaq üçün.

Kişini həmişə zirvədə görək,
Ehtiyac olanda daş olmaq üçün.

Burda bir uşaqdın, orda bir kişi,
Çiynində saxlarsan indi dağı da.
Qardaş, əsgər işi, əsl ər işi.
Bacar gül əkməyi, dağ yarmağı da.

Uzaq Şərq… Soyuqlar düşür yadıma,
Eh, əsgər deyildim, buz baltasıydım.
Qəribə görünür indi adama…
Qəribə görünür yaddaşım-yadım.

İtirdim… İtirdim qızıl günləri…
(Tökdü çiçəyini yaşıl bağlarım.
Hara apardınız qızıl gülləri,
Ey mənim məhəbbət dolu çağlarım).

Komandir nə desə «mən, mən» – deyərdim,
Canımda bir gilə qorxu yox idi.
Sarımtıl nazik bir köynək geyərdim,
Eh, daha o günlər bir xatirədi…

Qarla yuyulardım beldən yuxarı,
Yuxuma girərdi tər bənövşələr.
Üstümdən keçərdi çayın axarı,
Çiynimdə bitərdi yaşıl meşələr.

Əsgər köynəyində Amur boyunca,
Səhər güllərinə köynək olmuşam.
Baxıram şəklinə boy-buxun uca,
Nə yaman, nə yaman kövrək olmuşam.

Sərhəd – torpaqların müqəddəsidir,
Ayaqlana bilməz, kiçilə bilməz,
Sərhəd vətənimin daş köbəsidir,
Qoparıla bilməz, kiçilə bilməz.

Dünən də bir «Boinq» sərhəddi pozub,
Alıblar payını dünən küçüklər.
«Nə olsun, bir işdir, yolunu azıb» –
Əfsanə danışır «ağzı göyçəklər».

Bu gün bir-bir keçər, sabah da beş-beş,
O biri gün isə…
Bəs qeyrət, bəs ar?
Sərhəd kənd çəpəri deyil ki, qardaş,
Həyətdən-həyətə keçsin budaqlar.

Vətən, vətən kimi duyulmalıdır,
Quşa da əzizdi qurduğu yuva.
Gözləri torpaq tək ovulmalıdır,
Kimin ki, qəlbində yaşayır dava.

Nələr danışmadı məktubun, nələr…
Alıb xatirələr apardı məni.
Yapışdı əlimdən qızıl lalələr,
Amur köklərimdən qopardı məni,

Səpdim çiçəkləri çayın üstünə,
Gözümün önündə o qız göründü.
Alışdım istimə, yandım tüstümə,
Gəlib söndürməyə Araz süründü,

Sərhəd çaylarını tanıyıram mən,
Dərdini əsgərlə bölüşməsi var.
O vaxtdan bu günə ta yanıram mən,
Qoşa sahillərin birləşməsi var.

Nə əsgər olacaq onda, nə ordu,
Dünyanın toy günü başlayacaqdır.
Onda səsləyəcək qış da baharı,
Onda pis baxışlar daş olacaqdır.

Tutacaq dünyanı bayatı, ağı,
Qərəzsiz yanacaq qardaş, od-ocaq.
Onda yer şarının uca dayağı
Yamyaşıl yarpaqlı nəğmə olacaq.

**II**

Deyən çox yayındım mətləbdən qardaş,
Mənim deyəcəyim hələ öndədi.
Sən nigaran olma Mətləbdən qardaş,
Yazdığın məktubu o da dinlədi.

Sən onun sonuncu əsgər əmisi,
Sən mənim beşinci əsgər qardaşım.
Bu gün qoruyursan yad gözdən bizi,
Sabah da qoruyar Mətləb qardaşın.

Nəslimiz maşallah, budaq-budaqdı,
Yağının gözünə sancılmaq üçün.
Gördüyün o dağlar elə o dağdı,
Dayanıb durublar bac almaq üçün.

Çingizi, Teymuru udub o dağlar,
Xalqın yadındadır Qacar, Nadir şah.
Gülüş də, kədər də dadıb o dağlar,
Fəqət, yandırmayıb sinəsini ah.

Başqa torpaqlarda deyil gözümüz,
Babalardan qalan bəs edib bizə.
Qardaş, ikiüzlü deyil üzümüz,
Tarix verib, verir qiyməti sözə.

Nə oldu Napaleon?
                    Nə oldu Hitler?
Onlar bu dünyaya neynədi getdi?
O vəhşi, o quzğun qudurmuş itlər,
Şərəfsiz ömrünü çeynədi getdi.

Zamanın fırlanan ağ təkərisən,
Gedirsən…
          Nə şaxta, nə qar, nə ayaz…
Sən sülh döyüşçüsü, sülh əsgərisən,
Sülhün keşiyində duran yıxılmaz.

Bunlar ürəyimdən süzülən səsdir,
Sussam varlığımı çəkərlər dara.
Vətən torpağının alqışı bəsdir.
Vətən torpağını qoruyanlara.

## III

Az qala yadımdan çıxası idi,
Yazırsan: «nə kimi təzə xəbər var»?
Sazıma mizrabın nəfəsi dəydi,
Sazımın telində oyandı bahar.

Xəbərlər… Hərəsi bir duzlu nağıl,
Duzlu bayatılar işıq qanadlı.
Xəbərlər – səması ulduzlu nağıl,
Koroğlu soraqlı, Babək inadlı.

Xəbərlər toy dolu, muştuluq dolu,
Elin ürəyindən, dilindən qopur.
Xəbərlər buluddan tökülən dolu,
Əriyib torpağın camına hopur.

Hamının növrağı, güzarı yaxşı,
Hər evin payına düşüb mükafat.
Deputat seçilib Mərd qızı Yaxşı,
«Qızıl ulduz» alıb qonşumuz Afət.

Dönüb əsgərlikdən Ramazan, Əli,
Sevinc gətiriblər dərəyə, dağa.
Kiminin payına düşüb «Jiquli»,
Kiminin payına bəzəkli «Volqa».

Üfüqə dirənib üzüm bağları,
Zavod da bu ildən başlayıb işə.
Qocalar nər kimi eşib bığların,
Analar toy üçün düşüb təşvişə.

O axşam Əliyə elçilik etdik,
A qardaş, dünyanın işi belədir.
Dünən Ramazanın toyuna getdik,
Əsgər yoldaşları «tufan» elədi…

Aşıq Şiraslanı gətirmişdilər,
Sözlər alışarmış aşıq dilində.
Dil açdı sazında, dil açdı nələr…
Var olsun, aşıqlar Şirvan elində.

Qurbandan oxudu, Kərəmdən dedi,
Evlər silkələndi zənguləsindən.
Yandırdı aşığı eh, Araz dərdi,
Təbriz də düşmədi onun dilindən.

Ustad Ələsgərdən, aşıq Alıdan,
Göynəyə-göynəyə oxudu aşıq.
Bilal dan da dedi, sökülüncə dan,
Sözlərdən bir xalı toxudu aşıq.

Məclisin qəlbini ovsunlamışdı,
(Necə də gözəldi aşıqlı toylar…)
Sevən ürəklərdə ümid alışdı,
Sevən ürəklərdə kükrədi çaylar.

Arada bir qoşma söylədi aşıq,
Görünür, təzəcə bəstələmişdi.
Ən şirin arzular dilədi aşıq,
Sərhəd güllərindən dəstələmişdi.

«Şəkərli, nağıllı, duzlu dünyada,
Çöhrəsi güllər tək gülə əsgərin.
Yığıb dövrəsinə qohumu, yadı,
Dərdini anası bölə əsgərin.

Bu şəkər qızların gözləri yolda,
Ətəyi torpaqda, əlləri kolda,
Vallah, qəribsəyib çiçək də, kol da,
Qaynana qədrini bilə əsgərin.

Basıbdı düzləri lalələr, tər-tər,
Bir qolum Pirsaat, bir qolum Tərtər.
Dönsün əsgərlikdən igidlər, nərlər,
Toyuna Şiraslan gələ əsgərin».

**IV**

Hardasa qəlbimin gizli qatında,
Bəlkə də sənin də gözləyənin var.
Bir sevgi, bir ümid tapıb adında,
Gözündə odunu gizləyənin var.

Dönərsən ordudan, elçi gedərik,
Təki elçi gedək, təki toy olsun!
Təki sevincimiz gül açmış ərik,
Torpağa döşənib axan çay olsun.

İndiysə sayıq ol, a sülh əsgəri,
Həsrət qala bilər insana bahar.
Şar kimi əlinə götürüb Yeri,
O üzə, bu üzə fırlayanlar var.

Sayıq ol, dərələr udmasın dağı,
Analar qarışıq yuxu görməsin.
Ağaclar tökməsin yaşıl yarpağı,
Torpaq itirməsin odun, nəfəsin.

Qardaş, yatanda da bir az sayıq yat,
Bilirsən dünyamız necədir, nədir.
İnsansız Yer üzü, bütün kainat,
Urfasız, çörəksiz quru təknədir.

Torpaq da insansız dönüb daş olar,
Günəş əllərini dağlardan üzər,
Bircə fəsil olar – o da qış olar,
Buna ulduz dözər, buna göy dözər?

Sayıq ol, cavanlar, bəy dursun qoşa,
Qalansın ocaqlar qızınmaq üçün.
Sayıq ol, insanlar versin baş-başa,
Bir parça çörəyi qazanmaq üçün.

Sayıq ol, sayıq ol, quş kimi sayıq,
O səs ürkütməsin anamız Yeri.
Gərək qoruyaq biz nə qədər varıq,
Hər batan axşamı, doğan səhəri.

Sərhəd güllərini yad gözdən qoru,
Qoru, yad nəfəsdən, bəd niyyətlərdən.
Üfür alovlansın qəlbinin qoru,
Sakitcə böyüdüm Mətləbi də mən.

Böyüdüm dünyanı qorumaq üçün,
Böyüdüm adıma yaraşıq kimi.
Böyüsün arzular qəlbimdə çin-çin,
Böyüsün gözümdə gur işıq kimi.

Sən də köynəyini ona verərsən.
Əsgər köynəyini – sərhəd qoxulu.
Özün tapşırarsan ona, mən yox, sən
Sərhəd güllərini gözü yuxulu.

Gəzdiyim, gəzdiyin cığırları sən,
Ona göstərərsən sərhəd boyunca.
Xoşbəxt olasıyam onda qardaş mən,
Təsəlli tapacaq onda bir qoca…

***1983***

## ATALAR, ANALAR, OĞULLAR

***Ağsu rayonunun təkcə Ləngəbiz kəndindən Böyük Vətən müharibəsində iştirak edənlərdən 65 nəfəri geri dönməyib. Bəzilərinin harada həlak olduğu, dəfn edildiyi məlumdur. Çoxu isə məlum deyil. İllər keçsə də ailələrinin, övladlarının, qohumlarının gözləri yolda, qulaqları səsdədir. Müharibəyə olan nifrətləri isə…***

***1961-ci ildə baş vermiş bir hadisə xatirimdə silinməz izlər buraxıb…***

### I

Çarpaz əllər sinəsində
Bir yumağa dönür ana.
Tək söyüdün kölgəsində
Öz-özünə dinir ana:

«Arzularım solğun çiçək,
Ürəyimin sapı kövrək,
Balalarım Babək, Beyrək,
Mən anayam, mən anayam…

Qapım bağlı qalar, olmaz!
Gözüm yuxu alar, olmaz!
Arzum bir də solar, solmaz!
Mən anayam, mən anayam!

Qəlbim dolu qalasıdır,
Qəlbim Vətən qalasıdır.
Yuxum da çin olasıdır –
Mən anayam, mən anayam…

Ağ olubdur yollar mənə,
Dağ olubdur yollar mənə,
Doğulubdur yollar mənə,
Mən anayam, mən anayam…»

**II**

Öz-özünə dinir ana:
«Müharibə –
Yerin-göyün talançısı.
Ümidlərin, arzuların,
Dərdi, yası…»

Müharibə – bu ağır söz
Anaların ürəyində
                qəlpə idi.
Qarğışları, nifrətləri,
                Qərbə idi.
Ölüm yüklü hərbə idi.
Oğullar da sütül getdi:
Əllər silah görməmişdi,
Sevənlər «ah» görməmişdi.
Müharibə –
Dövrün ağır sınağıydı.
Qorxmaz igid el vüqarı,
Qorxaqlar el qınağıydı.

Öz-özünə dinir ana:
«Müharibə –
Duz kisəsi asılıbdır sinəmizdən,
Üzü nifrət,
İçi dəhşət –
Parıltısı buz parçası!
Müharibə –
Bir oddur ki,
düşəcəkdir əlinizdən,
Əriyəcək alovunda
Ömrünüzün toyu, yası.
Əsrlərin qulağında
Səslənəcək onun səsi.
Müharibə!
Kirpiklərdə asım-asım
Dağ olubdur, daş olubdur,
Gilə-gilə yaş olubdur.
Siləsiyik adınızı xəritədən
Zəlzələyə qurban gedən
şəhər kimi!
Kəsəsiyik kökünüzü
bir ər kimi!
Mən anayam, deyim, düzü –
Birdəfəlik kəsəsiyik kökünüzü!
Asiyadan,
Afrikadan,
Elə bütün qitələrdən
Çəkin,
çəkin gözünüzü!
Çəkin,
çəkin köçünüzü!

Biz haqq yolun yolçusuyuq
Tarix bunu yaxşı bilir,
niyə sayım?
Niyə sayım qara günlər düşsün yada,
niyə sayım?
Əmim, dayım o dünyada».

**III**

Bu dağların vüqarıydı gedənlər,
Dağ görməyən qəlbimizdən getdilər.
Ömrümüzdən yuxu kimi ötənlər,
Qayıtmazlar, daha bizdən getdilər.

O tək güllə, o taleyə bəs etdi,
Niyə qismət bəxtimizi nəs etdi.
Onlar yeri al qanıyla isitdi,
Güc tək qoldan, nur tək közdən getdilər.

Biz hay verdik dardan gələn yüz ünə,
Biri öldü, dayaq oldu yüzünə.
Könlümüzün dərəsinə, düzünə,
Düşən nurdan, düşən izdən getdilər.

Öz-özünə dinir ana:
«Ər də getdi,
Dodağında bayatılar qönçə-qönçə.
Gözlərimdən ovucuma
Yaş ələndi inci-inci.

Köynəyini qoydu getdi,
Elə bil ki,

Köynəyini qoydu getdi.
Gecə-gündüz iyləmişəm o köynəyi,
Mən öpmüşəm,
səsləmişəm o köynəyi.
Öz-özümlə danışmışam,
Qoxusuyla yaşamışam,
Döşlərimin arasında
bəsləmişəm o köynəyi.
O köynəkdə məni sevən,
məni duyan,
mənə həyan.
O, köynəyi qoyub getdi,
O, bu günü, o, sabahı
duyub getdi.
Getdi… getdi, axı neyçün?!
Dodağında bayatılar qönçə-qönçə:

«Əziziyəm, yaşa varam,
Ömrü sənlə başa vuram,
Eşitsəm ki, səsin gəlmir,
Bircə an da yaşamaram.

Mən seçmişəm dili oddu,
Düz-dünyamız indi oddu.
Mən gedirəm oğul böyüt,
Bu arzudu, bu muraddı.

Mən gedirəm izim qalır,
Qulağında sözüm qalır,
Torpaq haqdı, torpaq çoxdu,
Bu torpaqda gözüm qalır».

## IV

Evdə qadın kimi, çöldə ər kimi,
Dözdü hər ağrıya, hər çətinliyə.
Bir oğul böyütdü ana nər kimi,
Oğul deyə-deyə, ər deyə-deyə.

Oğul əsgərliyə çağırılan gündən
Olmuşdu ananın ağrısı iki.
Olmuşdu saçları ağappaq, dən-dən,
Özünü boğurdu öz qəlbindəki.

Tənhalıq – qəlbinin alışan şamı.
Tənhalıq – evini açan, bağlayan.
Həsrətdə keçirdi gündüz, axşamı,
Özünü sayırdı özünə həyan.

Ərini udsa da odlu cəbhələr,
Bir ümid qalırdı: «…Bir yazı yollar…»
Nə nişan verdilər, nə də bir xəbər
Daş yağdı yollara, qurudu yollar.

Kiminin ABŞ-dan gəlirdi səsi,
Kimi Türkiyədə qalıb təkəlli…
Kiminin AFR-dan gəlirdi kəsi.
Nəfəsi qalıbsa, bu da təsəlli…

## V

Oğlunu – gözünün görəcəyini,
Su atıb uğurla yola saldı o.

Kəsdirib doqqazın girəcəyini,
Yenə həsrətiylə qoşa qaldı o.

Yollar, yenə yollar çəkdi gözünü,
Keçirdi şəhərlər, kəndlər içindən.
Ana, həsrətinə bükdü özünü,
Eləcə gümanlar, zənnlər içində.

Hər gün elə bil ki, ağır daş idi,
Gör necə ağırmış zamanın çarxı.
Zamanmı naşıdı, omu naşıdı,
Bəlkə qurumuşdu illərin arxı.

Məktublar onunçun daşdan çıxırdı,
Ayda beş məktuba demirdi yazı.
Hər məktub alanda qışdan çıxırdı
Dönürdü baharı, dönürdü yazı.

Dözürdü gecələr səhərə qədər,
Dözürdü sevincdən qəhərə qədər.
Dözürdü qonşunun çəpərinəcən,
Dözürdü özünün təpərinəcən.
Dumanlar içindən keçirdi günlər,
Gümanlar içindən keçirdi günlər.
Aylar bir-birindən uzaq düşürdü,
Elə bil günlərə sazaq düşürdü.
Məktublar elə bil qanad gərirdi,
Ona dözüm gəlir, inad gəlirdi.

## VI

Cəbhə yollarıyla ötürdü oğul,
Yolda gördüyünü götürdü oğul.
«Görən bu ad kimin, bu qəbir kimin?
Adsızca uyuyan bu səbir kimin?
Kimindi tək qalan bu məzar görən?
Onun kimliyini kim yozar görən?
Bəlkə elə bunlar kəndlilərimdi,
Bəlkə bu atamdı, bu Dağkərimdi?..»
Ana da düşünür: «Allah kərimdi.
Yenə il ötüşər, çöhrəmiz gülər,
Mənim igid balam ordudan dönər.
Öpüb-oxşayaram bala boyunu,
Çalıb-çaldıraram oğul toyunu.
Sonra sevinmək də, gülmək də olar,
Hələ rahat-rahat ölmək də olar».

## VII

Bu gün dünya qarışmışdı:
Azalmışdı Vyetnamda
          çiçəklərin pıçıltısı,
          bulaqların şırıltısı.
Kuba boyda bir adanı,
Batırmağa hazır idi
          öz qonşusu,
Yanırdı göy,
          yanırdı su.
Dünya yaman qarışmışdı,
Yazıq ana bilmirdi ki,

Sinədəki ürəkmidi,
yoxsa daşdı.

Öz-özünə dinir ana:
«O vaxt hamı bilirdi ki,
İstəklilər yolda idi,
Gərəklilər yolda idi –
Ağır cəbhə yollarında.
O vaxt hamı bilirdi ki,
Yağış deyil, güllə yağır,
Yağır cəbhə yollarında
ölüm, itki.
O vaxt hamı bilirdi ki,
Ürəklər də daşa dönüb,
çörəklər də.
Bir cür idi küləklər də –
qara xəbər…
Gecələr də bir cür idi,
Bir cür idi doğan səhər.
O vaxt hamı bilirdi ki,
Bulamalar, fəsəlilər
azalmışdı.
Bir-birinə ürək-dirək,
təsəllilər
sozalmışdı.
O vaxt hamı bilirdi ki,
Ümid, həyat,
ərlərindi…
O vaxt kədər,
O vaxt möhnət,
O vaxt nifrət sellənirdi.

O vaxt bütün ürəklərdə
Bir alınmaz
Ümid – bayraq yellənirdi.

Keçən keçdi,
Olan oldu.
Ölən öldü,
Qalan qaldı.
Axı niyə…
İl bəd gəlir
                ildən-ilə?
Bircə oğul böyütmüşəm –
                o da belə!»
Öz-özünə dinir ana:
Fikirləri pərən-pərən.
Əl qaldırır: «Allah, görən
Evə nə vaxt dönər balam?
İgid balam, əsgər balam,
O nər balam,
Qorxmaz balam,
Hünər balam.
Əl üzmüşəm atasından,
Əl üzmüşəm…
Saçım qardı üzülmüşəm…
Ya ilahi, dönsün oğlum,
Döşənim yollar üstünə.
Ana kimi sərələnim,
O doğma qollar üstünə.»

## VIII

Bir gün məktub aldı ana oğuldan,
Məktubda rəngli bir şəkil var idi.
Görəndə başına dolandı cahan,
Şəkil əllərində titrədi, dindi.

Şəkildə ər əsgər, oğul da əsgər,
Taleyin qəribə qisməti varmış.
Ömründə doyunca görüşməyənlər,
Sən demə şəkildə qoşalaşarmış.

Həsrəti aylardan, illərdən axıb,
Yığışıb daş olub xatirələrdə.
Cəbhə odlarından siyrilib çıxıb,
Ər də heykəl olub, xatirələr də.

Susurdu bənövşə, susurdu nərgiz,
Susurdu şəkildə sözlü bahar da.
Ananın ürəyi çırpınan dəniz,
Eh, nələr yatırdı göy dalğalarda…

Orda həsrəti şam, ümidi şan-şan,
Orda ər qoxusu, orda ər səsi.
Orda əllərini öpən, oxşayan,
Kişi hənirtisi, kişi nəfəsi.

Orda arzusunun əvvəli, sonu,
Orda daşa dönüb intizarı da.
Nə çoxmuş zamanın dərdi, oyunu,
İçində yanırdı ahu-zarı da.

Yaman sarsıtmışdı o şəkil onu,
Ölüb-dirilmişdi ana Min kərə.
Əgər doğrasaydın damarlarını,
Bir damla qanı da düşməzdi yerə.

Sən demə şəkildə danışar insan,
Sən demə daş gözlər alışar, yanar.
Sən demə olarmış…
                    Olarmış dastan,
Səngərdə doğulan o qeyrət, o ar.

Şəfəqi qan olan illər içindən,
Bir baxış süzülür daşa, torpağa.
Çiçəklər içində, güllər içində
Abidə çevrilib dönüb çırağa.

Atanın, oğluyla şəkli yox idi,
Bu da bir möcüzə, bu da bir heyrət!
Heyrətin önündə ana baş əydi,
Baş əydi vicdanı, bir də məhəbbət.

Fikirlər ananı çəkib apardı,
O qanlı illərə, keçən anlara.
Ona elə gəldi əlləri qardı,
Ona elə gəldi çəkilir dara.

Düşündü yaxşı ki, daş deyil insan,
Düşündü yaxşı ki, xatirələr var.
Dolandı başına bir daha cahan,
Döşəndi yoluna nakam arzular.

Abidə…
Ünvanlar köçübdür daşa.
Hər əsgər bir yurdun odu, ocağı.
Burda torpaqlar da verib baş-başa,
Burda böyüyübdür elin qucağı.

Oğulu keşikdə əli silahlı,
Geyinib əyninə qızıl illəri.
İstəmir qayıtsın, qadalı, ahlı,
Nə bir qış axşamı, nə yaz səhəri.

## IX

Bir göz qırpımında, bir an içində,
Ürəyi od tutur alışır onun.
Elə bil itmişdi duman içində,
Əli-ayağına dolaşır onun.

Ananın gözündə donmuşdu şəkil.
Şəkil əllərində iridən-iri.
Keçir ürəyindən o nişan ili,
Dolur bulud kimi, dolur gözləri.

Oğulla, ər ilə durur üz-üzə,
Adicə bir şəkil nələr yaradır.
Bir ünvan açılır nurlu gündüzə,
Ananın köynəyi artdıqca artır…

Kaş ki, olmayaydı bu qəfil xəbər,
Həsrət ona şirin…
(Kimə can şirin).
Kimisə gözləmək kimçin birtəhər,
Onunçun, onunçun dünyadan şirin!

Öpür balasını, öpür ərini,
Açıb sinəsinin üstünə qoyur.
Boğur öz içində öz qəhərini,
Ürəyi soyuyur, dərdi soyuyur.

**X**

Elə xəbər gəldi, kənd silkələndi,
Böyük də, kiçik də dindi, danışdı.
Uçan durnalar da torpağa endi,
Sevincin, kədərin yeri qarışdı.

Hər ağız bir nağıl yazdı, yaratdı.
Hamı da dedi ki, o qəhrəmandı.
Bizim bir igid də beləcə artdı,
Elin gözaydınlıq şamları yandı.

Hər əsgər gələndə kənd yığışardı,
Öləndən, qalandan danışardılar.
Elə kəsilməzdi söhbətin ardı –
O cəbhə,
bu cəbhə,
Vətən,
qeyrət, ar.

Bu gün də həyətdə çaxnaşma vardı,
Fəqət əsgərsizdi bu görüş yeri.
Ana elə bildi kənddə bahardı.
Ana elə bildi qayıdıb əri.

Şəkil əl üstündə gəzdi əlləri,
Oyandı hər çığır, oyandı hər iz.
Hamı xatırladı ağır illəri,
Hamı da baş əydi səssiz, səmirsiz.

Adlar bircə-bircə köçübdür daşa,
Hər əsgər bir yurdun odu, ocağı.
Burda torpaqlar da verib baş-başa,
Burda böyüyübdür elin qucağı.

**XI**

Hönkürtüylə
Bəbəkləri yana-yana
Dinir ana,
«Müharibə –
Yerin-göyün talançısı,
Ürəklərin
          dərdi, yası!
Yaxşı bilir ər gəlinlər,
          ər analar
Bilir dünya, bilir hamı.
Müharibə –
Arzuların, ümidlərin
          axan qanı, sönən şamı…»

**XII**

Kaş ki, olmayaydı bu qəfil xəbər,
Həsrət ona şirin,
                    (kimə can şirin).
Kimisə gözləmək, kimçin, birtəhər,
Onunçun, onunçun dünyadan şirin.

Kəsilir fal üçün gedən cığırlar,
Bu da bir taledir, bu da bir ömür.

Borandan çıxırlar, qardan çıxırlar,
«Vətən, Vətən» – deyən igidlər ölmür!

Ananın nur dolu baxışlarında,
Bir acı, bir şirin xatirə axır.
Keçdiyi tənhalıq yoxuşlarından
Bir ata heykəli, bir oğul baxır.

Dinən bir ömürlük ata alqışı,
İtən bir ömürlük hicran buzuydu
Oğlunun işıqlı əsgər baxışı,
Üfüqdən boylanan dan ulduzuydu.

***May, 1981***

# MÜSTƏNTİQ

Onu silkələyir o qadın səsi,
Sualın hər biri bir odlu güllə.
Dolur gözlərinə siqar tüstüsü,
Elə bil açılır üzündə sillə.

«Buna nə ad verək, bu da peşəmi?
Ömrün qızıl çağı uçdumu hədər?
İşə bax, əlimdən alıb kişimi,
Haqsızlar, haqlılar, nə bilim, nələr…»

Mən də hüquqşünas, o da…
Bəs niyə –
Ürəyə təpilmiş kədərik, dərdik?
Budurmu sədaqət «dəli sevgiyə»,
Biz ki, can deyərdik, can eşidərdik

Mən də hüquqşünas, o da…
Bəs nədən,
Mən onu, o məni vermirik yola?
Niyə zəhər damır şirin dilindən?
Niyə yol verilib bu qalmaqala?

Hələ tələbəykən arzulayardı:
«Gün gələr, seçərik əyrini düzdən».
Bəs niyə bu peşəm bağrını yardı?
Bəs niyə düşmüşəm beləcə gözdən?

Bəs bugünkü söhbət, bugünkü «güllə»?
Niyə soruşmadım, axı niyə mən?

İşə yollanarkən bildirdi Güllü:
– Gəlim üç tamamda məhkəməyə mən.
Gedimmi, qalımmı?
                    Yox, düşün bir az…
Məhkəmə… Boşanmaq… Bu, çıxış deyil,
Arvadın sözüylə oynamaq olmaz,
Bu heç kişiliyə layiq iş deyil.

Yaxınım nə deyər, yadım nə deyər?
Bizim eşqimizin şahidləri var…
Eşitsə saçını yolar söyüdlər,
Eşitsə hirsindən çırpınar çinar.

Bilsələr qapımı açarmı dostlar?
Yox, gəlib yetişər taleyin sonu.
Siqaret deyil ki, qeyrət, namus, ar,
Tüpürüb, biryolluq atasan onu.

Tablaşa bilmərəm bu tənələrə,
Şam olub əriyər varlığım mənim.
Ölərəm, qoymaram göz görə-görə,
Sönə bir qız balam – çırağım mənim.

Asılır suallar, pəncərəsindən,
Asılır titrəşən pərdələr kimi.
Asılır elə bil Yer Kürəsindən,
Asılır sürünən kölgələr kimi.

Bu ara otaqda görünür Azər –
Şair təbiətli o iş yoldaşı.
Baxır ki, görünür Şahin birtəhər,
Baxır, düyünlənib yenə də qaşı.

«– Qəm yemə, qismət hara,
biz ora» – Azər coşur.
Girişir zarafata,
Misal çəkir, söz qoşur:

«Ağ günləri ulduz say,
Ağrıları yudu çay.
Aç qolunu taybatay,
Sevinc bizə tən düşüb.

Günəş baxır Xəzərdən,
Çimir, çıxır Xəzərdən.
Qurumuşam sehirdən, –
Üstümüzə gün düşüb».

Soruşur: – Kassanı oğrular yarıb?
Yenə şikayətə gəlib Mirzoyan?
Yoxsa yenə Güllü «səs-küy» qoparıb?
Yoxsa rəy gəlibdir yenə o işdən?…
Dayan!…

Bütün bu ağrılar başlanıb ordan –
O rəyi ləngiyən «qaranlıq» işdən.
Şahin üz çevirib şamdan, nahardan,
Hamıdan tez gəlir, gec dönür işdən.

Evində söz-söhbət burdan başlanıb.
Axı nə etməli?
Hər gün Mirzoyan,
Gözünü açmamış üstünü alıb,
Deyir: Kimdir qatil?
Axı nər balam…

«Volqa» çevrilmişdi Saray yolunda,
Bahar çiçəkləri batmışdı qana.
Sürücü sağ idi. Bir az qolundan…
Getmişdi dünyadan Arturla, Lena.

İki gənc… Cinayət… Həmin gün elə,
Rayon müstəntiqi iş başlamışdı.
Ya elə naşılıq, ya bilə-bilə…
Nə sübut, nə dəlil?! – İş dolaşmışdı.

Sürücü yazırdı: «Artur sürübdür
«Volqa»nı, hadisə baş verən anda.
Yalvardı. Dost idik…– Dedim eyibdir.
İndisə qalmışam sübut hayında.»

Nə şahid var idi, nə də ki, dəlil,
Həm də ki, maşını düzəltmişdilər.
Qalmışdı geridə artıq yarım il,
Nələr yazmayırdı Mirzoyan, nələr?!

Hər şeyi yenidən başladı Şahin,
Deməyin üstünü qəm aldı, yox! Yox!
(Onu da deyim ki sürünən işin
«Sağ ol»u az olur, «şikayət»i çox).

Görüldü tədbirlər, çəkildi plan,
Vicdan… Ayaqlayıb…
Yox, keçmək olmaz!
Qızıl köynək geyib dünyanı dolan,
Doğruya yalandan üz çəkmək olmaz!

«Volqa»nı düzəldən ustalar – ümid…
Müstəntiq min evə, min qəlbə girdi.
Tapıldı Ələddin, tapıldı Həmid,
Sübutlar, dəlillər bir-bir göyərdi.

Maşına yaxşı bir maket düzəldi,
Həmin ustaların öz əlləriylə.
Demə doğru öldü, demə düz öldü –
Doğuldu Şahinin əməlləriylə.

Kim sürüb «Volqa»nı, Artur, ya Gena?
(Kriminalistika, susma danış, din!)
Nə üçün tələsdin ölümə, Lena?
Axı həqiqəti sən deməliydin!

Ölüm aktlarını, əzik maketi,
Genanın xəstəlik tarixini də,
Yığıb göndərmişdi rəy alsın qəti,
Ordan – Moskvadan, yoxsa ki, gündə…

Cavab gecikirdi…
(Vaxt azalanda,
Müstəntiq ilan tək hamını çalır.
Günlərlə, aylarla iş uzananda,
Prokuror aləmə hay-haray salır.)

Onu silkələyir o qadın səsi,
Suallar hər biri bir odlu güllə.
Dolur gözlərinə siqar tüstüsü,
Elə bil açılır üzündə sillə.

Oxucum, demirəm bu sual sənin,
Döyüb ünvanını qapına gələr.
Yəqin düşünürsən: «işini Şahin,
Atmasa ailə dağıla bilər».

Yox qardaş, bu yerin düz demədin sən,
Kollektiv özü də ailə kimidir.
Gərək hər birini əziz biləsən,
Onlar bir rübabın qoşa simidir.

Kollektiv! Səadət ondan başlanır,
Çörəyin dadını duyursan burda.
Yoldaşa məhəbbət burda aşlanır,
Burada doğulur qış da, bahar da.

Kollektiv! Sevgiyə bir isti Yuva,
Alıb qucağına isidəsidir.
Axtarma dünyada sən dərman-dava,
Cəmiyyət közdürsə, o didəsidir.

Sağlam kollektivin ay aydınlığı,
Günəş məhəbbəti, yaz nəfəsi var.
O, yerli-yataqlı qranit dağın,
Yeri də gələndə kövrəlməsi var.

Adi ürək kimi danışar, dinər,
Onun öz iqlimi, öz fəsilləri.
Bir də görərsən ki, uşağa dönər,
Gəzər saçlarında kövrək əlləri.

Şahinin özü də düzünü desək…
Düşmürdü dodaqdan adı, hörməti.
Əmək haqqı yüksək, rütbəsi yüksək,
Vəzifə verdilər yaxın getmədi.

Görmüşdü sel olub dərdi daşanda,
Yoldaşın yoldaşa sədaqətini.
Görmüşdü qolundan əl yapışanda,
Əllərin odunu, hərarətini.

Anası öləndə… Qalır yadında,
Ayaqdan getdilər, əldən getdilər.
Qonşu qarşısında, qohum yanında,
Başını zirvədən uca etdilər.

* * *

Əqrəblər zamanı qayçılayırdı,
Məhkəmə,
Üç tamam…
Nə etməliyəm?
Elə bil yatmışdı Şahin, ayıldı:
Təcili işinə gərək gedim mən.

Məni məhkəmədə tanıyan olar,
Ondan gəlişini soruşar biri.
Məni də, onu da qınayan olar,
Girərik torpağa biz diri-diri.

Gedim yarı yoldan qaytarım onu,
Gedim söhbət edim yerli-yataqlı.
Yalvarıb-yaxarıb, qoparım onu,
Qoparım inaddan köklü-budaqlı.

Deyim nahaq yerə məni qısqanır,
And içim, dönmərəm bir də gec evə.
Deyim Gilənar da hər şeyi qanır,
Deyim aramıza salmasın dava.

Deyim ailə qurmaq ev tikmək deyil,
Uçuldu, əyildi təzələyəsən.
Deyim ər demisən mənə, ər də bil! –
Düşmən deyiləm ki, güllələyəsən.

Deyim ki, doğranar axı, gilə nar,
Barmaqlar susanda, bıçaq dinəndə,
Deyim necə olar axı Gilənar,
Günəş səfərindən vicdan dönəndə?

Dünyada övladdan, ərdən yan duran,
İtirər həyatda boyalarını.
Oxuyum astadan ürək yandıran,
Köz üstə köz qoyan laylalarını:

«Layla balam, a laylay,
Buludlar oldu lay-lay.
Evimizə sən bəzək,
Göy üzündə ulduz, ay.

Oxuyuram yatasan,
Ay nuruna batasan.
Ata-ananla qoşa,
İstəyinə çatasan.

Ürəyini elə ver,
Şirinliyi dilə ver.
Bir əlini atana,
Bir əlini mənə ver.

Saçları sünbül balam,
Çiçək balam, gül balam.
Ata, analı böyü,
Ömrün boyu gül, balam».

Bir Azərə baxır, bir də özünə,
İstəyir otaqdan dinməzcə çıxsın.
Azər söz calayır sözün gözünə.
Tutulur, bilməyir heç necə çıxsın,

– Əvvəl sualıma cavab vermədin,
İkinci qulaq as, bir eşit məni.
Bilirəm ağırdır bugünkü dərdin,
«Neynim, necə edim» – didir qəlbini.

Görüşdük Güllüylə bu gün işində,
Bacı-qardaş kimi təmiz danışdıq.
Danışdıq işindən, dedik işindən,
Hər şeyə, hər sözə bir-bir qarışdıq.

Bugünkü söhbəti o, dedi bizə,
Bir az da hirsindən dolaşdı dili.
Nazim gileyləndi: – Yaraşmaz sizə,
İki hüquqşünas, iki sevimli…

Dedi: – Düz deyirsiz…
Xəyala getdi.
Boşanıb evlənmək…
İkinci dəfə…
Başını qaldırıb etiraf etdi –
Dedi: Yol vermişəm böyük bir səhvə…

Boşaltdı ürəyə yığdıqlarını,
Boşaldı elə bil dolu tüfənglər.
Açdı, çözələdi dığdığlarını –
Evimiz…
Günümüz…
Nə bilim, nələr…

Nazim məsələni qoyub büroda,
Sənə üç otaqlı mənzil verilsin.
Qoymarıq Şahini, qoymarıq darda,
Qoymarıq qəlbində tellər gərilsin.

Görüşdük atası, anasıyla da,
Çəkdik tərəzidə əyrini, düzü.
Görüşdük nənəsi, babasıyla da,
Dedik bar gətirər böyüyün sözü.

Otur, məhkəməyə gedəsi deyil,
Otur, ərzələrin cavabını yaz.

Bir bax hansı işdə çatışmır dəlil,
Bir bax hansı işi ləngitmək olmaz.

Götür Moskvaya teleqrama ver,
Vaxtın gündən-günə daralasıdır.
Mirzoyan yenidən gələcək səhər,
Yenə də qanımız qaralasıdır.

Jurnalist gələcək yanına bu gün,
Dolaşıq işlərdən «oçerk» yazmağa.
Oxuyar qəzetdə Güllü – sevgilin,
Qara fikirlərdən qurtarar yaxa.

Görər ki, ömrünü işə vermisən,
Görər ki, axşamlar iz qoyub gedib.
Görər ki, göylərdən ulduz dərmisən,
Görər ki, ağ şamlar köz qoyub gedib.

Gözəl istintaqçı, gözəl də insan,
Sevinsin – payına düşüb belə yar.
Bir səhər yolunu kəsəcək vicdan,
Deyəcək: «Nə haqqın, nə cürətin var?»,

Katibə qapını döyür bu zaman:
– Şahini təbrikə gəlmişəm Azər.
Rəy gəlib o işdən, özü də tamam,
Bəlkəsiz, filansız, təmiz, yerbəyer.

– Axı nə yazıblar?
Dillənir Şahin.
–Yazıblar maşını Gena sürübdür.

Ölçüblər, əziyin uzunun, enin,
Tədqiqat ediblər aktları bir-bir.

Yazıblar: «Genanın əziklərini,
Arturun, Lenanın əziklərini,
Bir də ki, «Volqa»nı – həmin maketi,
Nəzərə alaraq rəy yazdıq qəti».

Şahin inanmırdı qulaqlarına,
Xoş xəbər, xoş xəbər gətirir demə.
Nizamlı kollektiv – bir dəstə durna,
Dərdini, sərini itirir demə.

Xoş xəbər gələndə ömrə gün gəlir,
Üstünə nur yağır günəşdən, Aydan,
Xoş xəbər gələndə ürək dincəlir,
Bəd xəbər gələndə küsür dünyadan.

Yaz gəlib…
Ağır-ağır,
Gözlərdən sevinc yağır.
Azər Şahinə baxır,
Şahin Azərə baxır.

Elə bu an, eh nələr…
Gözlərindən nur içir.
Azər yazan şeirlər,
Ürəklərindən keçir –

«Ağ günləri ulduz say,
Ağrıları yudu çay.
Aç qolunu taybatay,
Sevinc bizə tən düşüb.

Günəş baxır Xəzərdən,
Çimir çıxır Xəzərdən.
Qurumuşam sehirdən,
Üstümüzə gün düşüb».

***Aprel, 1983***

## IKI OĞUL ATASI

***Azərbaycan Milli qəhrəmanı, 29 yaşında həlak olmuş polis kapitanı Eldar Abdulla oğlu Tağızadənin əziz xatirəsinə.***

Xiyaban.... Səmədlə gəzirik qoşa,
Daş olub susmuşuq qəlbimizdə qəm.
Ilahi, arzular dönərmiş daşa,
Baxarmış həyatın şah zirvəsindən.

Gəzirik bir nisgil ürəyimizdə,
Daşları çiçəklə bəzəyirik biz.
Ən ağır dərd yükü kürəyimizdə,
Közərən ocağa bənzəyirik biz.

Gəzirik... Ürəklər sevincə möhtac,
Nə qədər böyükmüş bu qəm şəhəri.
Gül-çiçək içində çırpınan yamac,
Içib şərbət kimi acı kədəri...

Şəhidlər dünyası... Sirli dünyadı,
Nə bir danışan var, nə bir dinən var.
Bir insan adıdır hər daşın adı,
Gör nələr danışır bu qara daşlar...

Bu qara daşların qəlbi qızıl qan,
Işıqlı gözləri bir əlcə qardı.
Bu qara daşlardı bizi yaşadan,
Yoxsa Ana Vətən tapdalanardı.

Gəzirik... Görünmür dünyanın sonu,
Bura ömürlərin son mənzilimi?
Açılmır, açılmır kədərin donu,
Daş olmuş ümidlər öpür əlimi.

Gör burda nə qədər lal qərənfil var,
Titrəkdi, soyuqdu donmuş qar kimi.
Səni çağırıram bahar, ay bahar,
De, hara uçmusan qızıl şar kimi?

Burda mənzil tapmış vicdan, qeyrət,ar
Sanıram kül altda yatmış ocaqdır.
Mənə elə gəlir bu qara daşlar,
Yenidən döyüşə atılacaqdır.

Səməd göz yaşıyla göstərir mənə,
Polis şəhidləri...
                                        Qırılır qəfil
Söhbəti yarıda... Danışır yenə...
Danışır əlində dərdli qərənfil.

Dayanıb hər qəbrin qarşısında biz,
Baş əyib, diz çöküb, rəhmət deyirik.
Boğur qəhər bizi, dolur gözümüz,
Elə bil kədərdən köynək geyirik.

Sakitcə sükutun qoynundan keçib,
Gəzirik lal olmuş məzarıstanı.
Igidlər durna tək hayana köçüb?...
Hər qəbir beynimdə «Şəhid» dastanı...

Bu Çingiz, bu Alı, bu da Salatın,
Nağıla döndülər... Gedənlər dönmür!
Mənim ürəyimdə bir nəğmə yatır,
Işığı azalmır, işığı sönmür!!

Gəzirik...
            Səs gəlir...
                        Kimdir ağlayan?
Odlu bir bayatı qopur dilindən:
«Oyan, gözüm nuru, Eldarım, oyan,
Sanki balam olub, indi ölüm də.

Əzizim Eldar dağı,
El dağı, Eldar dağı.
Bütün dağlar sağalar,
Sağalmaz Eldar dağı.

Əzizim, Eldarımı,
Dərməmişəm barımı.
Gözüm yaşı quruyub,
El ağlar Eldarımı.

Əzizim Eldar şamı,
El şamı, Eldar şamı.
Səni torpaq apardı,
Yanır qəlbimin şamı .

Söylə, üzüm gülərmi?
Dərdin sinədə mərmi.
Iki oğul atası,
Belə uzaq gedərmi?

Qarlı dağlar başımdı,
Çayları göz yaşımdı.
Kədərlə qol-boyunam,
Dərdin yol yoldaşımdı».

* * *

— Ay ana...
Dinir Səməd,
Alışır için-için.
Oyadır al səhəri,
Işığı biçim - biçim.

Ana baxır Günəşə...
«Balam, gələn səhərdi?».
Əlindəki qərənfil,
Qanlı düyün, qəhərdi.

Söylə, axı neyləsin?
Günlər ağır daş olur.
Acı, şirin nə varsa,
Çevrilib yaddaş olur.

Axı  neyləsin ana ?
Oğul dərdi ağırdı.
Göydən yağış, qar deyil,
Sanki kədər yağırdı.

* * *

Bakıda doğuldu bu qeyrət, bu ar,
Sahil küləkləri qanadı oldu.
Vətən, Vətən deyib böyüdü Eldar,
Vətən, vətandaşın soyadı oldu.

Dənizə oxşardı, mavi dənizə,
Şıltaq Xəzər kimi aşıb-daşardı.
Il gəlir, uşaqlar, yığışın bizə...
Duyğu qanadında uçar, yaşardı.

Babası Abdulla, nənəsi Leyla,
Bayram gecəsində odmu, ocaqmı ?
O yaşıl bayatı, o yaşıl layla,
Bu dünya durduqca yaşayacaqmı ?

Kim duyar baharda qar yağacaq, qar,
Yaşıl bir ağac da kökdən qopacaq.
(Taleyin qəribə oyunları var -
Torpaq sevənləri, tez udur torpaq)

Bu qara torpaq da dərd olur mənə...
Onu sevənlərə vurulur o da.
O, torpaq deyəndə, Vətən deyəndə,
Atardı özünü alova, oda.

O məktəb, o küçə, nələr... Eh nələr...
Eldarın adını daşıyır indi.
Böyük bir insanı itirən şəhər,
Böyük bir igidsiz yaşayır indi.

* * *

Əllərində qərənfil,
Yanağında göz yaşı.
Danışır yazıq ana,
Bir də qara baş daşı.

— Bağışlayın siz məni,
Danışa bilmirəm çox.
Kədər didir sinəmi,
Kipriyim gözümdə ox.

Qoruyuram balamı,
Leysan yağışdan, qardan.
Balam harda uyuyur,
Günəş də doğur, ordan.

Danışmazdı dumanlı,
Torpaq, torpaq deyərdi.
Cənublu və Şimallı
Bütöv Vətən istərdi.

Dinir Zenfira xanım,
Quruyur dodaqları.
Çevirir vərəqləri,
Titrəyir barmaqları.

Şəkilləri dil açır,
Şəkillər danışırlar.
Saralmış xatirələr,
Od tutub alışırlar:

— Unuda bilmirəm Eldarı,
Çətin olur unutmaq.
Unuda bilmir onu,
Ay işığlı
Urfanlar,
Kamallar...

Unuda bilmir onu,
Gözləri yollarda qalmış
ümidlər,
arzular,
amallar.

Unuda bilmir onu
Pıçıl-pıçıl danışan,
Dağ üstü park yolunda
Dağ döşündən asılmış şəlalə,
Könüldaşı Kəmalə.

Unuda bilmir onu,
Qərənfil,
Nərgiz,
Lalə.
Güllərin yanağında
Bərq vuran büllur jalə.

Unuda bilmir onu,
«Koroğlu», «Cəngi».
Göy Xəzərdə çırpınan
Dalğaların ahəngi.

Unuda bilmir onu -
Öz dediyi kəlmələr:
«Ya... Ya... Ya... Tolko ya?
Eto doljen kajdıy znat!
Est takaya professiya-
Rodinu zaşişat...».

Unuda bilmir onu,
164 saylı məktəb,
Məktəbə gedən yollar.
Doğulan, itən yollar.
Universitet,
        balaca bir dünya...
Rinqlərdəki cəsarət,
Sevgi,
        sevinc,
                nəhayət...

Unuda bilmir onu
Sverdlovsk şəhəri,
Ali hüquq məktəbi.
O illərdə yazılmış,
Yarpaq-yarpaq saralmış.

Boynu bükük məktublar.
Unuda bilmir onu
Ötən saralmış  payız,
Gələn Günəşli bahar.
(Baharda bir ümid var).

Unuda bilmir onu,
Sahil boyu xiyaban,
                    xiyaban...
Ötən saat, itən an...
Eh, gör nələr danışır,
Gör nələr pıçıldaşır

Sahil boyu insanlar,
Insanlığı duyanlar...
Bəs bu yara?
Bu kədərli şəhərim,
    niyə geyindi qara?
O xiyaban hara,
Məzarıstanı qoynuna, almış
          bu xiyaban hara?
Burada qurtarır
    sonu küçələrin!!

Unuda bilmir onu
               Miri,
                   Intiqam,
                           Emin,
Cəngavərlər qatarı...
Zər paqonlu dostları...
Bax  bu «Pələng»lər idi
Onun dövləti - varı.
Unuda bilmir onu
        döyüşdüyü o dağlar,
        dərin - dərin dərələr.
Əsən külək
          yağan qar...

Ölümün gözlərinə
baxa bilən oğullar.
Əsirlik caynağından
qopardığı
atalar,
qopardığı
analar,
Qundaq - qundaq balalar.
Eldar, ay Eldar...
Unuda bilmir səni
Ildırımlı, yağışlı
Göy üzünün gülüşü.
Bu torpaqın yolunda,
Ölüm-dirim döyüşü.

* * *

Kim idi Vidadi, kim idi Şaqa?
Kim idi onları bayraq edənlər?
Bərdə də, Tərtər də gəlmişdi cana,
Dağıdırdı yurdu yoldan ötənlər.

«Azadlıq ordusu»? Yox, yox, yalandı,
Qaniçən qatillər deməliyik biz.
Nə qədər künahsız oda qalandı,
Nə qədər ocaqlar qaldı kişisiz.

«Azadlıq ordusu»... Kimlər yaratdı?
Hansı amal üçün vuruşmalıydı?
Gör kimlər...
Gör kimlər torpağı atdı,
Bu dərdi bəs kimlər soruşmalıydı?

«Azadlıq ordusu», ada bax, ada...
Qızıl qan içində boğulur bahar.
Sanki düşüncəmi qalayıb oda,
Gözüm baxa - baxa yandırırdılar.

Özünü yalandan «bayraq» edənlər,
Xalqın ürəyində yaşaya bilməz!
Özgə çırağını çıraq edənlər,
Tuş olar zülmətə, sifəti gülməz!

Şaqa kimilərə, vidadilərə,
Zaman öz sözünü deməli idi.
Söykənib torpağa, söykənib elə,
Bir oğul kəfəni geyinməliydi.

Vətən oğulları, qılıncdan iti...
Eldar da Vətənin balası idi.
Bu ana yurduna saf məhəbbəti,
Sanki əyilməzlik qalası idi.

Kim idi Vidadi?
Kim idi Şaqa?—
Yol kəsən, baş kəsən, cani, narkoman...
Qənim kəsilmişdi nura, işığa,
Onların əlində çırpınırdı dan.

Unudub torpağı, unudub daşı,
«Vətəndaş»Vətənə xain olarmış.
Bu qədim torpağı yuyub göz yaşı,
Torpağın da gözü,qardaş dolarmış.

Döyüşən bir xalqın cəsarətini,
Heçliyə qatırdı Şaqa kimilər.
Ölən oğulların cəsədlərini,
«Alırdı», «satırdı» Şaqa kimilər.

Əli yalın idi kəndin-kəsəyin,
Nifrəti bəbəkdə, gözdə susurdu.
Barı siz danışın, barı siz deyin,
Kişi unudarmı torpağı, yurdu?

Güllə barmağında, zəhər dilində
Çalırdı, çapırdı azğın «ordular».
Dəmir çaparların dəmir belində,
Şaqalar Vətəni dağıdırdılar...

Vidadi kim idi?
Şaqa kim idi?
Ev yıxan, qan içən yarasaydılar.
Onlar «şeytan»idi, onlar «cin» idi,
Xalqın yarasının yarasıydılar.

Bu yara kəsilib atılmalıydı,
Bu yara min illər kəsilməmişdi.
Torpaqlar düşmənə satılmalıydı?..
Kimlər bu torpağı «qurban» demişdi?

Cani yuvasından yurd ola bilməz,
Orda nə qış düşər, nə gülər bahar.
Hər qurda oxşayan qurd ola bilməz,
Qurdun ürəyi var, cəsarəti var...

Bəs onda kim idi Şaqa, Vidadi?
Qəlbimi qəm yüklü fikirlər didir.
Bütün dediklərim qara  səhnədi,
Işıqlar yananda görünəsidir.

* * *

Dözə bilməzdi polis,
Bu qədər haqsızlığa.
Dözə bilməzdi polis,
Qara deyilsin ağa.

Haqq-ədalət vardısa,
Bir gün göyərməliydi.
Insanın fəryadına,
Kim isə gəlməliydi.

Bunu Allah da bilir,
Bunu danmaz bəndə də.

Torpağını sevənlər
Birləşirdi polisdə.

Polislər bayraq idi,
Vətənin çağırışına.
Polislər dayaq idi,
Torpağına, daşına.

Polis idi döyüşən,
Bir də əliyalınlar.
Bəs ordu?

Bilirəm mən,
Gəzirdi ağ yalanlar...

Bir «birləşmə» Şuşada,
Bir alay Ağdərədə.
Başsız əsgər vuruşda,
Xəyanət bənd-bərədə.

Torpaqlar bölünürdü,
Dəstələr arasında.
Düşmən baxıb gülürdü,
Iki dağ arasından.

Talış-Muğan ölkəsi,
Gəncəbasar, Ləzgistan.
Öz «Himni», öz «nəğməsi»...
Bəstələnirdi «dastan»...

Hər bölgənin qulduru,
Başsız başçısı vardı.
Anam deyirdi: « oğul,
Indi apar-apardı».

Bunu Allah da bilir,
Bunu danmaz bəndə də.
Vətənin dar günündə
Polis gedirdi öndə.

Polis idi döyüşən,
Çıxıb düşmən yoluna.
Nifrət xalqı bölənə,
Rəhmət, şəhid olana!

Gözü yolda qalan var,
Ağ köynəklər kəfəndi?
Qar yağır, quşbaşı qar,
Büküb kəfənə kəndi.

* * *

Polis ölçüb-biçirdi...
Igid oğullar hanı?
Bakı plan çəkirdi,
«Gizli Bərdə» planı.

Kim olacaq komandir?
Sual, ağır Sualdı...
Sual sualı didir,
Alov yağır... Sualdı?

Kim olacaq iynənin,
Gözündən keçən oğul?
Bu işdə tək güllə yox,
Ağıl gərəkdi, ağıl.

Kim olacaq?
De kim, kim?
Sual-sual içində...
Hamı əmrə müntəzir,
Sonsuz xəyal içində.

* * *

— Eldar!
Yay kimi qalxır.
— Bərdəyə getməlisən!
— Oldu!
Oğullar baxır...
— O, tək getmir, onunla...
— Yox! Mən qala bilmərəm!
— Artıq sağalıb yaram...
— And içmişəm qanımla...
— Mən niyə, karam, koram?..

Qalxır bir-bir polislər,
Gözlər dönür ocağa.
Qaynayır, coşur hisslər,
And içirlər bayrağa...

* * *

Beş il əvvəl gəlmişdi
O, döyüşən polisə.
Yurdun ağır günündə
Mətinləşən polisə.
Vuruşlarda canını
Qurban verən polisə,
Ölümü çiçək kimi,
Tər-tər dərən polisə.
Beş il əvvəl gəlmişdi
Əzab dolu polisə.
Haqq-ədalət soraqlı,

Şərəf yollu polisə.
Neçə ümid, arzu, kam,
Bəslədiyi polisə,
Istədiyi polisə...

Eldar... Düşür yadıma,
O dediyin kəlmələr:
«Ya... ya... ya... Tolko ya?
Eto doljen kajdıy
                    znat!
Est takaya professiya -
Rodinu zaşişat»
O, vətəni sevirdi,
Vətən sevirdi onu.
Bu sevgi dənizinin
Gözə dəymirdi  sonu.

Arzular qanadında,
Ümidlər sorağında...
Yaşayırdı müqəddəs,
Qəlbinin çırağında.

Qaynaq-qaynaq olmuşdu,
Mərdlərə, igidlərə.
Allah kimi  baxırdı,
Hər gün doğan səhərə.

Igid, ərlər içində,
Eldar pəhləvan idi.
Bu hansı dövran idi,
Bu hansı zaman idi?

Beş il əvvəl gəlmişdi
Dağ üstə dağ polisə.
Qayalardan süzülən,
Qaynar bulaq polisə.

Dilində «Vətən» sözü
Deyə-deyə gəlmişdi.
Ölümün köynəyini,
Geyə-geyə gəlmişdi.

Gəlmişdi kişi kimi
Iki oğul atası.
Deyəndə ki, anası:
«Ay oğul, ay can-ciyər,
Sən gedməsən döyüşə,
Dünya dağılar məyər?»
Hər dəfə də deyərdi:
«Bu sonuncu döyüşdü».
Ana da yana-yana,
Içində düşünürdü:
«Bu sonuncu görüşdü...»
Nə əvvəli,
nə sonu
Görünmürdü həsrətin.
Gün də günün dalınca,
Gəlir çətindən-çətin.
Deyəndə ki, anası:
«Balaların nigaran,
Könüldaşın nigaran,
Sənin üzünə möhtac...»
Qayıdıb deyərdi ki:

«Bəs bu torpaq davası?
Bəs bu Vətən yarası?
Onu kim sağaldacaq?»
Sonra da zarafatla
Gülümsəyib deyərdi:
— Ay Eldarın anası,
Ay Eldarın anası...

* * *

Iki oğul atası...
Tez evlənmişdi Eldar.
Qarışıq dünyamıza
Tezmi gəlmişdi Eldar?

Bu taleyin işidir,
Amma çox tələsirdi...
Başladığı hər işin
Arxasınca əsirdi.

Istəyinə çatmasa
Yasa batardı, yasa.
Sanki ürək deyirdi:
«Ömür qısadır, qısa».

Elxan, əziz qardaşı,
Sanki, nəsə duyurdu.
Gizli-gizli göz yaşı,
Sahilləri yuyurdu.

Babasının ruhu da,
Nəvəm, nəvəm deyirdi.
Ananı gözü yolda,
Səksəkələr əyirdi.

Tale alma deyil ki,
Dişləyəsən, atasan...
Eldar, hey tələsirdi-
Iki oğul atası.

Deyəndə ki, ay Eldar,
Can nə daşdır, nə dəmir.
Inciyib deyərdi ki,
«Həyat bizi gözləmir»!

Iki oğul atası
Tələsirdi dünyada.
Vəfasızmış sən demə,
Bu ağ saçlı dünya da.

Həmişə də deyərdi
Dosta, tanışa, yada:
«Urfan, Kamal böyüsə,
Dərdim olmaz dünyada».

Bir dəfə demişdi ki,
«Gedəm Xankəndə gərək.
Oyuncaq almaq üçün
Əliyalın, tənha, tək».

Getmişdi, dönmüşdü də,
Oyuncaq da almışdı.
Ancaq bir sual-cavab
Yaddaşında qalmışdı.

— Qorxmursan?..
Axı bura...
Bilirsənmi "Arsaqdır"?
— Mən niyə qorxmalıyam,
Torpaq bizim torpaqdır,
Vətənim - Qarabağdır !!
Vətənim - Qarabağdır !!

Iki oğul atası
Bişmişdi Qarabağda.
Eldar evə dönəndə
Darıxırdı torpaq da.
Eldar da darıxırdı
Geri qayıtmaq üçün.
Düşmən səngərlərini
Söküb-dağıtmaq üçün.

Iki oğul atası,
Torpaq, torpaq deyirdi.
Vətən, Vətən yolunda,
Beləcə əriyərdi.

Sinəsində avtomat,
Dodaqlarında ovsun.
Həmişə deyərdi ki,
Tanrı türkü qorusun.

Yaman olarmış qardaş,
Demə yaddaş ağrısı.
Yurda xəyanət kimi,
Atılan daş ağrısı.

Yaman olarmış, yaman
Kor dumanlı xaltalar.
Sapı özündən olan
Ağzı qanlı baltalar.

Yaman olarmış, demə,
Zərbə zərbə dalınca.
Yol gedirdi oğullar,
Sözü verib qılınca.

Cəngə girmişdi, cəngə,
Qoca yurdun balası.
Sarılmışdı külüngə,
Iki oğul atası.

Doğma ocaqdan uzaq,
Güllə səsi laylası.
Ürəyindən keçirdi
Kəmaləsi, anası.

Deşirdi ürəyini
Lal sükutlar, baxışlar.
Döyəcləyirdi sanki,
Onu «qara» yağışlar.

Bu «bəylər» geciksə də,
Imzalanıbdır əmr.
O, döyüşən Bərdəyə
Döyüşə getməlidir.

Alova bax, oda bax,
Döyüş içində döyüş...
Gəl indi də dərdini,
«Özünkülərlə» bölüş.

Neçənci döyüş idi?
Beşinci, onuncumu?
Axı hardan biləydi
Bu döyüş sonuncudu?

* * *

Üç iyul... Yay günü... Susub yarpaqlar,
Az qalır, səhər də açılacaqdır.
Heç kəs düşünməzdi bir azdan Eldar,
Ölümün qoynuna atılacaqdır.

Gərək Vidadini... Gərək Şaqanı...
Ölçülür, biçilir hər addım, hər iz.
Döyür ürəkləri «Bərdə boranı»,
Ürəklərin içi çırpınan dəniz.

Qarşıda dayanan öz nadanınsa,
Qəlbində cavabsız suallar doğur.
Onlar yarasadır, qara yarasa...
Ilahi, xəcalət, dərd məni boğur.

Bir göz qırpımında sən demə, nələr,
Nələr doğularmış, nələr, donarmış.
Qanadsız qalarmış qoşa nəvələr,
Ana da alovsuz, odsuz yanarmış.

Bir göz qırpımında dəyişir zaman,
Bir igid qanına boyanar səhər.
Bəlkə insanlıqdan çıxıbdı insan,
Şeytan barmağı var...
Bunu kim bilər?

Yandırır hamını bir dərdin odu,
Hanı o baxan göz, o alışan göz?
(Allahın nə yazıb, qismətin odu),
Döz, ey insan oğlu, sən hər dərdə döz!

Min anın sovuşur, görünmür sonu,
Bir anın tarixdən silinməz olur.
Bə'zən laləlikdə tapırıq Yazı,
Bə'zən çiçəklər də görünməz olur.

Eldar taleyilə sanki zər atır,
«Nə gecik, nə tələs...»
Ürək deyirdi.
Deyirlər insanlar dan üzü yatır,
Axı bu şaqalar insan deyildi.

Sanki barmağını kəsib igidlər,
Yerinə bir çimdik duz basmışdılar.
Nələr yaşayırdı, gör onlar nələr,
Ölümü Günəşlə tən asmışdılar.

«Silah işlətmədən götürməliyik,
Dəstənin ürəyi bilin, başçıdır.
Nə bilim deyirlər «Allahıq», «bəyik»,
Bəs gedən torpaqlar...Bu qədər çadır...»

Cəngavər oğullar baxır göz-gözə,
Beyinlər düşünür, hisslər tarımda.
Dayanıb işıqla, zülmət üz-üzə,
Göynəyir bir sual dodaqlarında.

Görən nə etməli ?
Tökülməsin qan...
Silahlı dəstəylə qorunur həyət.
Az qalır səhərə, qızaracaq dan,
Son qərara gəlir Eldar, nəhayət.

Gözləmək əzabdı... Gözləyirdilər,
Tətiyi çəkməyə barmaqlar hazır.
Nələr baş verəcək, görəsən nələr?
Hərə ürəyində bir plan cızır.

Birdən pələng kimi sıçrayıb Eldar,
Tutur keşikçinin biləklərindən.
Açılır güllələr... Bumu son qərar?
Elə bil od çıxır bəbəklərindən.

Sındırıb qapını bir an içində
Tullayır silahı, deyir:
— Al, apar!!.
Düşünür bircə an güman içində,
Düşünür Şaqa da silahı atar.

Düşünür kişilik məqamlarını,
Düşünür bəlkə də imana gələr.
Başkəsən alçaqda kişilik hanı?
Eldarın köksünü didir güllələr.

Şaqanın külü də sovrulur göyə,
Alçaq şərəfsizin yumulur gözü.
Eldarı həkimə çatdırsın deyə...
Gec idi, güllələr demişdi sözü.

Çatıldı göylərin qaşı-qabağı,
Varikən bir anda yox oldu Eldar.
Boğdu dəryasında yaş Qarabağı,
Dərin dəryalara qatıldı Eldar.

Taleydən umduğu bir şey yox daha,
Ümüdü bağlayıb nurlu sabaha.
Ölümün gözünə dik baxa-baxa,
Əcəlin qoynuna atıldı Eldar.

Bu Vətən, bu torpaq olmuşdu dərdi,
Qanından torpaqda Lalə göyərdi.
Şaqalar dediyin gəldi-gedərdi,
Torpaqdan Günəşə ucaldı Eldar.

Demirəm harasa apardı dünya,
Ürəkdə bir ocaq alışa, yana...
Şəhidlər uyuyan bir Xiyabana,
Qızıl bayraq kimi sancıldı Eldar.

* * *

Günəş kimi çağlar gözün
Qapıları kilidlənir.
Elə bil ki, dan ulduzu
Göy üzündə qəfil sönür.

Xatirəyə dönür Eldar,
Xatirələr şirin, acı.
Atəş idi, sönür Eldar
Dolaş-dolaş olur saçı.

Qalır yenə dağdan ağır
Həlli müşkül dərdlərimiz.
Günahkarıq ?
Kədər yağır...
Günahkarıq hər birimiz!!

Yer üzünün harasında
Torpağını satanlar var?
Millətinin yarasında
Vəzifəyə çatanlar var...

Yer üzünün harasında
Çadırlar var, qaçqınlar var?
Saysız-saysız qabarmalar,
Fəlakətli daşqınlar var?

Küt bıçağı saplayan var,
Qardaşının kürəyinə.
De hardasan sən, ey bahar?
Qış yeriyib iliyimə...

Mən demirəm, zaman deyir,
Pıçıldayır bax bu dərdi.

Ürəyimi ürək yeyir,
Qanlı-qanlı, diri-diri.

Bakı yəqin xəbərsizdi,
Yəqin bü gün susub külək.
Bu faciə hardan əsdi?
Dərdimizi kimə deyək?

Göy içində için-için,
Kədər yağır, alov yağır?
Ölüm haqdı, qaçmaq çətin,
Dost itirmək, dağdan ağır.

Nə dinən var, nə səs gəlir,
Bu yol bəli, dönməz yoldu.
Nə bir udum nəfəs gəlir,
Nədən oldu, necə oldu?

Hamı elə anardı ki,
Eldar yenə güləsidir.
Bakı elə sanırdı ki,
Eldar gedib, gələsidir.

* * *

Iki oğul atası
Köç etdi durna kimi.
Biz taleyi qınadıq,
Tale vermişmi hökmü?

Dağıtmaq istədi o,
Yurdun qara sisini.
Göylərə ucaltdı o
Doğmaca polisini.

Ucadan-uça oldu
Iki oğul atası.
Əridi Vətən üçün
Vətənin bir parçası.

Iki igid böyüyür...
Nənənin bağrı şan-şan.
Ona qismət olmadı.
Ata kimi, toy, nişan...

Qismət olmadı ona,
Vətənin ağ günləri.
Qəbri üstə uyuyur
Torpağın, al gülləri.

Iki oğul böyüyür
Tağızadə soyadlı.
Iki «Pələng» böyüyür
Atası Eldar adlı.

Mehir saldı torpağa,
Bu torpağın balası.
Iki oğul atası,
Azərbaycan qalası.

* * *

Çiynində aparır dostları onu,
Bir zaman bu yolu özü gedərdi.
Görünmür ağrının-acının sonu,
Bu kədər dünyada ağır kədərdi.

Yüz yerə gedirdi ana gümanı,
Eldarı hayana aparırdılar?
Elə bil min illik dəmirağacı
Dartıb köklərindən qoparırdılar.

Şəhid cərgəsində bir məzar artır,
Torpağın qucağı böyüyür bir az.
Burda, xiyabanda isti yay yatır,
Tək ana qəlbində ayazdı, ayaz.

Udur qara torpaq odu, atəşi,
Tanrı sevdiyini nə tez aparır?
Şəhid dünyasının şahid Günəşi,
Bu qəm şəhərinin köksündə yanır.

Itirir Zenfira ilk baharını,
Içində göynəyir torpağın canı.
Itirir ulu yurd öz Eldarını,
Bir kədər bürüyür Azərbaycanı.

Ağarır ananın büsbütün teli,
Bala itkisinin əvəzi varmı?
Milli Qəhrəmandır oğul,
təsəlli...
Təsəlli dediyin dada çatarmı?

* * *

Xiyaban...Səmədlə gəzirik qoşa,
Daş olub susmuşuq qəlbimizdə qəm.
Ilahi, arzular dönərmiş daşa,
Baxarmış həyatın şah zirvəsindən.

Bu Çingiz, bu Alı, bu da Salatın,
Bu adsız məzar da hələ yozulmub.
Yatın, ey şəhidlər, müqəddəs yatın,
Bu böyük fəlsəfə hələ yazılmıb.

Gəzirik... Səs gəlir, bir ana səsi,
Həzin bir bayatı yanır dilində.
Yetim bir haraydı ana nəfəsi,
Bükülüb yumaq tək, çiçək əlində.

«Əzizim Eldar dağı,
El dağı, Eldar dağı.
Bütün dağlar sağalar,
Sağalmaz Eldar dağı.»

Durub başdaşıyla, ana yanaşı,
Bu qara daşların yuxusu gəlir?

Unudub baharı, unudub qışı...
Üstündən qərənfil qoxusu gəlir.

Baş daşı... Bir ana...Dilində... Can-can...
Qərənfil daş üstə qucaq - qucaqdır.
Sarılıb məzara...
Küləkdən, qardan,
Nə qədər canı var qoruyacaqdır...

* * *

Xiyaban... Səmədlə gəzirik qoşa,
Gəzirik çiyində dağdan ağır qəm.
Ən doğma adamlar dönərmiş daşa,
Baxarmış həyatın şah zirvəsindən.

***1997***

## QIZIL QAN

*Şəhidlərin xatirəsinə.*

90-cı ilin yanvarında,
90-cı ilin qışında,
Qırmızı yağdı
Bakıda qar,
Qırmızı.
O dəhşətli gündə
Güllələdilər «qar qızı».
Güllələndi sular,
Güllələndi suallar.
Güllələndi qızıl qərənfillər.
Kimlər... Kimlər...
Güllələndi pələng kimi
Kişilər
Güllələndi Xəzərin sahilində
Bakı kimi əzəmətli
Bir şəhər.
Qara gəldi 90-cı ilin
Yanvarı.
Nə vaxtsa gələcəkdi bu gün.
Bu əcəl, bu ölüm.
Sanki yatmışdı Bakı
O gecə, qərənfil dəryasına
Batmışdı Bakı.
Qızıl qan eşitmişdim,
Qızıl qan görməmişdim.
Günəşə pərdə çəkən
Qara dan görməmişdim.

Qara bir xatirədir
Yazdıqlarım.
Yaddaşımdan çıxan deyil
1990-cı il.
O gecə Bakıya
Qırmızı yağdı qar.
Qara hərflərlə yazıldı
Tarixə qanlı yanvar
Dumanlı yanvar
Qurbanlı yanvar...

Yadımdadır o dəhşət,
Yadımdadır o gecə.
Qızıl qan, soyuq küçə...
Bu «vəhşi əsgərləri»
Kimlər, hardan çağırdı ?
Yox, yox, əsgər deyildi !
Azadlıq əzənlərə,
Əsgər demək ağırdı.
Avtomat güllələri
Harayları boğurdu.
Günəş də üfüqdən yox,
Küçələri isitmiş
Qızıl qandan doğurdu.
Yadımdadır o dəhşət,
Hava soyuq, hava sərt.
Nə bir yağış yağırdı,
Nə də qar görünürdü.
Göy üzü damar-damar...
Pəncərə arxasından
Boylanırdı çiçək tək
Titrək-titrək uşaqlar

Yadımdadır o dəhşət,
Yadımdadır o gecə.
Iliklərə işləyən,
Ürəklərə işləyən
Gedər-gəlməz sərt ayaz.
Yağış olsun, qar olsun,
Şəhid qanı yuyulmaz!
Göyləri alt-üst edən,
Qapqara tufan olsun!
Qızıl qan, qızıl köynək,
Geyinmişdi küçələr.
Keyimişdi küçələr...
Qızıl qərənfil seli,
Bürümüşdü şəhəri.
Duymaq olmurdu qardaş,
Hələ isti dərdləri,
Hələ isti kədəri.

Oxumuşdum tarixdən,
«Doqquz qanlı yanvarı»
Belə gün görməmişdim,
Belə ün görməmişdim.
Qanlı iyirmi yanvar...
Sanırsan ki, əyilib,
Qan önündə ağaclar.
Sanırsan ki, bir daha,
Geri qayıtmaz bahar.
O gecəni görənlər,
O səhəri görənlər,
O səhnəni görənlər,
Dinib danışmalıdır.
O günün alovuna,

O günün atəşinə,
Yanıb qarışmalıdır.

Yadımdadır o gecə,
Yadımdadır o gündüz.
Siz ey mətin oğullar,
O gecə qan gölündə,
Qızıl ulduza döndüz.
Sizi torpaq udmadı,
Biriniz milyon olduz.
Doğan günəş, çıxan ay,
Bizə səhər bəxş edən
Qan köynəkli dan olduz.
Yaddaşım da ılıqdı,
Qələmim də istidi.
Deyən bir az dumandı,
Deyən bir az tüstüdü...
Gərək sizi seçim mən,
Qan-qana qarışmasın.
Gərək sizi içim mən,
Bu şirin, qızıl qana,
Qarışqa daraşmasın.
Susmayın ay görənlər,
Ürəyiniz daş olar.
Əgər dinib-danışsaz,
Yaddaş da yaddaş olar.

Bu dəhşətli gecəni,
Axı kimlər görməyib ?
Bu zülmətin içindən,
Azadlığım kükrəyib.

Bu gecə qaytarıldı,
Vətən vətəndaşına.
Bu gecə qan çiləndi,
Səkilərin daşına.
Rəssam, sən rəsmini çək,
Ürəyi yana-yana.
Sən də, ey heykəltəraş,
Heykəl yon azadlığa,
Heykəl yon qızıl qana.
Analar ağı deyir,
Bəstəkar layla desin.
Bu gecəni kim görüb,
Küləyə qatsın səsin.
Susmayın, ay görənlər,
Ürəyiniz daş olar.
Əgər dinib-danışsaz,
Yaddaş da yaddaş olar.

Kameralar susmadı,
Çəkdi qara gecəni,
Qəlbi qara gecəni.
Ancaq çəkə bilmədi,
Ürəkləri içindən.
Susma, qardaş, danış sən,
Bir gecənin içində,
Saçın necə ağardı ?
Bir körpəni itirmək,
Bir qocanı itirmək,
Bir cəngavər itirmək,
Bilirəmki, ağırdı.
Danış, danışmasan sən,

On iki ay qış olar.
Bircə kəlmə söz desən,
Yaddaş da yaddaş olar.
Azadlıqdan danışmaq,
Azadlıqdan şirindir !
Dəryalarmı dərindir ?
O gecəmi dərindir ?
Gecənin sərhəddi var,
Sərhəddini görmürəm
Bu qaranlıq gecənin.
Sürünəni tapılır,
Süpürəni tapılmır,
Qan boyalı küçənin.
Gecənin yuxusu var,
O gecə yatılmadı.
Çıxar yaddaşı-yadı,
Ürəyində dərd olar,
Gözlərində yaş olar.
Bircə kəlmə söz desən,
Yaddaş da yaddaş olar.

Ağ günlərin təməli,
Qızıl qanla qoyuldu.
Bu işığa gedən yol,
Qızıl qandan sayıldı.
Siz indi bir xatirə,
Əlçatmaz bir zirvəsiz.
Bu yeni dünyamızın,
Kökü siz, budağı biz.
Bir ananın oğlu yox,
Siz ümmanlar oğlusuz.

Bu torpağa bərəkət,
Yaşıl bahar oğlusuz.
Ölməmisiz, sağsınız,
Ölən bükülər ağa...
Son mənzillər məzardı.
Sizi isə qucaraq,
Qızıl güllər apardı...
Görən hara apardı ?
Onlar hardan bilirdi,
Ey, oğullar, sizsiniz,
Torpağın yaraşığı !
Onlar hardan bilirdi,
Çiçəklər dünyasının,
Sizsiz zərif işığı.
Eh, nə bilim bəlkə də,
Çiçəklərə hopubdu
Sizin ölməz adınız.
Çiçəklərdən boylanır,
Düyülmüş inadınız.
Qızıl qan, qızıl güllər,
Görən niyə qarışdı ?
Ayaz qanadlı yanvar,
Çiçəklərdən alışdı.
Qərənfillər gülmədi,
Qızıl güllər gülmədi.
Daşamı dəydi ömür ?
Sən heç demə insanlar,
Ağlasa... Gül də gülmür.
Sizi güllər apardı,
Susub səssiz, səmirsiz.
Sizi güllər apardı -

Qızıl qan, qızıl dəniz.
Ruhunuz göylərdədi,
Dönüb leysan yağışa,
Yağasıdır torpağa.
Ölməmisiz sağsınız,
Ölən bükülər ağa.
Sizi güllər apardı,
O dağın zirvəsinə.
Sizi güllər caladı
Güllərin nəğməsinə.

Qara yanvara dönmüş
Bir metrodan keçirəm.
Yeddi yaşlı uşaqlar,
Ağdan, qaradan uzaq,
Ayaqlayıb keçirlər
Mərmər döşəmələri,
Qara yaradan uzaq.
Nə gəlmələr düşünür,
Nə köçmüşlər düşünür.
Deyirlər ki, ad addı,
Yox, yox düz demirsiniz,
Bu ad deyil, alovdu,
Bu ad deyil fəryaddı.
Sizin ölməz adınız
Sizin qızıl qanınız.
Gör bir nələr yarandı,
Gör bir nələr yaratdı...

Yadımdadır o küçə,
Qanlı-qadalı gecə.

Ərşə qalxan nalələr,
Tir-tir titrəyən əllər.
Nələr... Nələr... Eh... Nələr...
Qərənfil istəyirəm,
Qızılgül istəyirəm,
Istəmirəm qızıl qan!!
Istəmirəm qızıl qan!!

Sığınıb qərənfilə,
Sığınıb qızılgülə,
Ey, uca tanrı, hələ,
Qan istəyənlər durur!!
Can istəyənlər durur!!
Atıb həyanı, arı,
Götür tərəzini sən,
Çək bu qanlı yanvarı.
Çək bu haqqı, bu şəri
Qaldır yatmış bəşəri.
Göstər Yer kürəsinə,
Qərənfil dənizində,
Üzən dərdli şəhəri,
Göstər mərdli şəhəri.

Qaranlıqdan doğan yol,
Qızıl qandan keçibdir.
Bu torpaq, bu çiçəklər,
Şəhid qanı içibdir.
Ağappaq qar yağsa da,
Qara yanvar ağarmaz.
Ürəklərdə dərd olub,
Dəli külək, sərt ayaz.

Danış, ey uca tanrı,
Bu əmri sənmi verdin ?
Özün yaratdığını,
Qızıl qana qərq edib,
Dönməzliyə göndərdin.
Bəlkə bu gördüklərim,
Ömrün qara yazıdır !!
Yox, bu qanlı əllərin,
Qızıl qana boyanmış,
Kürüdür, Arazıdır !!
Axı, o nə deyirdi ? -
Var, dövlət yox,ümman yox,
Azadlıq istəyirdi !!
Azadlıq istəyənin,
Azadlığı budurmu ?
Azadlıq istəyənlər,
«Azadlığı» udurmu ?
Allah səbrin böyükdü,
Millət də səbrlidir.
Amma bu dərd, qızıl qan,
Çiyinlərimdə yükdür.

Unutmayın...
Köçürün yaddaşlara.
90-cı ilin yanvarında,
Qırmızı yağdı
Bakıda qar - qırmızı.
Güllələdilər «qar qızı»,
Güllələndi sular,
Güllələndi suallar.
Güllələndi qızıl qərənfillər,

Kimlər...Kimlər...
Güllələndi pələng kimi
Igidlər...
O gün axan  qızıl qan,

Dünyanı silkələdi.
Qardaş,
Illər keçsə də
Bu gün də elə bilirəm
Qəlbimdə zəlzələdi...
Qızıl qan
Əyilməz dağların
Bağrı yara,
Bağrı qara laləsidi.
Torpağının içində bitən
Ürəkləri yandıran
Kədəridi, naləsidi...

***1998***

## V Ə F A

Yüz qırxıncı otaq... Qalır yadımda...
Bir də ki, o qızın qaynar gözləri.
Ürək çırpıntıda, göz fəryadında,
Sanki, çevirirdi göy dənizləri.

Gözdən alov yağır, tüstü çıxırdı,
Gözlər danışarmış, gözlər dinərmiş.
Bu gözəl səhnəni yazmaq ağırdı,
Sən demə, gənclik də geri dönərmiş.

Baxıram bu qıza, bu gözəlliyə,
Uzaq bir keçmişə uçur xəyalım.
Ittiham edirəm özümü... Niyə?..
Bir göz qırpımında çevrilir halım.

Beləcə sevmişdi o qız da məni,
Beləcə sevmişdim o qızı mən də.
O qız saralmamış yaşıl səməni,
Hər bahar gələndə bitir əlimdə.

O ki yetişmişdi öz sevdiyinə
Beləcə doğubmuş onu da bəxti.
Ittiham edirəm özümü... Niyə?..
Vəfanın acısı, şirini yoxdu?!

Vəfa intizardı?   Vəfa cəfadı?
Yox! Əhdinə ən böyük sadiqlikdi bu!
Yoxdur bu dünyada ikinci adı
Budur sevənlərin kövrək arzusu.

Kim idi günahkar? Mənmi? O qızmı?
Mənmi gecikmişdim? Omu tələsdi?
Qışın ağ qarında çırpınan Yazmı?
Ya bizi kiminsə nəzəri kəsdi?

Atasız,anasız böyümüşdü o...
O yaxşı bilirdi yetimlik nədir.
Eşqin zirvəsindən niyə düşdü o?
Didir ürəyimi, suallar... Didir...

Kim idi günahkar? Ağılmı? Gözmü?
Sinədə çırpınan sevən ürəkmi?
Yandırır qəlbimi... Buzmu, ya közmü?
Qanadı qırılmış uçan diləkmi?

Kim idi günahkar? Ötəri hismi?
«Vəhşi» ehtirasmı? «dəli» sevgimi?
Bu qara ləkələr tüstümü, hismi?
Bu eşq ağ sularda qərq olmuş gəmi...

«Sən idin günahkar...
Sən idin...
Sən... Sən...»
Göylərdə ildırım fəğan qoparır.
Qolları qandallı tutub ədimdən,
Məni mələykələr hara aparır?

Aparır ağ yollar, ağ meşələrlə,
O qız ağ libasda məhkəmə qurur.
Danışır ucadan ağ kölgələrlə,
O qız başdan-başa mətanət, qürur...

«Sən idin günahkar...
Sən idin...
Sən... Sən...»
Qızıl ildırımlar dinir başımda.
O qızın önündə dayanıram mən,
Saçlarım ağappaq, ata yaşında.

Didir varlığımı dəli küləklər,
Sarı yarpaq kimi saralıram mən.
Vəfasız insanı qəm seli təklər,
Sanıram axşamdan yağan qaram mən.

Donur dodağımda söz hərif-hərif,
Donur damarımda axan qanım da.
Qışqırır üstümə küləklər, «Hərif,
Cavab ver...»
Daş olur sanki canım da.

Ilqar bağlayanda görə bilmədim,
Beş ili, on ili mən qabaqcadan.
Neyçin ürəyinə girə bilmədim?
Neyçin ehtirasa kəsildim qurban?

Məhəbbət gözdədir?! Bəlkə dildədir?!
Beyinmi, ürəkmi? Kimdir günahkar?
Məhəbbət dediyin qara gölgədir,
Sənin işığına ehtiyacı var.

Niyə bu işığın yolunu kəsdim?
Niyə nəfəsimi qurutdu ayaz?
Bəli, cinayətdir vəfaya qəsdim,
Cəzası bu boyda dünyaya sığmaz.

Dəliqanlı idi o qız, o zaman,
Cilova yatmırdı eşqi, sevgisi.
Ürəyində guman, gözündə duman,
Döyərdi qapını bir kişi səsi.

Yox idi o səsin içində yalan,
Sevgi də yox idi, fəqət, o səsdə.
Dayan! bax burdaca, burdaca dayan!
Düyülür boğazda, Allah, nəfəs də.

Bəs niyə sevirəm söylədin ona,
Bəs niyə and içdin torpağa, daşa?
Hələ bir evlad da dilədin ona,
O şirin günlərdə verib baş-başa.

«Sən idin günahkar...
Sən idin...
Sən...Sən...»
Göylərdə ildırım fəğan qoparır.
Qolları qandallı tutub əlimdən,
Məni məleykələr hara aparır?

Görən bu xəyalmı? Acı röyamı?
O qızın önündə dayanıram mən.
Danışır o gözəl, dəyişir halı,
Tək məni asıblar sanki dilimdən...

Ağ donlu mələklər su verir qıza,
Danışır o gözəl, saçları dən-dən.
Məhkəmə qurulur bir vəfasıza,
Sonra məleykələr tutur əlimdən.

Işığımı azalıb,
O möhtəşəm ulduzun?
Qəlbindən keçənləri
Oxuyuram o qızın ...

* * *

«Sənsiz səni yaşadım,
Sənsiz səni daşıdım,
Hayana addım atdım.
Yuxuda səni yatdım,
Sənsiz səni oyatdım.
Baxışımdan asıldın,
Büllur çil-çıraq kimi.
Ürəyimdə közərdin,
Qızıl bir ocaq kimi.
Heyf düşən gecəyə...
Al Günəşli gündüzə...
Demə həsrət qalarmış
Bu dünyada göz-gözə...»

* * *

Boğazımda sözlərim
Dönüb olur çay daşı.
Quruyur kipriyimdə
Vəfa yaşı, göz yaşı.

Yapışır saçlarımdan,
Ağ donlu mələykələr.
Yapışır əllərimdən
Kədər dolu bir səhər.

Bu Günəşli gündüzün
Düşən gecəsidirmi?
Bu şirin bir vəfanın,
Qara naləsidirmi?

Titrəyirəm, əsirəm
Yer qaçır ayağımdan.
Sanıram bulud gəlir
Üfüqdə çırpınır dan.

Tirtrəyirəm...
                    əsirəm...
Bir səs gəlir: - yaxın gəl!
Bir səs gəlir: - uçulma!
Tutur əlimdən bir əl...

Danışır ağ geyimli,
Əhdinə vəfalı qız.
Danışır xatirələr,
Danışır...
                    Həyalı qız...

* * *

«Bu gün də yadımdadı,
Bir gün işə gedərkən
Maşınla vurulmağım.
Al qana boyanmağım,
Ağrıdan qovrulmağım.
Onda fikrim yol üstə
Səni gəzirdi, səni.

Heç bilmədim nə zaman
Haqladı maşın məni.
Insan son nəfəsində
Ana çağırır, ana
Deyirlər ki, o zaman
Mən səni çağırmışam
Ahıma, harayıma.
Üç ay bir üzüm üstə
Yaralı yatmışam mən.
Eh, bircə Allah bilir,
Məhəbbət dünyasında
Necə boy atmışam mən.
Gecələr sübhə kimi
Səni sayaqlamışam.
Dan yeri sökülləndə,
Qəlbimdə sökülmüsən.
Yaralarım açılıb,
Yaralarım sarınıb.
Həkimlərin əməyi,
Bəli, danılmaz olub.
Qəlbimdəki yaralar,
Fəqət, sağalmaz olub.
Gözlərimdə yaş olub
Yastığa tökülmüsən.
Bir üzü islananda
O üzün çevirmişəm.
O üzü islananda
Başqasını veriblər.
Eh, mən nələr çəkmişəm,
Xəstə qızlar görüblər.
Ağrılar ürəyimdə

Dönüb almaz olubdur.
Səni görmək həsrəti
Gözlərimə dolubdur.
Qələm tutan əllərim,
Yatağıma sərilib
Əsəblərim gərilib...
Sənə məktüb yazmağa
Bir yoldaş axtarmışam,
Bir sirdaş axtarmışam ...

* * *

Hələ ilkin baxışda
Həkimlər demişdi ki,
«Gərək qolu kəsilsin».
- Bu yaxında kimin var ?
Deyək yanına gəlsin.
Demişdim ki, ay həkim
Qəriblikdə kimim var ...
Qoyma sönə ürəkdə,
Çiçək-çiçək arzular.
Bir də onu demişdim
Yazan əli kəsmə gəl...
Baxırdı pəncərəndən
Gözlərimə sərt əcəl.
Inana bilməzdim heç
Sevən ürək solarmış.
Bu dərdə dözməzdim heç,
Dözən ümid olarmış.
Səni görmək həsrəti
Gözlərimi didirdi.

Bircə Allah bilirdi ...
Bir gün dedim: -
Həkimlər,
Bir qız tanıyıram
Çağırsaz gələr...

* * *

Düzü heç istəmirdim
Sənubəri görüm mən.
Bir zamanlar ona da
Məktublar yazmışdın sən.
Axı nə etməliydim ?
Səni görmək həsrəti,
Gözlərimi didirdi.
Bircə Allah bilirdi ...

* * *

Sənubəri görəndə
Alışdı tonqal kimi,
Göz evində bəbəklər
Dar ayaqda nədənsə
Kövrək olur ürəklər.
Dərdləşdik axşamacan
Sonra dedim: - Sənubər .
Səsimə səs verdi: - Can ...
Dedim ki, - bir məktub yaz,
Yanıma gəlsin Ayaz.
Elə yaz ki, bilməsin
Başıma gələnləri.

Eh nə bilim, nələri ...
Yaz ki, həsrət içində
Gözləyirəm yolunu.
Eh, sonralar bilmişəm
Yazıbmış ki,«ay, Ayaz,
Kəsəcəklər qolunu».

* * *

Deyirlər ki, o zaman
Məktubu oxuyarkən,
Başını yellətmisən.
Indi bilmişəm ki, sən
Son dərəcə çürüksən!
Oxuyarkən məktubu
Deyirlər ki, demisən:
«O olmasın, bu olsun,
Lap istəyir dul olsun,
Təki əlli-ayaqlı,
Boylu-buxunlu olsun.
Axı mənə nə düşüb,
Bu yaşında ömrümü,
Şikəst üçün əridəm.
Şikəst üçün çürüdəm»
Yəqin ki, düşünmüsən
Evlənsən qolsuzla sən
Kim yapışar əlindən?
Paltarını kim yuyar?
Kimin əli saçımda
Daraq olub danışar?
Demisən ki, «Gözümdə

Düyün düşər yaz, bahar».
Eh, ay Ayaz, ay Ayaz,
Soyudub hisslərini
Yağan qar, düşən ayaz.
Demisən ki, «Yox, yox, mən,
Yaşamaram şikəstlə».
Deyirlər ki, bu şəstlə
On illik məhəbbəti
Bənövşə gülü kimi
Boynu bükük qoymusan
Başqa «gülə» qonmusan.

* * *

Ehtiras, eşqiylə çırpınmısan sən,
Yalan və'dlərini çağır, harayla.
Sahil daşlarına çırpınmısan sən,
Eşqimin məhəbbət dalğalarıyla.

Axı nə biləydin sənin eşqini,
Qəlbdə «pasport» kimi yaşadanın var.
Heyif, puç elədin mənim eşqimi,
Heyif, çatmadığım, a yaşıl bahar.

Heyif gülüşlərin aldatdı məni,
Çəkə bilməmişəm əyrini, düzü.
Mən Allah bilərdim  dünyada səni,
Sən, demə, kor imiş eşqimin gözü.

Bəli, qız hissimi, qızıl hissimi,
Əyləncə bilmisən öz aləmində.

Soyuq əllərinlə uddun istimi,
Indi qış boylanır mənim əlimdən.

Ona yanıram ki, ağ sahilləri,
Ağ bir duman kimi udub küləklər.
Ona yanıram ki, qızıl illəri,
Acı göz yaşında boğub ürəklər.

Hanı o ilk görüş, hanı o həsrət,
Hörümçək tor çəkdi, biz də dolaşdıq.
Sən, ey gəncliyimi udan məhəbbət,
Axı biz beləcə danışmamışdıq.

Bizim eşqimizə şahid çinarlar,
Yarpağı daş bilib basdırdı bizi.
Qışdımı, Yazdımı bu gələn bahar,
Bilmirəm, küləklər sovurub izi.

Günəş mənim üçün adi Günəşdi,
Nə odu yandırır, nə əli çatır.
Bəli, bu dünyada dünyam dəyişdi,
Üstümdə ulduzlar karvanı yatır.

Əzizim Ayaz dərdi
Saçların bəyaz dərdi ...
Ürək bahar istədi,
Əllərim ayaz dərdi.

Məhhəbbətin bağı varmış
Dərələrin dağı varmış,
Ayazımın «ağ gülüşü»,
Bir də dərin dağı varmış.

Sevdim, qismət olmadı ər,
Qar ələnir birər-birər.
Nə yaxşı ki, ürəyimdə,
Yuva salıb xatirələr.

Qanadlıydım, sınıb indi,
Ocaqlıydım sönüb indi.
Ayaz doğan Günəş idi,
Qara gecəm gülür indi.

Ey, bir allah, bilməm nədən,
Qara saçım olub dən-dən.
Ətəyindən yapışmışam,
Ümid məndən, hökm səndən.

Dünyam olub dilim-dilim,
Göz yaşımı necə silim ?
Mən bayatı söyləyirəm,
Ağzımda yanır dilim.

Ayazın «oğlandı» baxtı,
Mənə kədər nişan taxdı.
Qəlbim, dönük çıxmamışdı,
Niyə vəfa dönük çıxdı.

Bilmirəm bu yol nə yoldu.
Söyüdlər saçını yoldu.
Kəs əhdini, sök qəlbini,
Olan oldu, dolan doldu.

Güman gəldi, güman getdi,
Duman gəldi, duman getdi.
Qismət bilmişdim Ayazı,
Yaman gəldi, yaman getdi.

Allah, nə vaxt güləcəm, de !
Dərdi kimlə bölәcəm, de !
Ey ouxucu, kədərlənmə,
Bu ki, mənim faciəmdi.

* * *

Əzrailin əlindən,
Aldı həkimlər məni.
Itirdi kimlər məni,
Tapdı gör kimlər məni.
Qayğılardan doğuldum,
sağaldım.
Həkimlərin gülüşü,
Daraq oldu saçımda,
Sarğı oldu qolumda.
Işıq oldu yolumda.
Yaşıl-yaşıl açıldı,
Ömrümün yarpaqları
Bir qaranlıq gecəyə
Ağ bir işıq saçıldı.
Əlimin barmaqları
Nəfəs tapdı yenidən.
Saçlarım oldu dən-dən.
Bu ki, faciə deyil,
Alışasan oduna.

Saçlarını rəngləmək
Çox yaraşır qadına.
Faciə ondadır ki ...

* * *

Nə qolumu kəsdilər
Nə qıçamı kəsdilər.
Bütün bu dəhşətləri
Yaxşı bilir xəstələr.
Qəlbimdən bir söz keçir:
Yəqin peşman olmusan
Yəqin şan-şan olmusan.
Məni atdığın üçün.
Bundan belə yanarsan.
Bundan belə qanarsan.
On illik məhəbbətin,
Ömürlük həsrətini.
Sovurarsan qanını,
Çeyniyərsən ətini.
Yəqin səni yandıran
O kiçik məktub olub.
On illik məhəbbətin
Ömürlük həsrətində
Çırtım-çırtım alış, yan !
Yan ki, sənin qiymətin
Bir ovuc külə bənzər.
Baxışları saralmış
Bir dəstə gülə bənzər.

* * *

Atdın məni ...
Ay ilk məhəbbətim,
Ay sevdiyim kəs.
Ürəyimdə doğulub,
Ürəyimi yandırıb,
Eh, sonra da yan durub
Ey bir ovuc qızıl göz !
Atdın məni ...
Nə biləydin ki, ancaq
Ürəyim ocaq-ocaq,
                    yanacaq.
Səni xatirə kimi
Yalnız xatırlayacaq.
A mənim ürəyimi
Kəfkirə döndərən kəs.
Özünü düz yolundan
Uçruma göndərən kəs.
A tikanları ilə
Duyğularımı qanatmış.
Işıq-işıq hissimi
Gecə kimi qaraltmış.
A sözüylə
ürəyimdə kök atmış,
Qara buludlar kimi,
Bəlkələr tikən.
Eşqimin dəryasına
Lil kimi çökən.

Çiçək məhəbbətimi
Ləçək-ləçək yolaraq
Çaylarla axıdanım.
Söylə necə alışım,
Din, danış necə yanım
Sənə xətər gəlməsin.
Söylə necə edək ki,
Ürək gileylənməsin.
Ürəyimə qor düşüb.
Niyə sevmədin məni ?!
Mən ki, səni yaşadım ...
Duyğularımla qonaq
Getdiyim ünvanlara,
Sənin gülüşlərini
Gülüşümdə daşıdım.
Mənə həyat vermisən
Məndən həyat almısan.
Niyə ömür yoluma
Payız tək boylanmısan ?
Dedim çıraq olarsan
Ürəyimdə dağ oldun.
Axı niyə doğuldun ?
Yollarımda dağ oldun.
Hanı verdiyin vəfa ?
Məni atdığın üçün
Çırpıl daşa, dön daşa !
Yox, bunu yandım dedim
Ayaz, sən xoşbəxt yaşa»!

* * *

Görən bu xəyalmı ? Acı rö'yamı ?
O qızın önündə dayanıram mən.
Danışır o gözəl, danışır hamı,
Tək məni asıblar sanki dilimdən.

Ağ donlu mələklər su verir qıza
Danışır o gözəl, saçları dən-dən.
Məhkəmə qurulur bir vəfasıza,
Sonra məleykələr tutur əlimdən.

* * *

Yüz qırxıncı otaq ...
Qalır yadımda ...
Bir də ki, o qızın qaynar gözləri.
Ürək çırpıntıda, göz fəryadında
San ki, çevirirdi göy dənizləri.

Baxıram, baxıram bu gözəl qıza,
Sinədə sevən bir ürək yaşadır.
Bir sevgi boylanır yerdən ulduza,
Qayadan şeytanlar baxır, daş atır.

O qızın gözləri baxır gözümdən,
Gəlir uzaqlardan səsim, nəfəsim,
Bir ümid asılır mənim sözümdən -
«Təki o talelər geri dönməsin».

Bu qıza baxıram, o qızı görrəm,
Ürəyim göynəyir, ürəyim yanır.
Yox ! Yox ! Öz sözümü deməliyəm mən,
Hələ açılmamış düyünlər qalır.

Məhəbbət dediyin yaşıl bahardı,
Bir də görürsən ki, saralır...
Niyə ?
Bir də görürsən ki səni apardı,
Sonu görünməyən bir qəribliyə.

Onun da özünün ölçüləri var,
Çox da ki, deyirlər o yaşa baxmır.
Baharda ağ çiçək, Qışda yağan qar,
Qol-qola dolanır, baş-başa baxmır.

Bəlkə də çox zaman ölçüb-biçmirik,
Vəfa da bir hissin qurbanı olur.
Bəzən içməliykən onu içmirik,
Baxırsan bir hicran saçını yolur.

Sonra da deyirik qismət deyilmiş ...
( Bütün günahlara «qismət» deyirik).
Min yol çıxarılmış, min yol geyilmiş
Bəzən bir «bəzəkli» paltar geyirik.

Ittiham edirik Ayazları biz,
Tüstüsü baş alır el qınağından.
Niyə qorumuruq bu qızları biz,
«Pələng» pəncəsindən, «şir» caynağından.

Kökünə varmırıq qaranın, ağın,
Kökünə varmırıq sadə işin də.
Elə yaşayırıq çobansayağı,
Dəyənək əlində, «kabab» dişində.

Ay olun, Gün olun, Ulduz olun Siz,
Qara gecələri əridib için.
Qara çörəy olun, ağ duz olun siz,
Alovlardan keçin, odlardan keçin.

Minib buludlara qalxın göylərə,
Dönüb yağış olun, vəfalı yağış.
Yağın, ağ yağışı içsin dağ, dərə,
Göyərsin qayalar hey naxış-naxış.

Sonsuz arzularla sevin, sevilin,
Al günəş yapışsın əllərinizdən.
Qızlar, bəy evinə siz gəlin gəlin,
Eşitmək sizdəndi, duası bizdən.

Yüz qırxıncı otaq ...
Qalır yadımda ...
Bir də ki, o qızın qaynar gözləri.
Ürək çırpıntıda, göz fəryadında,
San ki, çevirirdi göy dənizləri.

Beləcə sevmişdi o qız da məni,
Beləcə sevmişdim o qızı mən də.
O qız saralmamış yaşıl səməni,
Hər bahar gələndə bitir əlimdə.

***1997***

## ŞAMAXI DƏFTƏRINDƏN

***Şamaxı mənim üçün ən zəngin, olduqca qiymətli bir xəzinədir.***

* * *

Saçları ağ,
Caqqalı ağ,
Ağ bir çıraq,
Sən idin, Etibar kişi.
Gözlərimin işığı,
Ürəyimin sarı simi
Əllərindən tutmuş
Kirpiklərinə kimi
Dağları,
Ağappağ çiçəklərə boyanmış,
Dərələri oxşayan
Körpələri oxşayan
Gec yatıb, tez oyanan,
Palıd kimi dayanmış,
Sən idin, Etibar kişi..
Sən torpağa tapşırılanda,
Mənim on yeddi yaşım vardı.
O zaman elə bilirdim ki,
Səni torpağ yox,
Məleykələr apardı...
Bu gün
Elə bilirəm səni,
Gözümdə dəfn ediblər.
Elə bilirəm
Əyilməz dağları,

dumanlı dərələri,
danışan bulaqları,
nələri... Nələri...
Gözümdə dəfn ediblər.
Sənin kimi
Bəzi qocalar da
Sən gedən o ağır yolu
gediblər...
Nə qəm...
Amma
Çox şeyi mənə demədin,
Çox şeyi öyrətmədin.
Yaşımın kiçikliyi
Kəsmişdi qarşını.
Indi götürüb arşını,
Ölçürəm ha, ölçürəm
Sənin həyat yolunu
Ürəyimdə keçirəm...
Nə ölçüyə sığışır,
Nə də mənim ömrümə.
Günümə bax, günümə...
Əli ərşə dayanan
Dağ kimi ağacların,
Külünə bax, külünə
Yoxsan, Etibar kişi,
yoxsan!
Səninlə dəfn olunub
Gərəkli söz,
küləkli söz,
ürəkli söz!

Səninlə dəfn olunub
zəhmət,
məhəbbət,
ədalət!
Qırıb məzar daşlarını,
Söküb torpağı
Qaldırmaq istəyirəm səni...
Günəşi bizə tapşırıb
özü sönəni.
Təəssüf Etibar kişi..
Biz hara, Günəş hara?
Yara bağlayıb ürəyim,
yara...
Etibar kişi,
Bu gün gərəksən
mənə, hamıya.
Izn ver, qısa deyim sözümü,
qısa.
Dağılacaq dünya
Sənin kimi
qocalar olmasa.

* * *

Şamaxı...
Mənim böyük şəhərim,
Dağların yaxasında
Dağlardan da böyükdü.
Onun haqqında yazmaq,
Çörəyini yediyi,
Sevgisini içdiyi
Şair boynunda yükdü.

Mənim qədim şəhərim -
Əzimli,
uca,
nəhəng...
Cənubdan və Şimaldan
Keşiyini çəkir
Iki daş olmuş pələng.
Baxıb bu heykəllərə
Nə qədər sevinərdim.
Yaşım kiçik olsa da
Qürurla öyünərdim.
Pələnglər,
Inciməyin
Qoruya bilmədiz mənim
şəhərimi,
mənim istəyim kimi.
Didir qəlbimi
içimin kini...
Qoruya bilmədiz
Sənəti,
sənətkarları.
Qoruya bilmədiz
Yağan yağışı,
yağan qarı.
Səhərin şehini,
Dağların zirvəsini,
Dərələrin yoxuşunu,
enişini.
Qoruya bilmədiz
işığını,
odunu, ocağını.

Böyüyür şəhərim,
çılın-çılpaq
Böyüyür kədərim...
Boğulur evlərdə
çil-çıraq.
Qurudu
Sonu görünməyən
üzüm bağları

Qurudu
Sonu görünməyən
yaşıl zəmilər.
Qurudu
nələr... nələr...
Hanı qayaları yaşadan,
kəklik nəğməsi?
Hanı insan kölgəsi?
Hanı çiçək ilməsi?
Hanı cövhərim, ətrim?
Tükənib daha səbrim!..
Kimi qonaq gətirim?
Hara qonaq gətirim?
Niyə qonaq gətirim?
Mənim böyük şəhərim,
Dünyanın qulağında
Kişnəməsi yaşayan
Mənim «dəli» Kəhərim...
Daş pələnglər
Qoruya bilmədi səni
Neyləsin daş?
Daş elə daşdı.
Eh, hələ nə yaşımız var,
Yaşamaq bir savaşdı.

Doğulan pələnglər
qoruyacaq səni,
məni...
Siz də ey kimlər...
Arxamca gülməyin,
Daş atmayın ünvanıma,
Eyb etməz!..
Tarixin
sıldırım yaddaşına
Yazılan bir ad -
Şamaxı,
itməz!!
İtməz!!

* * *

Nağıllarda oxumuşdum
Çox başlı,
qanadlı,
inadlı
ilanlar haqqında.
Oxuduqca bu nağılları
Içimdə bir nağıl yaşıllaşırdı
«yalanlar» haqqında.
Bəlkə də olub,
nə bilim,
görməmişəm.
Belə ilanlarla
Döyüşə girməmişəm.
Eləcə könlümdə yaşardı
O nağıllar,
yaşıl dağlar,
sıldırım qayalar.

«Dəli» yağış,
«qızıl qar», -
füsünkar bahar..

Bir dəfə
Şamaxıda görmüşdüm
Çox başlı yox,
İkibaşlı bir ilanı.
«Şirvani» muzeyində.
Soyuq, şüşə bir qabda,
Sanki soyuq,
qarlı bir dərənin
quzeyində.
Yuxuma girir hərdən
O ikibaşlı ilan.
Yalan mənə yaraşmır,
Ancaq bu gün
«Yalan» danışmaq istəyirəm,
«yalan» !!
Şəhərin küçələri,
xiyabanlar,
Lap elə kiçik bağlar,
Yollar,
cığırlar,
dərələr,
dağlar,
Yüzbaşlı ilanlarla
doludur.
Özü də bu ilanlar
Nə ot yeyir,
nə də torpaq.

Ancaq və ancaq pul ugyur...
İnsanları bir göz qırpımında unudur.
Bilirəm,
Bir gün gözə görünməz Allah
qılıncını çəkib deyəcək:
- Gəlin, bu «sürünənləri»
birdəfəlik qıraq...
«Ehtiyatlı olun, insanlar,
Bu əcayib heyvanların
Kökü kəsilənə kimi!
Dünyanın üzü
gülənə kimi! »

* * *

Ildırımları
Döyüşə çıxmış
Yağışlı bir gündə
Gəldim bu məktəbə...
Şamaxıya.
Dünyanın ən şirin
arzularını,
Görünməz rənglərlə
Qəlbimdə toxuya-toxuya.
Atam və bir də anam
Nigaran idilər gələcəyimdən.
Bu dəbdə olan məktəbə,
Girib-girməyəcəyimdən.
Qəbul oldum,
Amma çox çalışdım, çox.
Dost oldu mənimlə

Rəngini görmədiyim,
dadını duymadığım
kitablar.
Əvvəlcə Seyrandan tar aldım,
köhnə bir tar...
Bir fotoaparat da aldım
Şəhər mağazalarının
birindən.
Şerdə də sınayırdım
qələmimi hərdən.
Sonradan tar da,
fotoaparat da,
çəkdiyim «plyonka»lar da
Yandı evimizlə birgə.
Bir mən qaldım,
bir quru süpürgə,
Bir də sevdiyim qız.
Süpürdüm, süpürdüm ...
Beynimdən keçən yolları,
Ağlayan yolları,
gülən yolları.
Ilk məhəbbətimin
Yarpaqları da saraldı.
Ən müqəddəs hisslərim,
Hayım, harayım
Ürəyimi yandıran gözlərim
Şamaxıda qaldı.
Bakıya gəldim
Mənim dərdimi yazan
qələmimlə.

Gözü yollarda qalmış
həsrətimlə.
Lakin bilirəm ki,
mənim getdiyim bu yol,
Sabir məktəbindən başlayıb.
Bir də bilirdim ki,
Ürəyimdə sonu görünməyən
bir sevgi qışlayıb,
Ağappağ, tərtəmiz.
Indi məni dəniz ovudur,
göy dəniz...
Saysız-hesabsız sevənlərin
şahidi dəniz...
ümidi dəniz...
Danış dəniz, danış...
Ləpələrinin pıçıltısı,
Ilıq hənirtisi olmasaydı,
sərinliyi
yaşamağa dəyməzdi.
Şamaxı,
Sabir məktəbinin
Xatirələri də qapımı,
Saralmış
əlləriylə döyməzdi,
döyməzdi...

* * *

Yetişdi bir ömrün sonu,
Yox oldu bir insan səsi.
Asıldı gözlərimdən,
Ruhun qara gölgəsi.

Azaldı bir insan gülüşü,
Tükəndi bir qadının
Kirpiklərindən süzülən
göz yaşı.
Büküb bir əlcə ağa
Şamaxının «Yeddi Günbəz»
məzarıstanında
Tapşırdıq xalamı torpağa.
Göyərdi bir baş daşı,
Göyərmiş daşlar içində -
Nuruş baba...
Əhəd müəllim...
Kimlər...
Kimlər...
Daş geyimdə, daş biçimdə.
Yadıma düşdü Nuruş baba,

Yadıma düşdü
onun səsinin rəngi,
zəhmətinin külüngü.
Həmişə deyərdi:
«Oxuyun... Oxuyun...
oxuyanları sevir yaradan».
Nuruş baba,
Indi nə oxuyan var,
nə də oxudan.
Nuruş baba,
Dünya, heç kəsin
anlaya bilmədiyi
bir layla çalır.

Hər dəfə izdihamla
Yanına gələndə
Bizlərdən biri səninlə qalır.
Bu gün də xalam qaldı yanında.
Işığı görünməyən
Bir işıq yaşayacaq
Bu qaranlıq dünyanın
divarlarında.
Nuruş baba,
Bu günəşli dünyada,
Sən idin xalamın
Gözünün görəcəyi.
Bizi aparan yollar,
Çiyinlərinə alıb,
Addım-addım yanına gətirir
gələcəyi.
Nuruş baba...
Torpaq üstə
Sənə tapşırılan
xalamı,
Torpağın qoynunda da
tapşırdıq sənə
mükəddər, qəmli.
Donmuşuq dövrəndə,
Elə bil kilidlənib
qohumların dili.
Nuruş baba...
«Yeddi Günbəz» məzarıstanında
Yanan, gözə görünməyən
bir ocaq...

Nuruş baba...
Xalamsız əriyən baba,
Ayırmışdı həyat sizi...
En...
Ruhun baxışı
        bir daha
Yollarda qalmayacaq...

* * *

«Muğanlı» kəndinin sağ sahilində,
Qara göz giləli üzüm becərdik.
Danışdıq göylərlə torpaq dilində,
Dağlar da göyərdi, biz də göyərdik.

Nə vaxtsa, kiminsə əkdiklərini,
Yüz etdik, min etdik...
                    eh, nələr əkdik...
Ata babaların çəkdiklərini,
Dağların dibindən döşünə çəkdik.

Tələbə əlinin zəhmətini siz,
Qoruya bilmədiz a «bugünkülər».
Od, alov umardıq şimşəklərdən biz,
Ey qara buludlar...
                    Qara kölgələr...

Torpaq Günəş sevir, torpağ su sevir,
Baxıram torpaq da dönüb daş olur.
Bu yazıq torpağı, ey insan, çevir!!
Qoyma «vəhşiləşə»!!

Bahar qış olur!..
Təpə boz, dərə boz,
boz duman gəlib,
Bu şəffaf «sırğalar» yarpaqmı gəzir?
O yaşıl ağaclar bəs niyə ölüb?
Bir zaman...
Indisə küləklər əsir...

* * *

***Şamaxıda çıxan «Yeni Şirvan» qəzetinin redaksiyasında «Gənc Sabirçilər» məclisi fəaliyyət göstərirdi. Çox təəssüf ki, yaradıcı gəncliyi birləşdirən bu ocaq bu gün sönmüşdür. Çox təəssüf...***

Söz yaddaşlı əsrimizdə,
Bayraq imiş Sabirçilər.
Şeirimizdə, nəsrimizdə,
Dayaq imiş Sabirçilər.

Seyid səsli, Səhhət sözlü,
Hadi odlu, Sabir gözlü,
Şamaxıda palıd közlü,
Ocaq imiş Sabirçilər.

Xaqanidən nişan qalan,
Nəğmə qalan, nağıl qalan,
Sal daşlarda kötük salan,
Budaq imiş Sabirçilər.

Şahinlərin qıyyasından
Dağlarından, qayasından,
Xatirələr dünyasından,
Soraq imiş Sabirçilər.

Kirpiyində yaş qaldıran,
Kölgəsində daş qaldıran,
Üfüqlərdən baş qaldıran,
Çıraq imiş Sabirçilər.

* * *

Gəldi Şamaxıya ağappağ gündə,
Yeni il göylərin qar qanadında.
Bütün tələbələr döndülər kəndə,
Bircə mən «yapışdım» yar qanadında.

Atam da, anam da gözləyəcəkdi,
O qızdan xəbərsiz, məndən xəbərsiz.
Bu eşqi o qız da gizləyəcəkdi,
Bir azca kədərli, bir az kədərsiz.

Anamı əzizdi?
                    O qızmı əziz?
Dolaşdım əzizlər arasında mən.
Elə də, belə də ürəyim təmiz...
Qaraldım bir gözün qarasında mən.

Bəzədik o ili ikimiz qoşa,
Qəlbimin ağrısı, acısı söndü.

Dedik ilk məhəbbət dəyməsin daşa,
Düyünlər göründü, daşlar göründü.

O bəzəkli «yolka» qalır yadımda...
Iki il yaşayır hər ilim mənim.
Nə olsun  yaşayır adın adımda,
Saralmış dünyadan yapışıb əlim...

* * *

***Şamaxının başı üstə iki dağ zirvəsi var. Bir zirvədə «Qız qalası»nın izləri yaşayır. O biri zirvə isə «Pirdirəyi» adlanır. Ilk dəfə 1963-cü ildə bu yerləri gəzmişəm.***

Nəyin batıb, nəyin itib
Şamaxının «Qız qalası»?
Şah yurdunda qaya bitib
Axın-axın...
«Qız qalası».

Daş amalım , daş bayrağım,
Keçmişimdən daş sorağım.
Yaram üstə daş sarığım...
Uzaq, yaxın... «Qız qalası».

Yazla yazlar, Qışla qışlar,
Kitabədir, susub daşlar.
Oxuyanı ağ yağışlar,
Yağın, yağın...
«Qız qalası»...

Bu yerlərin daş çırağı,
Sağın «Pirdirəyi» dağı.
Əsrlərin baş darağı,
Yar-yarağım, «Qız qalası».

Insan köçər, iz qalarmış,
Söhbət qalar, söz qalarmış.
Burdan göyə bircə qarış,
Dağda dağım «Qız qalası».

* * *

Saralmış sənədlər içində
Şamaxının toz basmış
            sənədlərini gəzirdin,
Zəçrifə xanım!
Keçmişini gəzirdin,
Sərhədlərini gəzirdin.
Zəçrifə xanım!
Yandırıb işıqları
            unudub uşaqları
Elə bil gəzirdin
        torpağını,
            qayalarını,
                aranını,
                    dağını.
Əllərinə hopurdu
Kağızların sarılığı,

Əsirlərin ayrılığı.
Nəfəsinə hopurdu
Illərin tozu.
Gözlərinin atəşindən əriyirdi
Vərəqlərin buzu.
Düzü
Heyifim gəlirdi
Sənin vərəqlər arasında
Çırpınan ömrünə.
Mən -
Ağzı «sarı köbəli» bir uşaq
Başqa nə düşünə bilərdi, nə?
Məntiqsiz suallarıma,
Bir də ki,
Boğazından yapışdığım tarıma
                    baxıb gülürdün.
Sən öz işini
          çox   yaxşı bilirdin.
Bağışla Zərifə xanım,
Görə bilməmişəm
             sənin gördüklərini.
Bilə bilməmişəm
            bildiklərini.
Mən indi
Bir insan ömrünün
Əvvəlini tapa bilmirəm.
Mən bir insan ömrünün
Saralmış,
             sevgi dolu

Məktubları arasında
yata bilmirəm.
Qalmışam
Payız yarpaqlarına dönmüş
vərəqlər arasında.
Mənim bu kiçik arxivim,
Nöqtəyə dönüb yaşayır
Gözlərimin qarasında.
Bu arxivin
Nə bağlayanı var, nə açanı
Nə qıfılı var, nə açarı.
Öyrənmədim səndən
Arxivdə işləməyi
Alt-üst edib,
Ürəyimdəki, gözümdəki arxivi,
Bir sevgi küləyi.
Bağışla Zərifə xanım...
Çətindir arxivdə işləmək...
Ürəyimdə bir ocaq göynəyir,
olacaq...

Eh...
Nə biləydim ki ancaq,
Bir zaman mənim də
Xatirələr dolu
bir arxivim olacaq...

* * *

***Şamaxı 5 saylı şəhər məktəbində keçdiyim ilk təcrübə dərsinin mövzusu Mehdi Hüseyn idi. Əyani vəsait kimi şəklini çəkib sinfə gətirmişdim.***

Beş saylı
Şamaxı məktəbində
Keçdim ilk təcrübə dərsini.
Dünyaya sığmayan həvəsimi,
Bölüşdü məktəblilər.
Bağrına sıxdı məni,
Bu qədim şəhər.
Elə bil ilk dəfə
Yağdı üstümə
Ağ bir yağış,
«isti» bir qar.
Məndən çox sevinirdi
uşaqlar.
Alıb məni qanadına küləklər,
qaldırmışdı göylərə.
Göylərdən baxırdım şəhərə.
Mənə elə gəlirdi ki,
Səsimi,
nəfəsimi,
itirmişdim.

Hələ «Mixaylo»nun şəklini də
çəkib
sinfə gətirmişdim.

Qarışmışdım
Ürəyimin döyüntülərinə qarışan
Qırx beş dəqiqəyə.
Illər dönərmiş küləyə...
Bəli, beş saylı
Şəhər məktəbində
Keçirdilər məni sınaqdan.
Baxıram o günlərə indi
                    çox-çox uzaqdan.
Sınaqlardan çıxa-çıxa
Gəlib çatmışam bu günlərə.
Qarşımda nə qədər dağ durur,
                        nə qədər dərə.
Insan ömrünün
Hər günü, hər anı,
Sınaqlarla doludur.
Bəlkə də ömür özü,
Başdan-başa
Sınaqlar yoludur.
Lakin mən,
Unuda bilmirəm
O sınaq gününü.
O vaxtdan çalıram
            külüngümü.
Boylanır sinəmdən
         qayalar,
                    dağlar.
Sınaqlar gözləyir məni,
                     sınaqlar...

* * *

Şamaxının
Çox küçələri var -
«Xəqani»,
      «Nəsimi»,
            «Şirvani»,
                  «Şəhriyar»...
Birinin də adı
«Aşağı Sabir» küçəsidir.
Onunla bağlı,
Bildiklərimi yazmasam
                    küsəsidir.
Bu küçədə,
Qonşu yaşardı
Mən və bulaq.
Tələbə idim,
Atadan,
      anadan
           evimizdən uzaq.
«Aşağı Sabir» küçəsindən
Gedirdim məktəbə.
«Aşağı Sabir» küçəsinə
Dönürdüm məktəbdən.
O küçədən  başlayıb
Atdığım addımlar.
Yadımdadır
Bulağa gəlib-gedən
                    adamlar.
Yadımdadır
               tələbə oğlanlar,
                     tələbə qızlar.

Bir də ki,
Qulaq çəkilən zaman
Mirvari sularda çırpınan
Ağ qanadlı, «Gümüş» ayaqlı qazlar.
Indi bulaq da yoxdu,
Uçub gedib qazlar da.
Ərə gedib qızlar da...
Mən də uçub getmişəm.
Bu küçədən uçubdur,
Bulaq səsli məhəbbət,
Bulaq səsli səadət.
Nə mən onu tapıram,
Nə də o məni tapır.
Ömür atını çapır.
Bircə adı qalıbdı
Bu qəribə küçənin,
Bir də qədim ağaclar.
Bir də ki, o qız ilə
Əkdiyim qoca çinar...

* * *

Şamaxı...
1963-cü ilin payızında,
Qram-qram satılırdı çörək.
Biz tələbələr görmürdük
Yaşlıların ürəyini
Necə döyürdü
            yağış,
Necə döyürdü
            qar, külək...

Dünya,
Pəncələri altında
Sarı yarpaqları gizləyirdi.
Insanları
Daşdan yumşaq
çox şey gözləyirdi.
Bu üzü boz ,
ürəyi daş,
gözü hikkəli,
Qara buludlar kimi
gölgəli
Günləri görə bilmirdim mən.
Imtahana çəkilirdi
kişilər,
ağarırdı saçlar,
qar kimi dən-dən.
Şikəst atamın
Əzabından xəbərsiz
Çörək dərdi çəkməyən
bir tələbənin
Qəlbində ilıq bir sevgi
yarpaqlayırdı.
Qönçələri açmamış,
Qanadlanıb uçmamış
Bu şirin məhəbbətdən
ayırdılar bizi.
Kimlər ayırdı?!
Ağır günlərimi?
Zamanmı?
Yox, yox qismətin gözü
kor oldu.

Aclıq da bəhanədir.
O gündən
Qəlbimi bir hikmət
didir -
Sevgi aclığa baxmır,
Sevgi çörəyə baxmır.
Bu gün də günlərimiz
Ağırdır,
ağır...
Sevilənlər də var,
sevənlər də var.
Ayrılanlar da var,
evlənənlər də.
Ancaq istəmirəm qayıtsın
Şamaxının 1963-cü ili.
Istəmirəm qılınclasınlar
gölgəmi.
Istəmirəm çörək də
bəhanə olsun,
bə'zilərinə.
Təpmək istəyirəm
o sevgini
bir daha gözlərimə.
Istəmirəm qayıtsın
o qar,
o yağış.
Kövrəlmə, ürəyində nə var
Danış...
Açıq danış...

* * *

«Gənc Sabirçilər»lə
Görüşə gələndə
Onun saçları
qap-qara idi.
Nə əlində əsa vardı,
Nə üzündə Şamaxının
Dərələri,
dağları kimi
qırışlar.
Onun gəlişinə əl çalardı,
Buludlar da,
küləklər də,-
yağışlar da
çiçəklər də.
Göylərə çatardı
bu alqışlar.
Buraxıb montyorluğu,
Şair oldu.
Intizarda qaldı
Şamaxının işıqları.
Ondan söz umurdu,
söz gözləyirdi,
Şirvan əhli,
Şirvan aşıqları.
Göstərirdi bizə də
Şeiriyyətə gedən yolu,
Saysız-hesabsız yollar içində.

Və Onun kimilər olmasaydı,
Al qana boyanardıq,
Çırpınardıq
Bizi caynağına alan
kollar içində.
Indi
Inana bilmirəm gözlərimə.
Quru bir ağac budağında,
Böyük bir insanın,
titrəyir əli.
Ağ bir dalğa kimi
Qucaqlayıb öpür səni.
Bəyaz qara bürünmüş
Dağ kimi dayanır
qarşında.
Sən demə üzüklər görünərmiş
almaz qaşında.
O, bizimlə görüşə gələndə,
Saçları qap-qara idi.
Nə biz yetişmişdik,
Nə üzümlər -
Dörd yanı qora idi.
Elə bilirəm
Dünən görüşmüşəm onunla.
Bu günkü günüm üçün
Borcluyam bu böyük insana
ürəyimlə, qanımla.

* * *

Şeirlər yazmışam sevdiyim qıza,
Çılpaq bir cığırda göyərib izim.
Şe'rlər yazmışam çiçəkli Yaza,
Bircə Yaz duyubdur kimədir sözüm.

Yazıram, yazacam nə qədər varam,
Sevgim ölə bilməz, sağalasıdır.
Bir də ki, bilirəm qəlbimdə vuran,
Torpağın qoynunda sağ olasıdır.

Ərimәz bir eşqin qəhrəmanı sən,
Ərimәz, çayların yüyürən daşı.
Mən səndən xəbərsiz tutub əlindən,
Gedirəm, qarşımda illərin qışı.

Ikicə məktubum yazılıb sənə,
Biri Şamaxıdan, biri Sibirdən.
Birinin cavabı çatıbdır mənə,
Birinin cavabı baxır qəbirdən.

Bəlkə almamısan son məktubumu?
Bəlkə də o məktub didir qəlbini?
Bəlkə də cırmısan sən məktubumu,
Bəlkə cavabsızlıq yaşadır məni...

Soruşan deyiləm, kimdir günahkar,
Sənin xoşbəxtliyin bəsimdir mənim.
Dünyanın qulağı olub bu gün kar,
Bəlkə də quruyub sözlərin sənin?

Sevdiyim o qıza bu dünyada mən,
Iki məktub yazdım, Allah, cəmisi...
Şeiriyyət dünyamın şah misrası sən,
Mənsə o sevginin bir nişanəsi...

* * *

Yuxuma girirsən eləcə kövrək,
Hopuram bir eşqin əzizliyinə.
Bizi qanadında apardı mələk,
Göylərin ulduzlu səssizliyinə.

Uçuruq hərəmiz bir ulduz üstə,
Itirik göylərin dərinliyində.
Şamaxıda yaydır...
                    Sən, mən buz üstə,
Yox olub dağların sərinliyi də.

Yox olub əllərdən yapışan mələk,
Uzağıq  Allahın biz kölgəsindən.
Mən indi  duyuram hopubmuş külək,
Bu ilk məhəbbətin fəlsəfəsinə.

Qəribə yuxular bə'zən olur düz,
Düz olur bir eşqin səyahətləri.
Hanı bizi içən o nərgizli düz?
Yanar bir sevginin göynəyər yeri...

Yuxuma girirsən eləcə təmiz,
Yuxuna girirəm yəqin ki, mən də.
Yapışıb əlimdən ovudur dəniz,
Sahil qumlarının kövrəkliyində...

* * *

Bəzən həyatda
Elə anlar olur ki,
Dözüm istəyir, dözüm.
Bə'zən bir sözün,
bir istəyin,
Çəkirsən həsrətini
bitmir.
Bəzən bir qızın baxışları
Ömrünün sonuna kimi
Gözlərindən getmir.
Ilk məhəbbətimizdən
Otuz beş il keçir.
Ürəklərimiz,
Çiçəkləri daşa-daşa
Gələn dağların baharını,
«Pirsaat» çayın sularını,
tütyə kimi içir.
Dözürük ilk məhəbbətin
ağrılarına.
Onun «oğrularına».
Dözürük sonu görünməyən
həsrətə.
Dözürük səadətimizi
Gedər-gəlməz bir yola
göndərmiş
acı bir nifrətə.
Dözürük...
Dözəsiyik üstümüzə yağan
Payızın sarı yarpaqlarına.

Döşənirik
Sevgimizi yaşadan
qayaların
ayaqlarına.
Bilirik, nə bu qayalar
yaşıllaşacaq,
Nə də bizim ilk məhəbbətimiz.
Bu imiş bizim qismətimiz...

* * *

Dünyada böyük çaylar
çoxdur.
Amma,
Bakıdan
Şamaxıya gedən yolda,
«Pirsaat»dan böyük çay
yoxdur.
Alt-üst edib sularını,
Balıq tutduğum
«Pirsaat» çaydır.
Ən çox sahillərində
yığdığım
«Pirsaat» çaydır.
Eşqimi oyatdığım,
Dumanlı bir
Məhəbbət tapdığım
«Pirsaat» çaydır.
Dənizə gedib çatmır bu çay,
Mən yaşıl bir məhəbbətə
çatmadığım kimi.

Yatmır bu çay,
Gözündən eşq ilanı çalmış
Sevişənlər
yatmadığı kimi.
Bəli,
Nə mən o məhəbbətə yetdim.
Nə «Pirsaat» çayı dənizə çatdı.
Yazdıqlarım
Üfüqlərinə çatmayan
bir muraddı.
«Pirsaat» çayı,
Sıxıb bağrına on beş günlük ayı
Ağı deyirsən yana-yana.
Mən də
Doldurub ürəyimə xatirələri
nəğmə deyirəm ona.
Hərdən də
Yığıb başıma dostlarımı
Gəlirəm «Pirsaat» sahillərinə.
Öpürəm daşını,
torpağını,
çiçəklərini.
Öpürəm onun göz yaşı kimi
şəffaf əllərini.
Bakı ilə Şamaxı arasında
Bu gün iki çay yaşayır -
Biri mən həsrətimlə,
Biri də «Pirsaat»
Günə-gün, saat-saat...
Ikisi də kədərli,
Ikisi də əbədi...

Biri həsrətinə qoşulub axır,
Biri də sulara.
Daha yer qalmır
suallara...

* * *

Biz tələbələr,
Az da olsa azad idi,
buyruqdan,
nəzarətdən.
Hərdən
Iki dəstəyə bölünüb
«Pirsaat» çayı boyunca
ova çıxardıq.
Bir dəstəmiz,
əlində ov toru,
Çaya qarışıb axardı.
Bir dəstəmiz də yarlı-yaraqlı
Sahil boyunca,
Alt-üst edərdi kolluqları.
Yazıq çay balıqları
Qaça bilmirdi
əlimizdən.
Heç xəbər də tutmurdular
gəlişimizdən.
Vəhşi quşlar,
Yaxın düşməsə də
gülləmizə,
Çoxları, həsəd aparırdı bizə.
Yaxşı bilirdik ki,

Nişangahdan
Yayınsa da «Pirsaat»ın
kəkliyi,
qırqovulu...
Baş tutacaq
balıq ovu.

Kimimiz balıq bişirəcəkdi,
çay dəmləyəcəkdi,
ocağın oduna alışacaqdı.
Kimimiz də əli qoynunda
danışacaqdı.
Biz məxməri çayı,
balıq şorbasını
içə-içə,
Həyat da bizi içəcəkdi.
Ömrümüzün ağı, qarası,
Ömrümüzün axarı
bax beləcə keçəcəkdi...

* * *

Qarlı bir gündə,
Qarışıb küləyin səsinə,
Sığınıb ürəyimin zəlzələsinə,
Ağsudan gəlirdim
«Gənc Sabirçilər»in
Şeir məclisinə.
Qarşıladı məni Tahir
Şamaxının astanasında.
«Şərq xalqları» küçəsi,

Qar basmış evin
Küçə qapısında,
Qarşıma çıxdı anası da.
Tamara xala...
Dodaqlarının altında
Bu qəddar qışı söyə-söyə,
Buz heykəl kimi,
Çəkdilər məni evə.

Yazıq arvad,
Eşib qış ehtiyatlarının
                    arasını,
Mürəbbə gətirdi bizə,
Şamaxı üzümünün
                    qara gilələrindən.
Gilələr bumbuz, dən-dən.
Mürəbbə də donmuşdu,
                        mən də.
Gecəsinin gəlməsini gözləyən
                            gün də.
Əlim də,
              ağzım da,
                        dilim də.
Donmuşdu buz geyimli ağaclar.
Yanırdı ocaqlar,
              asılıb, göylərə dirənmiş
                                    tüstüdən.
Özümə gəlirdim istidən.
Əriyirdi isti çayda
              üzümün gilələri.
Dirilirdi gözümün gilələri

Başlanırdı
Tahirin və Şahməmmədin
şeir məclisi.
Əriyirdi gecənin
qaranlığı,
Yatanların yuxusu,
Bir də ki, iki gənc şairin
Səhəri oyadan nəfəsi,
səsi...

* * *

Dostum Riqadan
Zəng vurdu Bakıya -
mənə.
«Yalvardı» dönə-dönə...
Məni tapdığından
Sevincək olmuşdu.
Hiss edirdim ki,
Gözləri dolmuşdu.
Sevinirdi ona görə ki,
Dünyanın pəncəsindən
Bir neçə günü
qoparacaqdım.
Dostlarımı, Şamaxının
Yaşıl-yaşıl hörüklərini
Çiyinlərinə atmış
Dağlarına aparacaqdım.
Sevinirdi ona görə ki,
Gəzəcəkdik,
Ayaqlarımızın ağrılarını,

Qoparacaqdı barmaqlarımızdan
Meşələr-
«Çəngi»,
«Qozlu»
«Pirqulu»
Ağardıb yolu,
Bircə-bircə gəzəcəkdik
kəndləri -
«Çuxuryurd»,
«Dədəgünəş»,
«Sis»,
«Qızmeydan»,
«Dəmirçi»,
«Zarat»
«Ərçiman»
Görəcəkdik
«Baba» dağının
zirvəsindəki qarı...
Üzəngi, cilov görməyənlər
Yəhərləyib atları,
Gəzəcəkdilər
Göyləri çiyinlərində saxlayan
dağları.
Görəcəkdirlər,
Hər biri uçuşuyla
«Allah» yazan
Hikmətli araları,
Böyüyəcəkdi gözlərdə Yer şarı -
cahan.
Yaşıl «tunel»dən keçib
Içəcəkdilər «Soyuq bulağ»ın
suyundan.

Lentə alacaqdılar
təbiətin nəğməsini,
bulağın səsini.
Sonra da «Kosmosdan»
Yayacaqdılar
bütün kainata,
Bulağın dediklərini...
Dostum ona görə sevinirdi ki,
Görəcəkdi dostları
Onun gördüklərini...
Bütün dünya duyacaqdı
«Soyuq bulağ»ın nəfəsini

Bütün kainat eşidəcəkdi
onun səsini:
«Insanlar, sizi
Allah yaşadır köksündə.
Nə qədər qarışsa da
bu dünya,
Görün... Görün Allahı
Başınızın üstündə»...

* * *

Yığıb gətirdilər bizi
Şamaxı pedaqoji məktəbindən
«Əngixaran» düzünə.
Kimisinə əsa verdilər,
Kimisinin başına
papaq qoydular.

Kimisinin də
　　　　sürmə çəkdilər qaşına.
Dövrə vurub oturduq
Dağların ətəyində,
Yaşıl bir çəməndə.
Çəkilmişdi
　　　duman da, çən də.
Hamının
Kinoya çəkilmək həvəsi
　　　　　qəlbində.
«Əngixaran» kəndinin
Sakinləri kimi
Bəzəndi tələbələr,
　　　　bəzəndim mən də.
Qətiyyətlə deyə bilərəm ki,
Beş gün də olsa,
Yaşamışam «Əngixaran»
　　　　　　　kəndində.
Inanmırsınız,
«Bu meydan, bu şeytan»
Soruşun,
Ayıdan, qaraçıdan.
Hər dəfə «Qaraca qız»a
　　　　　　　baxanda,
Özümü axtarıram
«Əngixaran»lılar arasında.
O zaman
Qorxmurdum,
　　　　　qaraçı ayısından.

Indi qorxuram...
Qan içən olub bu «ayılar».
Qarlı,
          qayalı dərələrdə,
            bu yaşıl meşələrdə.
Demirəm  bu «ayılar»
Günün-günorta çağı
Bakının «Nizami» kimi
Izdihamlı bir küçəsində
Kəsib qarşını, parçalar səni...
Bəli, parçalar,
Çıxara da bilməzsən səsini.
O zaman,
«Qaraca Qız» filminə çəkilən
Ayı ilə dost olmuşdum.
Hələ bir əlcə çörək də
             verdiyim yadımdadı.

Dəfn olunub yaddaşımda
               o günlərin dadı.
Indi bu qan içməyə
Hazır olan «ayılar» arasında
               tək qalmışam.
Nə etməli?
Qanadları yonulmuş
               bir quşam.
Dost olmaq istəyirəm...
Qalxıb arxa pəncəsi üstə,
Yeriyir üstünə dəstə-dəstə
                      «ayılar».

Qəm yemə, qardaş,
Bu dünya da ayılar kimi
Qış yuxusuna gedib.
Gələr yaz, açar çiçəklər
Dünya da ayılar,
Bir də bu «boz ayılar»...

* * *

Bir zaman Şamaxıda,
Könlümün tütək səsi ünündə,
Mavi xələtinin
Mavi düymələrinin
Sehrində, düyünündə
Sevmişdim səni.
Alışan baxışların
Bir piyalə sərin su kimi
Içmişdi məni.
Mavi düymələr arasında
Yaşardım mən.

Kirpiklərimlə açılardı
Sehrli düyünlər,
Səndən xəbərsiz açılardı
        mərmər sinən.
Səndən xəbərsiz açılardı
Mavi xələtin ətəyi.
Düymələr arasından boylanardı
Ilahi bir varlığın

Ağappaq gecə köynəyi.
Indi qaraca gözlərim
Çırpınır ömrümün
Qar basmış,
Qara basmış
gecəsində.
Ürəyimin
Işığı söndürülmüş
bir küçəsində.
Gözlərini döyür
Mavi geyimli bir qız.
Gözlərini döyür
Mavi düymələr,
Gözlərini döyür
Nələr... Nələr...
Demirəm
Zirvəsinə çatır yaşım.
Demirəm
Odunu itirib kirpiklərim.
Demirəm ki,
Yenidən əkin,
yenidən göyərim.
Yox! Yox!
Sadəcə,
Xatirələrim
Alışır, yanır.
Bir də ki,
Gözlərimi oxşayan
Mavi düymələrin yerində

Gümüşü bir çay kimi
Zəncirbənd uzanır.
Nə səni görə bilirəm,
Nə də baxa bilirəm
Ayaqlarının gözəlliyinə.
Görən çoxları
Nəyinə vurulub
Bu zəncirbəndlərin
            nəyinə?
Heyf sizdən mavi düymələr...
Bu dişləri dəmir
Zəncirbəndləri
Nə küləklər açır,
Nə də kirpiklərim.
Heyf sizdən, heyf
Mənim
Düyünlü günlərim,
Düyməli günlərim...

* * *

Yazdıqlarım
Nə röyadır, nə də sirr.
Sən də bilirsən,
Tanrı da bilir...
Amma,
Allahın gördüklərini
Çatdırma Allaha.
(Çatdıra bilməzsən !..)

Bilmirəm
Sən necə baxırsan?
                                        Sən...
Amma mən,
Əzrailin yolunu
Həmişə gözləyirəm.
Kimlərsə gözləmir?..
Ha...Ha...Ha...
Dirsəklənib
Qismətimin yastığına
Nəvələrimi əzizləyirəm.
Bir də ki,
Günlərin,
                ayların,
                        illərin
Sevincini, kədərini
                    çözələyirəm.
Bir zaman,
Görməmişdim səni
«Pirsaat»da
            çay balıqlarına
                    divan tutanda.
Şamaxının
            yaşıl,
                    qayalı dağlarını
Bir-birinə qatanda.
Sevəndə, seviləndə.
Görməmişdim səni

Torpağı sökən
dərələrin selində.
Görməmişdim səni
çəmənlərin
quruyub köçən
gülündə.
Nə deyim...
Kiməsə əl qaldırmamışam.
Yalan deməmişəm,
Haram tikə yeməmişəm.
Əzraili də aldadan deyiləm.
Dik baxasıyam gözlərinə.
Axı o kimdir ki,
qarşısında əyiləm ?
Niyə əyilməliyəm ?
Niyə dilənməliyəm ?
Çıxası deyiləm qarşısına
dəyənəklə,
Topla, tüfənglə.
Onsuz da onundur
son söz,
son qərar.
Bilirəm,
Yorub səni mənzillər,
yolunu gözlədiyim...
Əgər gərəyinəmsə
döy qapımı,
Yapış əlimdən, apar...
Ancaq tumar çək

Dünyanı mənə göstərən
çıraqlarıma.
Möhtac eləmə
Kiminsə ayaqlarına.

Apar güldürə-güldürə,
Yaşat öldürə-öldürə,
Öldür yaşada-yaşada.
Bir də ki, sən,
nə edəsən...
Ölüm gələndə baxmır
Ünvana da, yaşa da.
Amma, səninlə
Bir söhbətim də var:
Incitmə,
Səni görməyənləri də.
Al canını, bağla dilini,
Deyə bilməsinlər yerini,
Varın, dövlətin...
Sonra da aç onlar üçün,
taybatay,
Cəhənnəmin yox,
Qızıl qapısını
cənnətin...
cənnətin...

***1990/98***

## ATAMIN NƏSIHƏTLƏRI

* * *

Ədalətsizlik
Üstə qurulmuş
Səlcuqlar dövləti də
Yerlə-yeksan oldu.
Böyük Çin dövləti də
Parçalandı.
Osmanlı imperiyası da,
Çiçək kimi yetişdi,
Sonra da soldu.
Qızıl Orda dövləti də,
Ocaq külü kimi,
Qaraldı.
SSRI də dağıldı...
Indi də
Hegemon dövlətlər var.
Gec-tez onlar da
Dağılacaqlar.
«Ədalət» sözündəki
Hərflər isə
Heç zaman
Dağılmayacaq.
Öz-özümə düşünürəm-
Ədalətsizlik
Qaya daşı deyil.
Gəzirəm,
Axtarıramsa da
Tapmıram dəlil.

* * *

Bəlkə
Insanlara
Ildırımlar çatdırır
Illərdən gələn
Səsləri.
Bəlkə də
Bəzən
Ildırımlar
Söküb
Ədalətsizlik deyilən
Qəfəsləri.
Bəlkə
Ilk rəsm əsəri
Nə bilim
Qövsi-qüzeh olub.
Bəlkə də
Hər şey,
Sevgidən doğulub.
Bəlkə də...
Mən, o və ya
Çoxları
Boğulardı kölgədə.
Bəlkə,
      bəlkə,
         bəlkə də...

* * *

Xalqını sevənlər
Ağıllılardır.

Öz sevgisi yolunda,
Xarüqələr yaradır.
Şeytanlara qoşulan
Şeytandır.
Nadanlara qoşulan,
Nadandır.
Saydıqlarım
Dərk edənlər üçün
          örnəkdir.
Əzizlərim,
Haqqı, ədaləti
Bilmək gərəkdir.

* * *

Haqqı,
Ədaləti
Bir mən,
Bir də mənim kimilər...
Bir də Tanrı bilir.
Onun da əli,
Özü doğru,
Sözü doğru,
Olanların
Çiynindədir.

* * *

Hərdən düşünürəm
Zavallı insanlar,
Özünü niyə yorur...

Axı
Haqsızlıq
Baş qaldıranda
Tarazlıqlar
          pozulur...

* * *

Tək olma,
Qarış
Insanlara...
Qarış yağışa,
Qarış qara.
Yoxsa
Təklik
Kədər kimi
Ürəyinə enər.
O və ona oxşarlar
Canavar kimi
Tək qalanda,
Yalquzağa dönər...

* * *

Ədalətli adam
Həmişə haqdır.
Xəbis adam
Allahdan uzaqdır.

* * *

Acı da olsa,
Həqiqəti danış.

“Bər-bəzək” vurma,
Sənin də qapını
Döyər qarğış.

* * *

Inam,
Ehtiyacı
Gizlətməyin
Üstünlüyüdür.
Inad isə,
Çürüklüyüdür.

* * *

Iki şəxsi
Dalaşdırsan
Xəcalətdir.
Iki şəxsi
Barışdırsan
Ədalətdir.

* * *

Diyarları,
Ölkələri
Dolan bir-bir.
Onda
Görəcəksən ki,
Pis qonşuya,
pis qohuma,
Rəhm edilmir.

* * *

Həqiqət naminə
Alçalmaq,
Günah işlədib
Ucalmaqdan
Yaxşıdır.
Pulsuz yaşamaq,
Borc almaqdan
Yaxşıdır.

* * *

Cəza
Almalı olanlar
Cəza almayanda,
Almalı olmayanlar
Nahaqqa
Qurban olanda.
Ədalət basılır,
Ədalət,
Dar ağacından
asılır.

* * *

Öyünmə,
Sənin də
Sonun çatacaq.
Səni də,
Hamını udan

Torpaq
Udacaq...

* * *

Həqiqəti bilib
Cəza verənlərə,
Həqiqət
Özü də güləcək.
Çox heyf...
Onlar
Bilməlidirlər ki
Gec-tez,
Tanrının
Qəzəbinə gələcək.

* * *

Hörmətlə yanaş
Şahidlərə.
Düzünü də eşit
Əyrisini də dinlə.
O zaman
Tərəzidə
Çəkmiş olarsan
Haqqı-nahaqqı,
Əməllərinlə.

* * *

Hamı
Şahidlik

Edə bilər.
Susursa,
Yalançı
Şahidlərə,
Olur bərabər.

* * *

Şikayət edən
Iki adamı
Diqqətlə dinlə.
Onlardan uca dayan,
Öz ürəyinlə.
Onlardan,
Yalnız biri
Düz danışır.
Yalnız biri,
Içində alışır.
Çox olacaq
Inciyən,
        küsən
Ancaq ayırmalısan,
Haqqı-nahaqdan.
Onda
ədalət sahibi
Olacaqsan.
Düzün də,
        əyrinin də,

Yaddaşında
        qalacaqsan.

* * *

Bilərəkdən
Kefin istəyən kimi
Hökm verdin
Bədbəxtsən.
Bilməməzlikdən,
Hökm verdin.
Yenə də bədbəxtsən.
Həqiqəti öyrənib
Hökm versən,
Deməli
Yıxılmaz ərsən!

* * *

Əmir sahibi
Olanda
Ədalətli ol.
Başqa
Hər hansı yolu getsən
Inan,
Doğru
Olmayacaq
Bu yol.

* * *

Eşidin məni,
Ey insanlar!
Atanın, ananın
Üstünüzdə

Haqqı varsa,
Nə qədər,
Sizin də
Övlad yolunda,
Haqqınız var
O qədər.

* * *

Eşitmə
Rəhmsizi,
Ürəyimdən
Keçənlər budur.
Hər ağacın
Öz meyvəsi,
Hər qəlbin
Öz odu olur...

* * *

Müharibə vaxtı,
Döyüşçülərə
Deyin:
Qocaları,
Qadınları,
Uşaqları,
Öldürməyin!
Öldürməyin
Allaha
Acıq gələr.
Belə qan içənləri
Nə vaxtsa zəlil edər.

* * *

Ədalətlə
Mühakimə edən,
Elmin quludur.
Bu Həqiqətin
Ən müqəddəs
Yoludur.

* * *

Istəsən də,
Istəməsən də,
Dünya boşalıb dolur.
Istəsən də,
Istəməsən də,
Hər dövrün,
Hər zamanın,
Yetişdirdiyi
Insanları olur.
Yadından çıxmasın
Bir qızıl qayda
Onların
Haqlıları da olur,
Haqsızları da...

* * *

Həqiqəti
          axtarma,
Yoxluğunu
Bilə-bilə.

Əyər
Tapsan,
Yerini
Mənə də
        söylə!

* * *

Həlak olsan da
Həqiqəti de
Qurtuluş budur.
Qorxub çəkinsən,
Yalan
Hər şeyi udur.

* * *

Əzizim,
Yaxşı-yaxşı bil:
Mal-dövlət
Zənginlik deyil.
Qəlbin zəngin
Olmalıdır,
Həqiqət budur.

* * *

Mənim gördüklərim,
Etdiklərim,
Duyduqlarım
Və bütün

Saydıqlarım
Mənim varımdır.
Var,
   dövlət,
         pul və...
Mənə qalmayacaq...
Bircə şerlərim
Qalacaq
Onlar
Mənim amalımdır.
Hayımdır,
         harayımdır.
Deməyin ki,
Bütün bunlar
Əfsanədir...
Bax belə...
Allahdadır
Dünyanın açarı
Bu da ən böyük
               sirdir.
Dinlə məni
Bir az ayaq saxla,
Ayaq.
Allah
Özü bilən yaxşıdır...
Gəlin onun
Işinə qarışmayaq...

* * *

Yadında saxla ki
Tapdalanmamalıdır

Heç kimin haqqı.
Görmək istəmirəm
Nahaqqı...
Hərəyə
Bir ömür verilib
Tanrıdan.
Ömrüm keçib yarıdan...
Gec də olsa
Axır ki duymuşam
Bu həqiqəti.
Necə də ülvidir
Insanların insanlara
Olan məhəbbəti...

* * *

Mən
Əzab və məşəqqət
Vermək
Üçün doğulmamışam.
Gərək
Hər şeyi anam,
Axı mən də insanam...
Bədniyyətlərin
Daxilində,
Şeytanlar yuva qurub.
Düşündükcə məni
Qara basır, qara.
Şeytanlar hara,
                mən hara?
Söküb dağıdasıyam

Bu yuvaları,
Qaranlıqları.
Qoy hamının ürəyində
Bahar olsun, bahar.
Qoy gül kimi tər
Bir də təmiz böyüsün
                uşaqlar.

* * *

Insan
Bütün varlıqların
Təmizidir,
Əzizidir.
Mən belə görmək
Istəyirəm,
Xisləti
Çirkin olanları da.
Sonra yaşadıqları
Bir insan ömrü
Düyün düşər yarıda.

* * *

Mən də
Zarafatı çox sevirəm.
Ona görə yox ki,
Danışıram,
          gülürəm.
Ona görə ki,
Bu zarafatın içində,
Həqiqəti görürəm.

* * *

Mən də insanam,
Hamının yediyini
Yeyirəm.
Hamının içdiyini
Içirəm.
Hamının geydiyini
Geyirəm.
Sözlərimi də,
Çiyinlərimə götürüb
Gedirəm.
Görəsən
Məndən sonra,
Onları aparan
Olacaqmı?
Görəsən
Mənim kimi birisi,
Tapılacaqmı?

* * *

Səbirli olmaq,
Gözəldir.
Yoxsul insanlarda bu
Daha gözəl olur.
Həyatımızın
Ən qüdrətli
Qanunu budur!

* * *

Baxma
Kimsənin
Sözünə.
Əgər
Cəzalanmalısansa,
Cəzanı özün ver
Özünə.

* * *

Bəziləri
Özünün olmayanı
Özününkü kimi
Iddia edir.
Bilin ki,
Cəhənnəm
Sayılan yer,
Onun yeridir.

* * *

Ikiüzlü insanlar,
Həmişə
Düzə, doğruya
Qurama qurar.
Axı mən necə deyim?
Yağan yağış
Qardı, qar!

* * *

Bir olun
Bütöv olun,
Sellər
Aparmaz sizi.
Böhtan
Qoparmaz sizi.

* * *

Asıb kəsmə,
Başqasına
Qəsd etmə.
Hiyləgər olma
Pis deyərlər
Onda sənə.
Ömrün də uçub gedər,
Beləcə sönə-sönə.

* * *

Dilini qorusan,
Abrındır.
Qəzəbini boğsan,
Dövlətindir,
Varındır.

* * *

Xeyirli bir işi,
Götürsən ələ.

Istəsən onu,
Başqaları da görə,
Tək eləmə...

* * *

Əzizim,
Deyəcəyim
Naxışların naxışıdır.
Səxavətli bisavad
Xəsis
Allahsızdan
Yaxşıdır.

* * *

Insan ölər,
Ağıl ölməz.
Çəkilməsi,
Mümkün olsa,
Heç bir şey,
Pis amaldan
Ağır gəlməz.

* * *

Işlə,
    tik,
        yarat,
            qur.
Onun saflığı,
Təmizliyi,
Ürəkdən qopur.

* * *

Xoşbəxtdir
Dilinə,
Sahiblik edən.
Bir də
Həyatda
Peşimançılıq
Çəkən.

* * *

Uzun
Ayrılıqdan sonra
Evə qayıtsan,
Yel olub əsmə,
Tələsmə.
Gecə qayıt sən.
Yoxsa sevincdən,
Zərər çəkə
Bilərsən.

* * *

Səfərdən qayıdarkən
Hədiyyələr al,
Ataya,
        anaya,
Dosta,
        tanışa.
Oğula,
        qıza,

Yara-yoldaşa...
Mümkün olmasa,
Çantanıza,
Daş da olsa,
Doldurun
dənə-dənə.
Kənardan baxanlar
Gülməsinlər sənə.

* * *

Təmiz
Mal-dövlət
Təmiz ada
Yaraşır.
Əyər
Çirkli olsan
Bu ad
Yalnız və yalnız
Təmiz ada
Qarışır.

* * *

Yaxşı
O adamdır ki,
Şərdən uzaq olmağına
Əminsən.
Pislər isə,
Pis kimi yaşayacaq...
Nə deyəsən?..

* * *

Ən yaxşı ev
Istəyincə
Ruzun olan evdir.
Ən yaxşı
Yaxşılıq isə
Ömrü boyu
Yol gedir.

* * *

Birisinin
Günahı varsa,
Ver günahını,
          amma
Açıqdan-açığa
Üzünə vurma...

* * *

Bir insan duyursa,
Atasının,
          anasının
Şərəfini qoruyursa,
Allah da onu qoruyur.
Xəbərsiz,
Səssiz,
Səmirsiz...

* * *

Dost-yoldaşın,
Ən yaxşısı,
Dostundur.
Budur var-dövlət,
Budur qürur.
Tanrı isə
Yaxşı dostun
Dostudur.

* * *

Düşmənin də olsa
Salam verirsə
Alın...
Lovğalanmayın!
Dodaqlarınızın
Altında,
Etməyin mır-mır...
Axı həyat qurtarmır...

* * *

Kim halal
Ruzi yolunda
Dünyasını dəyişsə
Şeytanlar hardasa
Bunu alqışlar.
Tanrı isə beləsinin
Bütün günahlarını
Bağışlar.

* * *

Xəbərçilik edən,
Adamları vuruşduran,
Taleləri qarışdıran
Hər hansı bir kəs,
Heç zaman
Gələcəkdən
Xəbər verə bilməz!

* * *

Inanan
Falçılara
Yaxın ev ucalmaz.
Ulduzlara baxıb
Fikir söyləyənə
Inanmaq olmaz.

* * *

Sorğu-suala çəkib
Əzab vermə...
Sorğu-suala çəkilərsən,
Bəlkə də bu dünyada
Od ilə su
Arasında
Qalarsan sən.

* * *

Nədənsə
Xəbər tutmaq
Onu görmək deyil
Bir anda.
O doğru da
Ola bilər,
Yalan da.

* * *

Öz eybini
Görənlər,
Xoşbəxtdir.
Artığını yoxsullara,
Verənlər də
Xoşbəxtdir.
Qanunla hərəkət
        edənlər də
Əlinin zəhmətini
        görənlər də
Xoşbəxtdir.

* * *

Zülfün
Gözəlliyi sərvətdir.
Dilin
Gözəlliyi səxavətdir.

Işıqlı
Gözlər də sərvətdir.
Şəfəq saçan
Üzlər də sərvətdir.
Ən qiymətli
Sərvət isə,
Insanın özüdür!
Insanın qızıldan da qiymətli
sözüdür.

* * *

Nə yaratsan,
Təməlini
Haram daşdan qoyma!
Gün gələr
Sökülər
oyma-oyma...

* * *

Çox şey
Miras qalır...
Düşmənçilik də,
Mərhəmət də.
Insanlara
Qarşı olan
Məhəbbət də!

* * *

Öz xasiyyətinlə
Qohumları
Bir-birinə bağla.
Onlarla
Otur-dur,
Ünsiyyət saxla.
Belə etsən,
Sevilərsən.

* * *

Xoşbəxtdir
O kəs ki,
Özü, sözü
Doğrudur,
Səadəti
  andırır.
Qaranlıq
  yolları,
Qaranlıq
  döngələri,
Işıqlandırır.

* * *

Pis, yaxşı
Insanların
Xasiyyətini
Qəbul edin,

Didməsin
Içinizi kin.
Gözəl
Xasiyyətlərinizi
Verib onlara,
Pis əməllərinə
Sədd çəkin!

* * *

Insanın
Var-dövləti ilə
Öyünməsi,
Özünün-özünə
Pisliyidir.
Birinin
Sevincinə qoşulub
Sevinməsi,
Qəlbinin
Təmizliyidir.

* * *

Kim ki, səni
Tərifləyir,
Təmizliyindən
Danışır bol-bol,
O kəsdən
Ehtiyatlı ol!

* * *

Başqaları
Eybini deyib
Doğursa gülüş...
Şivən qoparma,
Eybini anla,
Eybini başa düş...

* * *

Doğruluğu,
Düzgünlüyü,
Dəstəkləsən.
Heç zaman,
Peşiman
Olmazsan sən.

* * *

Axmaq
Adama uyma,
Onunla
Oturub-durma.
Öz əllərinlə
Zülm əkərsən,
Sonra da
Bəla çəkərsən...

* * *

Biləndə ki,
Tutduğun
Əmələ görə
Üzr istəyəcəksən...
O işi
Əvvəlcədən görmə,
Çünki böyürəcəksən.

* * *

Nəfsini
Tanrının verdiyi
Nemətə sal.
Odur
Sənin qismətin,
Odur
Sənə halal.

* * *

Yer üzündə
Kim nə iş tutsa,
Xəbərdardır
Tanrı.
Əzəldən
Etdiyiniz əməlləri,
Ölçün-biçin barı...

* * *

Acgöz olma,
Şirin elə dilini,
Götürmə
Heç kəsin minnətini.
Tanrı
Özü yetirəcək
Qismətini.

* * *

Xəsislik
Sağalmayan xəstəlikdir,
Yoxdur
Dərmanı.
Yaşayır
Yaşadıqca
Gümanı.

* * *

Gördüyü
Əyri
Bir iş üçün
Peşiman olana...
Elə bu,
Ən böyük
Tövbədir ona.

* * *

Validеyin
Çalışır,
Bacardığını
Edir.
Amma
Onun
Övladlarını,
Mühit
Daha çox
Yetişdirir.

* * *

Ümid
Sabaha inamdır...
Onsuz
Nə bir körpə
Əmizdirilər,
Nə bir
Ağac əkilər.

* * *

Başqasının
Halına yanmasan,
Sənin də
Halına yanmazlar.
Əgər unutmasan,
Səni də
Unutmazlar.

* * *

Şer də sənətdir,
Şer də sözdür.
Soyuqdur soyuğu,
Istidir istisi.
Hərfləri
Tumurcuq kimi
Göz-gözdür.
Bəzən
Ocaqdan baxan
                  közdür.
Eləsi var ki,
Sinəsində
Ürək tər-təmiz
Eləsi də var ki,
Içində iblis.
Elə şer var ki,
Dünyaya dəyər
Elə şer də var ki,
Oxuyursan
Qəddini əyər.

* * *

Göz baxmaqdan
Doymaz,
Alim də bilikdən.
Yaz qoxusu gəlir,
Bu ikilikdən.

* * *

Şair
Söz ustasıdır.
Alimin
Bədbəxtliyi,
Bildiyini
Unutmasıdır.

* * *

Özünü çəkmə!
Səndən
Elm
Almaq istəyənlərin
Arzusuna
Sədd çəkmə!
Bir də deyirəm:
-Özünü çəkmə!
çəkmə!

* * *

Elm uğrunda,
Mübarizə
Aparan adam,
Arzusunda
Sərbəstdir.
O, özü də
Bilmir ki,
Səslər içində

Bir səsdir.
Ölüb getsə də,
Yaratdıqları,
Gələcək üçün
Yeni bir nəfəsdir.

* * *

Şərəf əhli,
Yalan söyləməz!
Bilik əhli isə,
Ruhən
Heç zaman ölməz!

* * *

Oxuyan kimdir?
Nəçidir?
Biliyi olandır...
Biliksiz,
Qızarandır,
Sarsılandır,
Solandır.

* * *

Atadan
Yalnız
Övlad qalır?
Deyəsiyəm
Sözümü qısa.

Ondan
Bir də
Bilik qalır...
Hər ikisi olsa...

* * *

Həm öyrədən,
Həm öyrənən,
Hər ikisi ən uca,
Zirvədir.
Hər ikisi də
Zəhmətiylə
Qayaları əridir...

* * *

Bilik dalınca
Gedənlər
Baxmaz sənə, mənə.
Bu əməlləri ilə
Onlar
Öyünə bilər
Dönə-dönə.

* * *

Bilikli
Insanlar
Dağlara bənzər
Bir az.

Ancaq
Sellər, sular,
Yağan qar,
Yağan yağış
Onları
Nə əritməz,
Nə də sarsıtmaz.

* * *

Vaxtını
Biliyə
Sərf edənlər,
Bu yolu
Tutub gedənlər.
Əziyyət
Çəksələr də
Bir az.
Nadan qarşısında,
Heç vaxt
Uduzmaz.

* * *

Bilikli
Adamlar,
Yerin
Ulduzlarıdır.
Gecə də,
Gündüz də,
Alışır,
    yanır...

* * *

Alim olsan da
Yatmazdan əvvəl
Bir az oxu.
Onda
Şirin olar yuxu...

* * *

Bildiklərini yaz,
Yazmasan
Itib-batar.
Bəs mənə,
Ona,
Səndən
Nə çatar?

* * *

Utanma
Yaxşı
Görüb-götür.
Bilikli insanlar
Yoxuşda
Nadanları
Həmişə ötür.

* * *

Sizə bilik öyrədəni,
Uca tutun,
uca.

Müdrik bilin,
müdrik.
Bu
Əqidə sahibinə,
Heç zaman
olmaz yük.

* * *

Soruşsan ki,
Bilik nədir?
Deyərəm ki,
Başdan-başa
Sirdir, sirr.
Insanlar isə,
Onun
Bircə qətrəsini
bilir.

* * *

Bilik tükənməz,
O, bir xəzinədir.
Açarı-öyrənmək.
Bunun üçün,
Çarpışasan gərək...

* * *

Olma nadan!..
Öyünməkdən,

Lovğalıqdan
Uzaqdır
Bilikli adam.
Arif
Rahat yatar,
Cahil narahat...
Belədir həyat.

* * *

Soruşsan ki,
Dünyanın
Xoşbəxtləri
Kimdir, kim?
Düşünmədən
Deyərdim:
– Alim!

* * *

Hikmət
Sahibləri ilə
Görüşmək,
Dostluq etmək,
Onlardan öyrənmək,
Şərəfdir.
Yalan danışan,
Oğurluq edən,
Qan tökən,
Bişərəfdir.

* * *

Həsəd aparan,
Paxıllıq edən,
Duyanın daşıdır.
Əgər həsəd,
Paxıllıq,
Elm üçün edilirsə,
Yaxşıdan da
Yaxşıdır.

* * *

Bilikli
Həmişə
Mərhəmətli olur,
Səxavətli olur.
Biliksiz isə,
Saçını yolur.

* * *

Savad
Qəlbin aynasıdır...
Soruşmaq,
Bilik əldə etməyin,
Yarısıdır.

* * *

Qələbə
Istəyirsənsə,
Hücum

Gözlənən yerdə
Dayan!
Vuruş,
Şəhidlik et,
Qanına boyan!..

* * *

Təhqir,
Ən böyük pislikdir.
Onu edənlərə güzəşt,
Kafirlikdir.
Həmişə
Öyrənməyə çalış,
Bu yolda çarpış...
Soruşsan
Elmin qiyməti
nədir?
Deyərdim,
O hər şeydən
qiymətlidir!

* * *

Məni qınamayın,
Bu sözlərdə
Bir həqiqət var.
Qadınına
Baxan kişilər,
Çox yaşar.

* * *

Cürbəcür olur,
Yaşamaq...
Qardaş,
Yadda saxla ki,
Ən böyük günahdır
Halal,
Təmiz qadını boşamaq.

* * *

Əxlaqı
Gözəl olandır
Ən ləyaqətli
Insanlar.
Onlardır
Ailəsini
Ən böyük
Ehtiramla
Yaşadanlar!

* * *

Hər bir insan
Sənin doğmandır,
Canındır,
Qanındır.
Görsən ki,
O, nəsə bacarmır,
Kömək et,

Yardım elə.
Amma
Gətirmə dilə.
Illər ötəcək...
Sən olmasan da,
Övladların
Bu zəhmətdən
Bəhrələnəcək.

* * *

Səxavətə nifrətdən,
əmanətə xəyanətdən,
Vəd verib dönməkdən,
Yaxşıdır ölmək.
Əzizim,
Yaşamağı
Düşünəsən gərək...

* * *

Var-dövlət
Nə qədər
Yesən də az olmaz.
Əzizim,
Yadda saxla,
Qənaətcil insan
Heç zaman
Yoxsul olmaz!

* * *

Əzizim,
Hər xeyirli zəhmət
Həmişə bal dadır.
Onu da bilin ki,
Əkdiyin bir ağacın
Barını,
Bir quş,
Bir heyvan yesə,
Bu özü də
Ehsandır.

* * *

Insanların
Öz qazancını
Yeməsindən
Qiymətli
Heç nə ola bilməz.
Zəhmətlə
Əkilən ağac da,
Vaxtından əvvəl
Ölməz.

* * *

Halal olsun
O kişiyə ki,
Ailəsini
Zəhməti ilə

Dolandırır.
Öz
Ocağını,
Çırağını
Özü yandırır.

* * *

Kim ki,
Yetim olan kəsi
Bəsləyirsə...
Onları
Varlığıyla
Gələcəyə
Səsləyirsə,
Tanrı onu
Mələk kimi
Qoruyacaq.
Bir də
Onun qapılarını
Sevinc üçün
Taybatay açacaq.

* * *

Bir yoxsulu
Saxlayanı,
Müsibətə uğrayanı
Xilas edən
Ən xoşbəxt kəsdir.
Bu işdən

Uzaq olanların
Sonu
Quru bir
Nəfəsdir.

* * *

Əvvəlcə Allahı
Sonra ailəni
Daha sonra
Qohumları
Unutma.
Ancaq bu yolda
Özünü də
Odlara atma.

* * *

Edilən yaxşılıq
Görülən xeyirli iş,
Uzaqlarda
Qalan təşviş
Sabah üçün
Ən yaxşı inamdır.
Bu yolla gedən
Ən kamil adamdır.

* * *

Kim
Daşqınların,

Yanğınların,
Qarşısını alarkən
Ölsə,
Kim
Vətən üçün
Külə dönsə,
O, yaşayır...
Əsl
Şəhidlik
Adını da
Onlar daşıyır.

* * *

Əzizim,
Zülmə
Düşənə
Imkanın olub
Kömək etməsən,
Nəyə gərəksən?!

* * *

Bir adamın yeməyi
Ona da,
Sənə də yetər.
Iki adamın yeməyi
Dördünə yetər.
Dörd adamın yeməyi
Çoxuna bəsdir.
Elə isə,
Hərənizin

Bir küncə
Çəkilməyi
Əbəsdir...

* * *

Böyük
Qardaşın haqqı
Kiçiklər üçün
Soruşma nədir?..
Bu, atanın
Övladları üçün,
Edəcəkləri
Qədərdir...

* * *

Göndərilən
Bir məktuba
Cavab yazmaq
Salam almaq kimidir.
Əzizim,
Nə fikirləşirsən
Fikirləş...
Bu, belədir ki,
Belədir.

* * *

Salam
Görüşməyin

Tanışlığın
Açarıdır.
Insanların
Varlığıdır,
Varıdır.
Aç, gir içəri,
Onda görəcəksən ki,
Ağ-ağdır
Qara da qara.
Əzizim,
Qorxma, gir içəri
Batmazsan qara...

* * *

Uçulmaqda olan
Evə girib,
Uçmasını gözləmə.
Yolda yatıb
Gecələmə,
Qaldıra bilməyəcəyin
Daşa
Güc eləmə!

* * *

Övladlarınıza qarşı
Ədalətli olun.
Onların
Pis böyüməsinə
Yol verməyin.
Lazım gələrsə

Onları dəmir kimi
Döyün,
      düzəldin,
            əyin.
Təki,
Siz deyən olsun,
Ürəyiniz
Bir ovuc
Sevinclə dolsun.

* * *

Cənazənin
Arxasınca
Gedərkən,
Son vidanı
Edərkən,
Mərhum
Məzara qoyulmayınca
Oturmayın.
Sizinçün də
Oturmayacaqlar.
Bəlkə də,
Günəşli bir
Gün olacaq,
Bəlkə də
Qar yağacaq, qar...

* * *

Gözəlliyin
Bəlası lovğalıq,

Igidin bəlası
            ağalıq.
Müharibənin
Bəlası talan,
Sözün bəlası
            yalan.
Gözün bəlası
            zinət.
Ürəyin bəlası
Məhəbbət.

* * *

Pis adamın
Pisliyini deməsən,
Hardan
Biləsiyəm mən?
Əyər
Söyləsən
Tanıyasıdır,
Onu çoxu
Bir də
Tanıyasıyam mən...

* * *

Bir ikidən,
Iki üçdən,
Üç də dördən
Kiçikdir.
Parçalandıqca,

Yeni-yeni
Nöqtələr bitir...
Sonsuz kainat da
Dağılır, itir...

* * *

Bir insan
Atasının,
Anasının
Şərəfini
Qoruyarsa,
Budur
    əsl qeyrət.
O biri üzündə
Dayanır
Xəcalət,
Nifrət.

* * *

Əzizlərim,
Aranıza
Şübhə toxumu
Səpməyin!
Başqasının malına
Göz dikməyin!
Özünüzü
Namərdlərdən
Fərqləndirin.
Onlar

Gedən yolun
Uçurumlara
Yetəcəyini bilin.
Qardaş olun,
Sirdaş olun.
Axı siz,
Dünyaya
Bir dəfə
Gəlirsiz...

* * *

Vaxt yetişdi
Evlən,
Kiçik də olsa
Bir məclis qur.
Azına,
Çoxuna baxma
Əzizim,
Bir boşqab
Aşla da
Ötüşmək olur...

* * *

Nə qədər
Fikirləşirsən
Fikirləş...
Nə özünü yor,
Nə məni,
Nə də başqasını.

Bir ata kimi
Oğul evləndirib,
Qız köçürdüb,
Verməlisən
Xeyr duasını.

* * *

Küsülü tərəfləri
Barışdırmaq,
Əl tutmaq-
Əsl insanlıq budur.
Vasitəçilik etmək,
Saydıqlarımdan da
ucadır.

* * *

Həyat gözəldir,
Görənlər üçün.
Həyat şirindir,
Körpələr üçün.
Həyat əbədidir,
Kişi kimi yaşayıb
Ölənlər üçün.

* * *

Xəstəyə baş çək,
Varına,
Yoxuna baxma.

Görüş onunla,
Yanında darıxma.
Din,
    danış,
Halını soruş.
Bir anlığa da olsa
Onunla qovuş.
Dərdinə baxma...
Bir də
Xəstə yanından
Ayağa tez qalxma.

* * *

Biri bibin,
Biri xalan,
Biri əmin,
Biri dayın...
Əzizim,
Övladınıza
Ad qoyarkən
Yaxşı adları
Xatırlayın.

* * *

Başqa birisi
Gücünə inanıb
Onlardan birisinə
Əl qaldırsa,
Savaşanları ayırsa,

Bütün bunlar
Unudulacaq.
Ancaq
Onu da bilin ki
Tanrının əli,
Həmişə ayıranın
Çiyinlərində
Duracaq.

* * *

Işıqlı dünyanı
Seyr etmək
Insanların naxışıdır.
Bir korun
Qolundan tutmaq isə,
Min nəfərə
Yol göstərməkdən
Yaxşıdır.

* * *

Bəzilərinin
Əqlini
Qurudur ayaz...
Əzizim,
Nəyə tüpürsən də,
Yediyin boşqaba
Tüpürmək olmaz!..

* * *

Ziyafət
Halaldır,
Artıq yox
Bir doyumluq.
Yoxsa
Baş alıb gedər
        soyuqluq.
Bəs niyə
Həddini aşır?
Bu günki
Toylarda
Lovğalıq,
Ağalıq?..

* * *

Qardaş qardaşa,
Qardaş ataya,
     anaya,
        bacıya,
                 hamıya,
Silah qaldırarsa,
Batırsa əlini qana.
Bilin ki,
Bu şeytan işidir...
Lənət şeytana!!!

* * *

Sizə kim
Sığınırsa,
Nə istəyirsə,
Yaxşılıq edin...
Və bilin:
Sizə ümid edən
Heç vaxt sizi
Unutmaz.
Gec də olsa,
Ona etdiyiniz
Yaxşılıq
Yerdə qalmaz.

* * *

Doğru söz
Almazdır.
Təəssüflər olsun ki,
Belə sözlər
Olduqca azdır...

* * *

Insan
Dünyasını dəyişdimi,
Gördüyü işlər bitir.
Gedişlər...
Gəlişlər bitir.
Saldığı körpülər,

Binalar,
Yollar,
Yazdığı kitablar,
Etdiyi əməllər qalır.
Yaratdığı,
Nəğmələr
Bir də ki
        nələr...
Nələr qalır...
Çiçəklənir
Böyütdüyü övlad,
Ruhunda kök salır
Sağlam bir murad.
Bəzəyir adını
Layiqli bir ad...

* * *

Atan
Dünyasını
Dəyişdimi
Nadanlara qoşulub
Olma nadan!
Qarış onun
Yaxşı dostlarına,
Xeyir taparsan...

* * *

Gördüyün işə
Qonşular

Yaxşıdır desə,
Deməli yaxşıdır.
Bu da şeytanın
Başının daşıdır...
Pisdir desələr,
Deməli pisdir.
Bütün
Gördüklərin də
Əbəsdir...

* * *

Başqalarının
Sağlığını
Istəsən,
Onda bil ki sən
Insanlığın
Ən yüksək
Zirvəsindəsən.

* * *

Yeyin,
    için,
        fitrə
            verin.
Tutub əl-ələ,
Ucalın göylərə.
Ucaldıqca
Adınızı unutmayın.
Dünya qarışsa da

Yolunuzdan
Çıxmayın.

* * *

Bir qüsur
Gizli qalarsa,
Bundan yalnız
Qüsur sahhibi
Zərər çəkər.
Yayılarsa,
Çoxları
Göz yaşı tökər...

* * *

Dəvətdən
Qaçmayın...
Bir gün,
Küçələrin birində,
Üz-üzə
Gəlməyiniz var.
Unutmayın ki
Doğulduğunuz kimi
Bir gün də
Ölməyiniz var...

* * *

Olma nadan.
Olma astar,

Həya,
birlik,
etibar
Olan yerdə
Çiçəklənər
düzlük.
Onun zirvəsindən
Boylanar əzizlik.

* * *

Əgər o insan
Ikiüzlüdürsə
Düz söz gəlməz
Dilinə.
Xəyanət edər
Əmanətə,
Dönük çıxar
Elinə.

* * *

Var-dövlət
Sahibisənsə,
Yadda saxla
Bil ki,
Tanrı verib
Onu sənə.
Qısqanma,
Paxıllıq etmə,
Heç kimə,
Heç kimə!..

* * *

Ey əzizim,
Ey mehriban qardaş,
Xəyanət
Olan gözlərdən,
Könüllərdən,
Uzaqlaş.
Mən də çox
Dağlar aşmışam.
Çox çırpıntılarla
Qucaqlaşmışam...

* * *

Nəsliniz
Kamildirsə,
Odur ucalığınız.
Odur dövlətiniz,
Odur varınız.
Iblisdirsə,
Bəhrə verməz barınız.

* * *

Əzizim,
Nadandan
Bir şey istəmə.
Onda,
Üzüqara dönərsən,
Üstümə.

* * *

Sənin üçün
Ən ağır olanı,
Mənliyini
Alçalmadan
Şərəfli işinlə
Aradan
Qaldırmağa çalış.
Onda
Sənin üçün,
Dönüb
Bahar olar qış.

* * *

Yaxşılıq etsə də,
Etməsə də,
Yaxşılıq et.
Pislik etsə də,
Yenə də,
Bu yolla get.

* * *

Əgər
Söz deyən adam,
Ora-bura baxırsa.
Çəkinirsə,
qorxursa.
Onun deyəcəyinə,

Inanma!
Deyilənləri
Həqiqət, doğruluq
Kimi sanma!..

* * *

Səni axtarmayanı
Sən ara.
Kimsə
Düşübsə dara,
Əlini uzadıb
Yaxşılıq et.
Əzizim,
Həmişə
Bu yolla get...

* * *

Hər ağlına
Gələni danışma.
Şərli işdən
          yapışma.
Xəbərçilikdən
Uzaq ol,
Söz gəzdirmə,
Insanları bezdirmə.

* * *

Yamaqlı
Paltar geymək,

Başqasının
Paltarını geyməkdən,
Yaxşıdır.
Əzizim,
Belə ol...
Bəlkə də bu
Insanlığın
        naxışıdır.

* * *

Həsəd aparma,
Özünü də əridər.
Etdiyin
Yaxşılıqları da,
Ildırımlar
        kül edər.

* * *

Səbir-
Təmiz qəlbin
Səsidir.
Uğurlu işin,
Ən möhkəm
Bünövrəsidir.

* * *

Igidlik vuruşda,
Qələbədə deyil.

Eşit,
Agah ol və bil!
Igid,
Mərd o adamdır ki,
Düşüncəyə
Dala bilir.
Qəzəblənərkən,
Özünü
Ələ ala bilir.

* * *

Xeyir iş üçün
Gedənə
Bələdçilik et,
Arxanca apar.
Onda bu
Xeyirli iş
Sənin də
Qarşına çıxar.

* * *

Həya edib
Pis işdən çəkinmək
Mərhəmətdir,
Kəramətdir.
Ən xeyirlisi
Odur ki,
Səbirli ol!
Bəli, budur
Ən doğru yol.

* * *

Bir-birinizə
Güzəştə
Gedin ki
Kin-küdurət
Yox olsun.
Aranızdakı,
Divarlar
ovulsun.

* * *

Heç kimdən,
Heç nə istəmə.
Ehtiyacın barədə,
Özün düşün,
Özün daşın.
Bu yolla atarsan
Ehtiyacın daşın.

* * *

Ey körpəsi olan!
Onun xatirinə,
Başına,
Uşaq kimi dolan.
Pərvanə ol
Işığın dövrəsində
Alış, yan.
Fəlsəfələr

Burada açılır
Bir anlıq
Analıq...

* * *

Adamları
Aldatma,
Heç zaman
Hiyləyə
Əl atma.
Öz qarşına
        çıxar.
Sənə də
Insanlıq
Çox-çox
Uzaqdan baxar.

* * *

Vətəndaş olmaq üçün,
Onun eşqiylə yaşa.
Elinin,
      obanın,
            yolunda
Çırpıl daşa.
Onun sakinləri
Sənin üçün
Əziz olmalıdır.
Yağışı da,
        qarı da,
              boranı da...

Bax əzizim,
Vətəndaşlıq budur!

* * *

Doyunca ye,
Amma qusma.
Onda sən,
Qusduğunu yeyən
Köpəyə bənzəyərsən.

* * *

Kiçiyin halına
Acımayan
Böyüyü
Saymaz.
Ona görə də
Onun baxışlarından
Heç kim
Yaxa qurtarmaz.

* * *

Birinin zövcəsi,
Yaxud elə kölgəsi
Haqqında danışan
Agah ol və bil,
Insan deyil!..

* * *

Ürəyimdə
Deyiləsi
Sözüm çoxdur...
Deməyin
Zülmə
Məruz qalanım
Yoxdur.
Onların
Qayğısını çəkin.
Onların ömrünə
Sevinc əkin,
        səadət əkin.
Axı niyə belə olur
Ulu Tanrı?..
Belələrinin
Evində
Yandır
Işıqlarını!!!

* * *

Yaxşılıqdan
Uzaq olsan,
Məsləhətdən
Uzaq olma.
Alilərdən
Geri qalma.
Onda pislik,
Ləpələnər,

Giləlonər.
Torpaqlar da,
Daş olar.
Fəsillər də,
Qış olar.

* * *

Xilaskarın
Gördüyü iş,
Qəlbinin nurudur.
Günəşidir,
        ayıdır,
Yaşamaq da
Elə budur!..

* * *

Saf adamlar,
Çürük olmaz!
Xeyirli adamlar,
Heç kimə
Yük olmaz!

* * *

Tanrı,
Böyük adamların
Kiçik səhvləri
Bağışlanılandırsa,
Bağışla!

Onları
Müdrük kəlamlarla
                aşıla!
Yol vermə,
Tarım çəkilə sim...
(Gərək böyüklər də,
Səhvlər etməsin...)

* * *

And içmək,
Aman istəmək,
Müqəssirlərə
Aiddir.
Əzizim, bəli
Bu da onlar üçün
Çıxış
Yollarından
Biridir...

* * *

Görüləsi işi,
Tapşır bilənə.
Yoxsa
Bu iş
Uzanacaq,
Ölənə.

* * *

Tanrının
Mərhəməti böyükdür.
Onu görməyənlər üçün,
Bir ağır yükdür.
Belələrini
Bəzən
Şeytanlar
Sonu görünməyən,
Yollardan çıxarır.
Qaranlıq
Bir dünyaya aparır...

* * *

Məsləhət etsən,
Ağıllılara et.
Sonra
Hara istəyirsən,
Çıxıb get.

* * *

Iş başına
Keçənin biri
Gədalıq etsə
Uzun sürməz.
Iş başına
Keçənin biri
Ədalıq etsə
Bu yol tükənməz.

* * *

Səbirli olmaq,
Gözəldir.
O hər şeydən
Əzəldir.
Unutma bunu
Odur həyatın
Qanunu.
Tövbə,
Gənclikdə edilsə,
Gözəldir.
Qadın
Həyalı olarsa,
Varlıda
Səxavət deyilən
Bir şey varsa
O da
Gözəldir...

* * *

Bu qarma-qarışıq
Yolları düz gedən,
Öz mənəviyyatına
Xidmət edən,
Saydığım insanlar
Ən yüksək,
Mükafat sahibləridir,
                    mükafat...
Əzizim,
Belədir həyat...

* * *

Əmr verən
Əmrindən
Şübhələnirsə,
Ayağının altında
Yer tərpənirsə,
Bu dünyada
Ən böyük
Bədbəxtlikdir.
Bu heç bir
Əndazəyə
Sığışmayan,
Ikilikdir.

* * *

Atalar övlada,
Həmişə örnəkdir.
Başqasını,
Yaxşı yola
Dəvət etmək,
Düz yolda
Olmaq deməkdir.

* * *

Zalıma
Yardım etmək,
Nə yaxşılıqdır
Nə də kömək.

* * *

Hərdən
Ürəyimdə sözlərim
Zirvəsinə çatır.
Hərdən düşünürəm:
Xalqını
Arxasınca aparıb
Yolundan azdıran
Düşməndən də
Artıqdır.

* * *

Məmurun
Hədiyyə alması
Xəcalətdir.
Rüşvət alması
Cinayətdir.

* * *

Dövlət başçısı
Xalqa cavabdehdir.
Ailə başçısı
Ailəsinə.
Bağban,
Bəslədiyi meyvələrin
Hər giləsinə.
Daha saymıram
Cavabdeh olanları...

Dayan, bir dayan!..
Bəs kimdir
Cavabdeh olmayan?..

* * *

Sən məni görcək
Ayaq saxladın.
Bir az kövrəldin,
Bir az da ağladın.
Saçımdan
Dırnağıma kimi,
Dırnağımdan
Saçıma kimi
Baxdın, baxdın...
Halımı soruşdun,
Halını soruşdum.
Rahatlıq
Tapdı ürəyim.
Rahatlıq
Tapdı ürəyin.
Bu böyük
Məhəbbətin,
Bu böyük
Səadətin
Qarşısında
Baş əyirəm!
Baş əyirəm!

* * *

Sizə böyüklük edən
Yaşlıdırsa,
Varlılarınız
Səxavətlidirsə,
Işləriniz
Məsləhətlidirsə,
Bilin ki
Yerin üstü
Əfşan dadır.
Sizə böyüklük edən
Pisdirsə,
Varlılarınız
Xəsisdirsə,
Yerin altı
Yaxşıdır.

* * *

Ulu Tanrı
Nə qədər
Uzaqdırsa,
Onun əli
Əlindədir.
Payladığı
Səadət,
Gözümüzün
Önündədir.

Sadəcə olaraq
Görmək gərəkdir,
Görmək.
Təəssüflər
Olsun ki,
Belələri
Doğulur tək-tək.

* * *

Ey insanlar,
Bir-birinizə
Qənim kəsilməyin,
Paxıllıq etməyin,
Biganəlik bəsləməyin.
Onsuz da hər kəsin,
Bir ömrü var...
Bunu anlayanlar,
Şərəflə yaşar,
Şərəflə yaşar...

* * *

Zalıma,
Yaxud məzluma
Rast gəlsən,
Hər ikisinə
Yardım etməyi
Unutma.
Zalımın
Zülm eləməsinə

Heç bir zaman
Biganə olma.
Bu ona qarşı
Ən böyük
Yardımdır?
Bax, əzizim,
Ədalət budur...

* * *

Xalq olan yerdə
Nəslini,
Soyunu fikirləşmə.
Başqa xəyala düşmə.
Xalq özü biləcək,
Kimsən,
Nəçisən.
Xalq özü yaşadacaq
Adını,
Soyadını.

* * *

Bizim bir qonşumuz var,
Quranı əzbər bilir.
Quran əlində gəlir,
Quran əlində gedir.
Balıncının altına,
Qoyub yatır Quranı.
Quranla nəfəs alır,
Buraxmır heç bir anı.

Anlayır,
        anlamayır?
Bilmirəm...
Öz-özümə deyirəm:
«Bax bu haqqın yoludur,
Bu insan,
Səadət simvoludur...»

* * *

Insanlar
Nə qədər çoxdur...
Birinin başqasından,
Üstünlüyü
Yoxdur?
Var, ancaq
Tanrıya münasibətdə
Çaşır.
Biri
Nə etdiyini bilmir,
Biri də
Həddini aşır.

* * *

Insanlara
Yovuşmayan,
Insanlara
Qarışmayan,
Insan deyil...
Nə yaşasa,

Bu dünyada
Yaşadığı
Gedər bada.

* * *

Bir məclisə
Düşən zaman,
Diqqət yetir.
Gördüklərini,
Gözünün önünə
gətir.
Məclisdə səndən
Üstünləri varsa,
Səni susuz
Gətirib apararsa,
Yaşa xəyallarınla.
Ürəyində yurd salmış,
Müqəddəs anlarınla.

* * *

Dil ət parçasıdır,
Ürəyindən
Nələri keçirərsən,
Onların ifaçısıdır.
Bundan istifadə edib,
Ona-buna lənət yağdırma.
Kəlmələrinlə
Insanların
Qəlbini qırma.

Qarşına çıxar
Bəd əməllərin,
Heç nəyə çatmaz əllərin.
Dil əyri deyil,
Tikanlı deyil,
O, qəlbin əsiridir,
Ürəyin dustağıdır.
Şəkərdir, şərbətdir,
Nə edəsən?
Kəsəsən?..
Nə fayda,
Onun ki, kökü,
Ürəkdədir.
Fərəhli söz
Məni
Göylərdə gəzdirir.
Acı söz, ağır söz,
Qəlbimi didir.

* * *

Qədir bilən kəs
Heç kimi qınamaz.
Dosta dost deyibsə
Sınamaz.
Lənətdən,
        böhtandan
Yan keçər.
Yandırsan onu,
Bir qurtum su içər.
Etdiyi

Yaxşılıq üçün də,
Boşboğazlıq etməz.
O yaxşı bilir ki,
Yaxşılıq itməz.

* * *

Mənəvi
Sağlam insanlar
Bir-birinə
Bərkidilmiş
Divara bənzər.
Başqalarını da
Sabaha səslər.
Gəl, biz də
Belə olaq,
Çünki bizi də
Gözləyir
Neçə yandırılmamış
ocaq...

* * *

Onun ürəyi genişdir,
Əlləri açıqdır,
Səbirlidir.
Odur e-e-e o...
Üfüqlərə doğru gedir.
Həmişə də
Onun qarşısına çıxır
Səadət də,

Sədaqət də,
Məhəbbət də!

* * *

Insanlığın,
Şərtləri çoxdur,
Bunların,
Ən vacibi inamdır,
            salamdır.
Insanlar
Inamlı olun,
Salamlı olun.

* * *

Xasiyyətlər
Cürbəcür olur.
Bəzisi
Ağlını
Başından alır.
Bəzisi
Ağıl verir sənə.
Bəzisi
Nə bilim, nə...
Ən gözəl xasiyyət,
Güzəştə getməkdir.
Bu öz-özünü
Dərk etməkdir.

* * *

Sidq ürəklə
Inananlar,
Əqidəsi yolunda
Yananlar,
Əxlaqının
Zirvəsində
Dayananlar,
Kiminsə
Ürəyinə
Toxunduğunu
Bağışlaya
          bilir.
Bütün
Günahlarını
Öz əməlləriylə
Beləcə silir.

* * *

Özü doğru,
Sözü doğru,
Nəfsi təmiz,
Əməli düz
Insanlar...
Bəli, beləlləri
Çox zaman
Istəklərinə
Çatırlar.

* * *

Məclis sona çatmamış,
Qalxma yerindən.
Əlini uzadıb
Başqasının
Tutma əlindən.
Nəyinsə naminə
Qucaqlama boynunu.
Birdəfəlik qurtar,
Yaltaqlıq oyununu.
Onda bilərsən ki,
Hədər yaşamamısan.
Onda bilərsən ki,
Heç kimin
Ayaq tozunu
Daşımamısan.

* * *

Əzizim,
Yaxşı-yaxşı bil
Din
Ağır yük deyil.
Din
Yolunu seçmək
Öyüddür,
Nəsihətdir,
Nemətdir.
Öyüd verin,
Nəsihət verin.

Bu sənə də,
Mənə də,
Ona da gərəkdir.
Onda bilərik ki
Yaşamaq nədir...

* * *

Pul sözdən,
Yüksək tutulursa,
Kişilik itir.
Bax bu da
Cəmiyyət üçün
Ən böyük
Fəlsəfədir...

* * *

Yaşamaq
Hədər yerə
Verilməyib.
Ən çətin
Anda sən
Gərək
Özünün yox
Həyatın
Qəddini əyib,
Varlığını
Göstərsən.
Həyatdan küsən
Özünü

Gözdən salan
Nüfuzunu itirən,
Gözlərinin
Içində
Qaratikan
Bitirən
Insanları
Görmək
Istəmirəm.
Belə bir ömrü
Sürmək
          istəmirəm.
Gərək hədər yerə
Söz söyləməyəsən.
Boş-boş işlərə
Qızıl illərini
Calaq edib,
Itirməyəsən.
Aclıq,
   səfalət,
      göz yaşı,
Gətirməyəsən.
Yardım et
Ehhtiyacı olanlara.
Dayaq ol
Qalanlara.
Yadda saxla
Ömür geri qayıtmır,
Qayalar kimi
          yatmır...
Heç kimi

Gözləmir ömür,
Qismətini yaşayır.
Bir də
Taleyin
Ona bəxş
Etdiyi yükü
daşayır...

* * *

Özünə gəl,
Özünü itirmə.
Dərs verənlər
Çoxdur...
Çarəsiz yol
Yoxdur.
Amma özün axtar,
Axtardığını
Tapana kimi.
Kinli olma,
Unut kini.
Əgər axtardığını
Sənə versələr
Qədrini
Bilməyəcəksən.
Nə bilim, bəlkə də
Itirəcəksən.
Özün düşünüb
Özün tap
Axtardığını.
Özün yandıracaqsan
Çırağını.

* * *

Demirəm sən
Peyğəmbər ol!
Ola da bilməzsən!!!
Amma
Xeyirxah
Olmağı da,
Unutma.
Bu sənin
Adın olacaq.
Bu səndən
Xatirə qalacaq.

* * *

Insanlar
Yatsa da,
Qəlbinin gözləri
Qalır açıq.
Dözümlü
Ürək də
Döyünür tıq... tıq...
Görür,
Götürür,
Çəkir,
Çəkilir...
Lakin bütün
Bunları,
Beynimizə yükləmir.
Ürəyimiz öz dünyasından

Baxır...
Dünya,
Onsuz da
Onun yükü
Ağırdır,
Çox ağır.

* * *

Hər insanın
Özünün
Andı var,
Amalı var.
Bir gün də,
Dünya ilə
Böyük
Qalmaqalı var.
Duaları unutmayın...
Duaları unudanı
Allah unudur...
Unutmayın,
Unutmayın insanlar
Sizə diləyim budur...

* * *

Ildırımlar,
Tanrının
Səsidir,
        qəzəbidir.
Tarazlıq

Pozulanda,
Bəlkə də
Insanlar
Ansın deyə,
Düzü-dünyanı
Didir...

* * *

Yaş ötür
Əzizim, anla.
Insan kimi danış
Insanla.
O zaman mələklər
Səninlə
Həmsöhbət olar.
Səni hifz edər
Ağır
Bəlalardan
Qoruyar,
Özü kimi səni də.

* * *

Tanrı hər şeyin,
Ən gözəli,
Ən alisidir.
Bu dünyanın,
Banisidir.
Həmişə də
O olacaq,

Özü kimi
Yaşayacaq
Yanacaq...

* * *

Danış,
Təmiz danış.
Məntiqli,
Səlis danış.
Qoy səni
Tez başa düşsünlər,
Tez anlasınlar.
Axı bir azdan,
Yola çıxacaq
qatar...

* * *

Səndən küssələr də,
Sən küsmə!
Salamlaşarkən,
Ayrılmağa tələsmə.
Yapışdığın əlləri
Bərk-bərk
Sıx əllərinlə.
Götür-qoy et
Əməllərinlə.

* * *

Əzizim,
Qəhqəhə çəkib,
Gülməzlər.
Belə bir gülüş,
Sellərə bənzər.
Gec-tez
Səni aparacaq
Dəryalara.
Həsrət qalacaq
Yar yara.
Gülümsəməyin
Yaxşıdır.
Bu ömrün
Naxışıdır.
Indi bildin ki,
Kimsən?
Kişnəmək olmaz,
Gülümsəməlisən!..

* * *

Nifrət edirəm
Ikiüzlülərə.
Nifrət edirəm
Məkrli gözlərə.
Xoşu gəlsə də
Gəlməsə də,
Nifrət edəcəm,
Birüzlü olana kimi.

Üzünün
Rəngdən-rəngə
Düşməsi,
Solana kimi.
Indi
Özün seç bu yolu.
Ya qəbul et
Üzünün rənglərini,
Ya da
Bir dost kimi
Dinlə məni.

* * *

Nə qədər
Sağlamsan
Qoru özünü.
Yerli-yerində de
Sözünü.
Nə qədər varlısan
Çəkmə özünü.
Açıq olsun əlin.
Qapısını döy
Ayaqsızların,
Əlsizlərin.
Hüzrü düşənə
Başsağlığı ver.
Ər oğlu
Ər olmalıdır ər.
Sonra
Ərlərin,

Ərənlərin,
Məzarını
Qazan tapılmaz.
Dediklərimi
Beyninə yaz!
Başqa cür
Evin bir küncündə,
Çürüyər cəsədin.
Danış, din...
Düşün
Bir az əzizim,
Nə qədər gec deyil.
Düşün... Düşün...

* * *

Insanlar çoxluğunda
Asqırma.
Asqırdınmı,
Qəbul et bu yazını.
Bağla ağzını
Bağla ki,
Bərkdən çıxmasın səsin,
Dolaşmasın nəfəsin.
Xoşuna gəlməzsən
Səni izləyən kəsin.
Demirəm boğul,
Demirəm ağla.
Sadəcə olaraq
Deyirəm:
«Ağzını bağla».

* * *

Qoru dişlərinin
Saflığını.
Qoru dünyanın
Ağlığını.
Ağdır qara yox
Dünyanın
Gözəlliklərindən
biri.
Dişlər ki, qapandı
Qapanır
Dünyanın sirri...

* * *

Şahidlik-
Bu müqəddəslikdir.
Içimdən gələn
Bir ülvi səsdir.
Əgər
O həqiqət naminə
Edilərsə,
Şahidliklə
Həqiqət ölərsə,
Bu vicdanın
Itirilməsidir.
Yalnız və yalnız
Şeytan səsidir.
Uzaq olun
Şeytanların

Əməlindən.
Uzaq olun
Şeytanların
Əlindən.

* * *

Varlılar da
Kasıblar da
Müxtəlif olur.
Dünya beləcə
Boşalır, dolur...
Nə qədər ki,
Biz varıq,
Hamı ilə
Danışmağı
Bacarmalıyıq.

* * *

Əslimi
Danmamışam mən.
Əsli olmayanları
Barmaqla
Göstərmişəm
Gündüz və gecə...
Yəqin məni də,
Barmaqla
Göstərəcəklər,
Görəsən necə?!.

* * *

Əziyyətlə
Yaşamışam,
Mərd yaşamışam.
Içimdə boğmuşam
Dərdimi.
Dərdi ün etməyə
Dəyməz
Gərək
Saxlaya biləsən,
Sirrini.

* * *

Məni duyanlar
Tanıyanlar tanıyır.
Etdiklərimi
Ulduz topası kimi
Sayanlar sayır...
Tanımayanlar da var,
Saymayanlar da var.
Əlimdən nə gəlir ki...
Nə gəlməlidir ki?..
Allah özü bilir ki...
Ki... Ki... və ki...

* * *

Əgər
Allahın
Bir bəndəsini
Doğru yola
Qaytarsan,
Deməli
Pirsən,
Ocaqsan.
Onda Allahın,
Ən əziz
Bəndəsi
Olacaqsan.

* * *

Yalnız
Ulu Tanrı,
Hamının
Qəlbini
Oxuya bilir.
Yalnız
Ulu Tanrı
Kimisə
Əzizləyir,
Kiminsə
Qəlbindən,
Dərdi,
Möhnəti silir.

* * *

Cadu etmək,
Cadu etdirmək,
Insan vərdişidir?
Yox! Yox!..
Bu şeytan əməlidir,
Şeytan işidir.
Yazını,
Tanrı yazır,
Tanrı da pozur.

* * *

Cənazənin
Ardınca,
Sakit getmək
Lazımdır.
Bu zəriflikdir.
Fəğan qoparmaq,
Ağlamaq,
Sıxılmaq,
Sadəcə olaraq
Zəiflikdir.

* * *

Başlıca döyüş,
Tanrı yolunda
Savaşdır.
Yadda saxla ki,

Ədalətli döyüşdə
Tanrının
Səsi vardır.

* * *

Eşidin!
Yadda saxlayın!
Bir iş sahibi
Olun barı!
Peşəyə
Yiyələnin ki
Sevinsin
Tanrı!

* * *

Malını
Satarkən,
Eyibini
Açmayan kəsi.
Bilin ki,
Gec-tez
Kəsəcək
Tanrının
Səsi.

* * *

Yararsız bir yeri
Əkib-becərən

Insan
Yaradandır,
Qurandır.
Tanrı da
Onun,
Bütün
Günahlarını
Unudandır.

* * *

Israfçını
Tanrı yoxsul edir.
Xasiyyəti
Həlim olanı,
Başqasına
Əl tutanı,
Ucaldır,
Yüksəldir.

* * *

Uşağını,
Qocasını,
Dolandırmaq üçün
Səfərə çıxan
Allah yolundadır.
Özünü göstərmək üçün
Öyünüb yola çıxan
Özü də bilmir ki,
Şeytan donundadır.

* * *

Atanın-ananın
Razılığı
Demə ki, yazıdır...
Bu Ulu Tanrının
Razılığıdır.
Soruşsan,
Atanın-ananın
Qəzəbi nədir?
Bu,
Yaradanın
Qəzəbdir.

* * *

Tanrıdan yapışın,
Yaxşı adamlara
Etibar edin.
Hara getsəniz,
Allahı
Başınızın
Üstündə görüb,
Gedin.
Canınız sağlam,
Işiniz
Avand olacaq,
Evinizdə həmişə
Gur-gur
Yanacaq ocaq.

* * *

Naz-nemət içində
Doğulanları
Laylalarla
Böyüyənləri,
Şəlalə kimi
Çağlayanları
Əzizlə.
Millətinə
Rişxəndlə
Baxanların
Sonunu izlə!
Və bir də
Tanrının
Əmrini gözlə!

* * *

Tanrı
Gözə görünməz.
Danışmaz,
Dinməz.
Dava-dalaşda,
Savaşda
Ədalətsiz olanı
Sevməz.

* * *

Tanrının
Sənə verdiyi
Bərəkəti
Özünə sərf et,
Düz yolla get...
Burada
Bir hikmət var:
Bəd əməllər
Işlətsən
Bərəkətin qaçar...

* * *

Bacardığın
Işdən yapış.
Nə qədər
Gücün var çalış...
Bəhrəsini görərsən.
Sən dərindən düşün.
Götür-qoy elə,
Dindir, dinlə,
Baş tutmasa,
Deməli...
Şeytan var arada.
Bax burada
Tut üzünü,
De sözünü...
Onda görəcəksən
Hansı qüvvə var

Tanrıda.
Uçub gedəcək
Buludlar,
Istəklərin də,
Bar gətirəcək, bar.

* * *

Başqalarının
Zülmünə
Dözməkdənsə,
Alçalmaqdansa,
Əzilməkdənsə,
Tanrıya sığın.
Odur
Sənin dayağın!..

* * *

Hikmət var
Tanrıda.
Günah edib
Anlasan
Bağışlayar
Bircə anda
Olmasa da asan,
Sən də,
Bağışlamağı
Bacarmalısan.

* * *

Allah
O adamı
Sevmir ki,
Düşmənçilik edir.
Kim onu duyursa
Onunla
Qarabaqara
Gedir.

* * *

Olarsa
Qəlbin daş.
Inan mənə,
Uzaq olarsan,
Tanrıdan
Qardaş.

* * *

Ulu tanrı
Xeyirli adamın
Sirrini açmaz.
Xeyirsiz adamın,
Fərqinə varmaz.

* * *

Özünü gözə
Soxma.
Yaxşı adam kimi
Göstərməyə çalışma.
Cəsarətli
Insanların
Işinə qarışma.
Onsuz da
Allah hamını
Yaxşı tanıyır
O insanları
Özünun bildiyi
Kimi sayır.

* * *

Birini
Cəzalandıranda
Unutma insanlığı.
Ağır işgəncələrə
Əl atma.
Bütün
Zalımlıqları oyatma.
Onda səni
Tanrı bağışlar,
Alqışlar...

* * *

Xalqa
Başçılıq edən
Özünü unudub
Danışır...
Danışır...
Sonra da
Tanrı belə
Buyurub: - deyərək
Alışır...
Alışır...

* * *

Diqqət yetir
Sözümə.
Bağlama
Qapılarını
Kasıbların üzünə.
Belə bir gün
Yoğrular,
Səninçin də
Doğrular.
Allahın da
Qapıları,
Sənin üzünə
Bağlanar...

* * *

Nə qədər işıq,
Nə qədər Günəş var,
Ağına bozuna baxmadan
Alışması ilə
Bütün dünyanı
Alqışlayar.
Siz də
Günahkarı
Bağışlayın.
Unutmayın
Böyük Tanrı da
Böyük günahları
Bağışlayar.

* * *

Başqalarının
Ehtiyacını
Görməsən,
Bilməsən,
Allah da
Sənin ehtiyacını,
Görməyəcək.
Çürüyəcək
Səpdiyin toxum,
Əkdiyin çiçək.
Əzizim,
Allahın
Çox sirləri var...
Çalış ki,
Görməyi bacar.

* * *

Ulu Tanrı
Sizlərin
Camalını,
Malını,
Görür və bilir...
O yalnız və yalnız
Tutduğunuz əməllərlə,
Sizləri
Qiymətləndirir.

* * *

Özün üçün
Nə diləsən,
Özün üçün
Nə eləsən,
Hamı üçün
Onu dilə.
Hamı üçün,
Onu elə.
Budur,
Düzlük,
Budur doğru.
Kimi sənə
Nöqsan tutsa,
Tutmayacaq,
Tanrı bunu.

* * *

Əzizim,
Öyrən və bil:
Ayrı-ayrı
Insanların
Sənə inamı
Hələ inam deyil.
Yəqin
Soruşacaqsan
Bunun üçün
Ən böyük dəlil nədir?
Xalqın
Sənin arxanca
Getməsidir.
Sənin yolunda
Insanların özünü
Şəhid etməsidir.
Bax budur inam
Duyasan gərək.
Bax budur,
Tanrı yolunda
Qurban getmək...

* * *

Əyilmə
Varlıdır deyə.
Əlindən öpmə,
Alçatma özünü.
«Odur pənahım!»
demə.

Ömrü
Sənə Allah verib,
Ruzunu da verəcək.
Bacar
Ağlın gözlərindən
Baxmağı
Sınaqlardan
Çıxmağı.
Bir gün gələcək sən
Özün dua edib,
Tanrına deyəcəksən:
«Şükür sənin dərgahına!
Şükür sənin dərgahına!»

* * *

Həmişə
Qulağıma
Tanrıdan səda gəlir.
Eşidəndə
Ruhum da
Vücudum da dincəlir.
Bəs siz?
Didişməyin!
Pis yolla getməyin!
Daş var,
Tərəzi var!
Sərhədləri gözləyin!
Cənnət-Cəhənnəm
Budur.
Bir də
Yadda saxlayın,

Qara torpaq
Hamını udur.

* * *

Uşaqlardan
Salam umma
Salamını ver keç.
Sonra
Gec olar, gec!
Salam
Allahın adıdır.
Onu
Uşaqlara sevdirmək
Həyatın mənasıdır.

* * *

Əzizim,
Yola çıxanın
Arxasınca
Uğur dilə.
Nemət üçün
Həmişə
Allahına şükür elə.
Qısa kəlmələrində,
Tanrı təşəkkürü var.
Tanrının da dənizi,
Dağı,
      daşı,
            aranı,
Arazı var, Kürü var...

* * *

Qəlbimiz
Zirehli qaya kimidir...
Nələri görmüşük,
Biz gör nələri...
Əzizim,
Yolumuz
Məzara kimidir,
Nə geriyə yol var,
Nə də irəli...

* * *

Birinin
Birini sevməsi,
Əzabdır, dərddir!
Qarşılıqlı sevməsi,
Səadətdir!

* * *

Insan qocalsa da,
Sevgiyə qarşı
Qəlbi gəncdir.
Bunu sən də
Yaxşı bilirsən,
Allah yaxşı biləndir...

* * *

O kəs ki,
Etibar edir,
Qazan onu.
Qazanmaq
Zənginlikdir!
Bu dəyanətlə
Uç əzizim, uç...
Belə olarsa,
Həyat sənin üçün
Ənginlikdir.

* * *

Mənim
Qəlbimin açarı
Səndədir.
Heç vaxt
Məndən soruşma
O nədir,
Bu nədir?

* * *

Arif kimi
Sevənlər də var?
Bəli var...
Yalnız onlardır
Allahı
Daim ananlar.

* * *

Əgər sevirsənsə,
Sınaqlara,
Uçqunlara,
Dözməlisən sən.
Onda
Sevginin
Nə olduğunu
Bilərsən.

* * *

Bir neçə qadınla
Evlənməkdənsə,
Biri yaxşıdır.
Kişini
Kişi kimi
Yalnız,
Biri yaşadır.

* * *

Sevməsən də,
Evləndiyin
Sənin adındır.
Insanın
Şərəfini,
Namusunu
Qoruyan
Qadındır.

* * *

Uşaq
Iki sevənin
Evinin amalıdır.
Birləşən qanı,
Birləşən canı,
Birləşən kamalıdır.

* * *

Insan
Nəyi
Niyyət etsə,
Nəyə
Çatmağa çalışsa...
Bu yolda
Gecə-gündüz
Alışsa,
Niyyətinə çatacaq.
Ancaq və ancaq,
Tanrının
Diləyi ilə,
Tanrının
Köməyi ilə.

* * *

Gözəl xasiyyət,
Onun
Atəşi,
Qarı əridər.

Əzizim,
Elə yaşa ki,
Ömrün
Getməsin hədər.

* * *

Insan
Sevdiyi ilə
Yaşamalıdır.
Ailənin
Sevincini,
Kədərini də,
Onunla
Birgə daşımalıdır.

* * *

Əzizim,
Vəfalı ol...
Əhdinə düşmən
Kəsilmə,
Vəfa yollarında
Üzülmə.
Daşdan corab gey,
Mərmərdən çarıq.
Günəşi
Çıraq bil, çıraq.
Qayaları
Yumruğun et...
Yalnız

Vəfalılarda
Olur qeyrət.
Əzizim,
Vəfalı ol.
Əriyə-əriyə,
Yana-yana,
Düşmən
Kəsilmə ona.

* * *

Sevənlər,
Yalnız
Sevənləri sevir.
Bu da məhəbbət
Dünyasının,
Haqqın
Tərəzidə çəkilmiş
Ən böyük
Həqiqətidir.

* * *

Yanıma gəldin,
Sevindirdin məni.
Heç belə
Görməmişdim səni.
Mən xəstəyə
Dərman oldun.
Qorxu
Məni tərk etdi

Uçub getdi...
Insan
Təklikdə aciz olur.
Əzizim,
Xəstə olanda
Daxili qovrulur,
Yollarda qalır gözü...
Yanıma gəldin,
Elə bil
Bütün dünyanı
Gətirdin mənimçün.
Demə, neyçün...
Dərmanlar
Sağaltmayan ürəyimi
Sən sağaltdın!
Axı mənim amanım,
Axı mənim dərmanım,
Səninlə bağlıdır.
Xatirələrim,
Məni
Uşaq kimi ağladır.
Yanıma gəldin,
getmə.
Əzizim, belə etmə...
Gedirsən
Özünlə apar məni də.
Yoxsa,
Ahım tutar səni də.
Bilirəm,
Onsuz da xəstəsən.
Mənsiz

Elə-belə
Yaşayırsan sən...

* * *

Gül,
Elə gül ki
Dişlərin
Inci kimi parlasın.
Ürəyimi
Ocağında qalasın.
Gözlərindən
Nur ələnsin,
Qucaq-qucaq,
Saçaq-saçaq.
Yadda saxla
Adın məni
Səadətə aparacaq...

* * *

Qulaqlarıma
Gəlir səsin.
Yaşadır məni
Nəfəsin.
Sənin kimi
Olmasam da,
Müqəddəs,
Kövrək,
Məğrur olmaq
Istəyirəm.

Sənin qədər yox,
Kiçik bir
Kəlmən boyda,
Qürur olmaq
Istəyirəm.
Tək özümü yox,
Hamını
Görmək istəyirəm
Beləcə...
Kainat ölüncə...

* * *

Dediklərimi
Ürəyinin
Başına yaz!
Həyat yoldaşının
Könlünü alan,
Savaş vaxtı
Deyilən yalan,
Günaha yazılmaz,
Inan!..

* * *

Günahdan keçməyi
Bacarmazsansa,
Günahından keçməzlər.
Dünyan mələr qalar,
mələr...

* * *

Anlaqsız
Vəziyyətdə olanın,
Həddi-büluğa
Çatmayanın,
Karın,
Korun,
Şikəstin
Olmur günahı.
Yandırır
Dünyanı
Onların ahı.

* * *

Birinin
Günahı varsa,
Gizli-gizli
Ver cəzasını,
Bağrını yarma.
Qışqırıb,
Tez-tez
Üzünə vurma.

* * *

Cəhənnəmi
Unutma.
Yalandan
Şahidlik etmə,

Günaha batma.
Etdinmi...
Cəhənnəmi
Unutma!..

* * *

Mümkün qədər
Günahlardan
Keçməyi bacarın,
Düşünün və anın
Bu, ən böyük
Müdriklikdir.
Günahını
Görməyən
Insanlar isə
Həmişə
Qəlbimi didir.

* * *

Sonu
Dərdlə
Qurtaran bir işi,
Qəlbinin
Səsinə qulaq as,
Görmə!
Xəyanətdən
Divar hörmə!

* * *

Mal-dövlətin
Qədrini bilməyən,
Onu
Eninə-uzununa
Səpələyən,
Özünü
Yoxsulluğun
Astanasında
Hiss etməlidir.
Bununla da
Ömür-gün
Bitməlidir.

* * *

Dərd əlindən
Könlümün başı
Cığır-cığırdır.
Mənəvi zülm
Maddi zülmdən
Çox-çox ağırdır.

* * *

Əzizim, məni
Yaxşı-yaxşı dinlə
O yerdə ki,
Dediklərini
Anlamayacaqlar,

Çığırıb,
Gətirmə dilinə.
Onda
Od tutub
Yanar bəşər.
Insanlıq
Didərgin düşər.

* * *

Qeybət etmə!
Pis adamın
Pisliyini danışma.
Pisin
Pisliyi ayağına
Yazılar.
Yaxşıların
Haqqını tapdama!
Etdiyin
Yaxşılıqlar
Pozular!

* * *

Unutmayın,
Qocalacaqdır hamı...
Nə vaxtsa
Qəm,
Kədər,
Sıxıntı,
Olacaqdır
Dörd yanı...

* * *

Tanrıdan
Diləsən ki,
Bağışla,
Böyük
Günahlarından da
Keçər o.
Əgər
Istəməsən
Səninlə
Dünyadan
Qoşa
Köçər o.

* * *

Xasiyyəti
Pis olan,
Rahatlıq tapmaz.
Insan kölgəsinə
Tay olar.
Belə olanlara,
Nə payız,
Nə bahar?!

* * *

Verdiyi vədə,
Içdiyi anda
Əməl etmirsə,

Düz yolla
Getmirsə,
Onun dərdi,
Əzabı
Başından aşacaq.
Tanrıdan
Uzaqlaşacaq...

* * *

Əzizim,
Heç kəslə
Çəkişmə.
Nə qədər
Çəkərsən,
O qədər
Çəkilərsən.

* * *

Özünə
Zülm edənin
Köməkçisi tapılmaz.
Ey insan,
Axı belə yaramaz!..

* * *

Düşünsək
Bir anlıq...
Görərik ki,
Nadanların,

Bütün eyiblərini
Açır nadanlıq...

* * *

Savadlı olmaq,
Ölçüyə sığmaz
Bir bəxtdir.
Savadsız olan kəs,
Əsl bədbəxtdir.

* * *

Savadsız adam,
Heç zaman
Yüksəlməz.
Üstəlik,
Özünü tanımaz,
Anlamaz,
Bilməz...

* * *

Tanrı
Hər dərdin,
Dərmanını verib,
Çoxdan da çox...
Qocalığın isə yox!

* * *

Bu dünyaya
Yaxşı-yaxşı baxın.

O, başdan-başa
Tamahdır.
Lay-lay,
Biçim-biçim.
Bunlardan biri də,
Qadındır...
Axı nə üçün?

* * *

Alilər,
Qadınları uca tutur.
Hər kəlməsində,
Incilər tapır.
Rəzillər,
Qadınları
Uçuruma aparır.
Əşya kimi
Satır.

* * *

Malını
Satanların
Qapısını
Döyməz yağış,
qar.
Bahalıq üçün
Məqam gözləyənlər
Həmişə uduzar...

* * *

Nifrət edirəm
Oğrulara.
Oğurluq
Sağalmayan yaradır.
Kimlər
Bilə-bilə
Oğurluq mal alırsa,
Oğru ilə yarıdır.

* * *

Ağıl
Kainatın açarıdır,
Amma
Gərək bu açardan
Istifadə
Edə biləsən,
Sonra da
Istəyincə
Güləsən.

* * *

Səbir
Qaranlıqla
Üzə-üzə gələn
Işıqdır.
Bacarsan,
Qaranlıq
Od tutub
Alışacaqdır.

* * *

Varın-dövlətin
Bol olsun deyə,
Zəhmət çək,
Qurşan əməyə.

* * *

Doğulan
Bir gün
Ölməlidir.
Əzraillə
Üz-üzə
Gəlməlidir.
Bax,
Burdaca
Xeyirlə-Şər,
Öz sözünü
        deməlidir.

* * *

Susmaq,
Bilikliyə
Yaraşar...
Biliksiz,
Çox danışar.

* * *

Əzizim,
Birini ver,
Saxla birini...
Qoy qəlbin,
Əlin
Açıq olsun,
Hər şeyin
Yerini bil,
Yerini.

* * *

Kişi
Nəyə qadirdir,
Soruşma.
Soruş
Əcdadını,
Kimliyini,
Nəçiliyini,
Yurdunu,
Yerini...
Onda
Biləcəksən
Onun
Dəyərini.

* * *

Əmdiyin
Süd təmizdirsə,
Təmizsən.
Verdiyin çörək
Ürəyinin səsidirsə,
Əzizsən.

* * *

Qonaq olduğun ev
Tikilsə də qızıldan.
Yadında saxla ki,
Əzəmətlidir
Sənin öz kiçik
Koman.

* * *

Çox
Danışılan yerdə,
Qarışır aləm.
Çalış
Elə burada
Ağzını bağla.
Dediklərimi
Yadda saxla.
Bir də... bir də...
Susmağın
Yerini bil,
Çalınmamış təbil.

* * *

Ürəyindən
Nələr keçir,
Allah bilir...
Bax O,
Və yalnız O,
Qüdrət sahibidir.

* * *

Allah
Həmişə
Sınağa çəkir,
Insanları
Bir-bir.
Gərək
Dostluq etsin
Səninlə
Şeytan yox,
Səbir,
Və bir də
Səbir...

* * *

Saydığınızı sayın...
Övladlarınız
Arasında,
Oğlanla qıza
Fərq qoymayın!..

* * *

Kiməsə həsəd
Aparmayın,
Lovğalanmayın,
Qisas hissi ilə
Alovlanmayın.
Səbir
Və bir də
Səbr eləyin
Hamıya
Dua diləyin.

* * *

Qonaqla
Səmimi ol,
Hörmət et.
Qaranlıq
Düşdümü,
Qonağın
Önündə get.

* * *

Icazə
Almayınca
Iki adamın
Arasında
Oturma.
Hamı oturan

Yerdə,
Ayaq üstə
Durma.

* * *

Atalar
Doğru deyib:
«Yüz ölçüb,
Bir biçin.»
Əzizlərim,
Yurd
Yerindən də
Əvvəl
Qonşunu seçin!

* * *

Yola
Düşməzdən əvvəl
Yol yoldaşını
Sına.
Bir də,
Gedəcəyin yolun
Azuqəsini unutma!..

* * *

Övladlarınızı
«Pis» «yaxşı» deyə
Saymayın.

Birini ucaldıb
Birini alçatmayın.
Belə olarsa,
Heç biri
Cəmiyyətə yaramaz.
Tanrı da
Bunu Sizə
Bağışlamaz.

* * *

Salam ver,
Haraya çat.
Hüzndən qalma,
Dilədiyinə,
Çatmaq üçün,
Hisslərini oyat.

* * *

Özünü
Başqalarından
Yüksək tutma
Tamahın
Əsiri olma.
Varlandıqca
Yoxsulları
Unutma.
Vicdanını
Yolun yarısında
atma.

* * *

Şirin olsa
Dilimiz,
Əzəmətli olar
Insanın tacı.
Diliniz acı olsa,
Yediyimiz də
Olar acı.

* * *

Hörmət sahibləri
Bağlıdır dilinə.
Qürur sahibləri,
Elinə.

* * *

Ikiüzlü olanın,
Ikidir dili də.
Ikidir əli də...
Ikiüzlü,
Ikidilli olma!
Düz işə
Əyrilik salma!

* * *

Borcunu
Ödəməyi unutma.

Başqasının
Hisslərini oyatma.
Dönük çıxma
Ilqara, əhdə.
Borcunu
Mümkün olarsa
Vaxtından
Tez ödə.
Inanmıram
Qəlbi təmiz,
Düz adam
Necə yatar?
Əzizim,
Unutma ki,
Onun da
Verdiyi borca
Ehtiyacı var...

* * *

Kimə
Yaxşılıq etsən,
Kimin
Ehtiyacına
Şərik çıxsan,
Tanrı da
Səninlədir.
Dünya malını
Haram
Yolla yığsan,
Gec-tez

Burnundan
Gələsidir.

* * *

Borc
Aldığın adamı
Üstünə qaldırma.
Hər şeyə
Əl atar.
Ya borcu
Əvvəldən alma,
Ya da
Vaxtında qaytar.

* * *

Şübhəyə düşənlər
Məsləhətləşməlidirlər.
Burada
Bir həqiqət var:
Əgər çıxarılan
Qərar düzgün olarsa,
Onlar lovğalanarlar.
Düzgün olmazsa,
Özlərindən çıxarlar.
Bu, pis insanların,
Nadanlığıdır.
Ağıl üçün,
Hazırlanmış
Ağıdır...

* * *

Buyruq verən
Bir insan
Öz xeyrini güdürsə,
Ancaq və ancaq,
Gec-tez
Bu yolda sınacaq.

* * *

Əlin
Təmizdirsə,
Işin də
Təmiz olacaq.
Dilin
Təmizdirsə,
Dediyin də
Təmiz olacaq.

* * *

Borcu
Vaxtında
Qaytarmayan
Adama,
Bir dəfə
Inanmısansa,
Bir daha
Inanma.

* * *

Sən,
Borcunu
Vaxtından da
Tez ödəsən.
Varın-dövlətin
Daha da
Bol olar.
Yediyin-içdiyin
Bal olar.

* * *

Dünyada
Xeyir
Şərdən çoxdur.
Dünyanı
Yaşadan da odur.
Amma
Şəri tez görürlər,
Çəkilmir yaddan,
Ötüşsə də illər.

* * *

Desələr də
Xeyir-Şərin
Qardaşıdır,
Elə-belə yanaşma.
Sözlərin

Qarasına-ağına
Dolaşma.
Içindəki
Dolaş-dolaş
Olmuş hissləri
Barışdır.
Pisini, yaxşını
Yaxşı-yaxşı
Araşdır...

* * *

Bir olmalıdır
Gedəcəyin yol.
Zibillikdə yetişən
Göyərti kimi,
Pis mühitdə böyüyən,
Insanlardan uzaq ol!

* * *

Insan
Qulağının
Qulu olmamalıdır.
Hər şeyi
Ölçüb-biçməyi,
Pisi yaxşıdan,
Xeyiri Şərdən
Seçməyi,
Bacarmalıdır.

* * *

Valideyn
Eşit və anla!
Övladla övladın
Arasına girib
Onları
Bir-birindən ayırma!
Məndən soruşsanız
Bu nədir?
Deyərəm,
Namərdlikdir!

* * *

Gələn
Yaramaz qonaq
Sənə dərddir.
Lakin onu
Qapıya qədər
Yola salmaq
Ən vacib şərtdir.

* * *

Xalq arasında
Nüfuzu olan
Bir kəs varsa,
Xasiyyəti,
Hamıya xoş olarsa...
Onun əksinə

Hər kim
Addım atarsa,
Deyildir sirr,
O, xəyanət
Sahibdir!

* * *

Şeytan
Heç vaxt
Düz yola gəlməz.
Nahaqdan
Düşmənçiliyə
Girişən bir kəs,
Şeytan kimi
Düzəlməz.

* * *

Sənə baxmayan
Gözlərə baxmaq,
O qəribə gözləri
Yolundan çıxarmaq,
Günahlı
Qərar vermək
Yalandan gülmək,
Soruşsaz nədir?
Deyərəm-
ən böyük
Xainlikdir.

* * *

Xeyr və Şər,
Həmişə
Ürəyimdə döyüşər.
Mübarizədə
Ürəyimdən
Xeyirin
Qələbəsi keçər.
Bu durumdan
Ən uzaq,
Ən cırtdan,
Ulduzlar
Belə su içir.
Yoxsa kainat,
Məhv olub gedərki
Bircə yolluq sönərki.
And içirəm adıma...
Həqiqət,
Sədaqət,
Məhəbbət,
Yanıb kül olardı
O zaman
Yalanların oduna.
Inan
Yazdıqlarıma,
Düşün yazdıqlarımı
Düşün pozduqlarını.
Atacağınız
Hər addımda,
Ehtiyatlı olun.

Insanlar
Mənim
Sözlərimlə
Qalın,
Sözlərimlə qalın...

* * *

Məndən
Yaxşı bilirsiniz,
Bu dünyanın işini.
Çıxartmaq istəyirəm,
Şeytanların dişini.
Ayaq tutsalar onlar,
Hamınızı yeyəcək.
Sonra da haray çəkib,
Dəli-dəli güləcək.
Yox, yox,
Onlar sizləri
Çıxara bilməyəcək
Getdiyiniz yollardan.
Onların
Yağlı dili,
Yalandır,
Yağlı yalan.

* * *

Kölgə kimi sürünmək,
Kölgələrə yaraşır.
Hanı bəs mərdanəlik?
Ürəyim dəlik-dəlik...

Beləsini görəndə,
Varlığım göynəyir,
Bir çağrışda
Bir ündə.
Şeytanlar
Dırmanır ağaclara
Sürünə-sürünə,
Bürünə-bürünə.
Sonra da...
Siz isə
Sürünməkdən
Uzaq olun
Insanlar.
Uzaq olsun sizdən qəm
Uca bir dağ olun
Insanlar!
Uca, möhtəşəm!..

* * *

Kim Səni qalmaqal
Yaratmağa
Səsləsə...
Kim sənə
Kin-küdurət
Bəsləsə...
Bil ki,
O şeytan işidir.
O ki var,
Sənin eşidə
Bilmədiklərini
Eşidir.

* * *

Istər xeyirə,
Istər şərə gedin.
Amma nə etdiyinizi
Yaxşı-yaxşı bilin.

* * *

Biliksizlik
Cəhalətdir.
Pisi, yaxşını
Anlamamaq
Onlar üçün
Xəcalətdir.

* * *

Hər qələbənin
Bünövrəsi
Səbirdir.
Kafirin
Sözünə
Inanan,
        özü,
Kafirdir.

* * *

Inan
Bizi yaradanın

Mərhəmətinə.
Ruzi qapısı
Həmişə açıqdır.
Həyatda
Başqa nə qalır,
Qalır
Sənin qeyrətinə.

* * *

Demirəm ki,
Kinli ol
Yox...
Işində
Təmiz ol,
Sözündə
Təmkinli ol.
O zaman
Yadda qalan
Anların
Bol olacaq,
Bol...
Ən qiymətli pulu
Ailə üçün
Xərcləmək gərəkdir.
Bir də yadda saxla ki,
Ən qiymətli azuqə
Su,
Duz
Və çörəkdir.

* * *

Ruzini
Halal yolla
Qazananlar
Həmişə yeyirlər.
«Özgəsinə
Quyu qazan
Özü düşər!» -
Deyiblər.
Eşitməmisənsə
Deyirəm,
Bir də eşit.
Ruzi dalınca
Halallıqla get.

* * *

Etibarlı
Adamın
Həmişə
Ruzi çıxar
Qarşısına...
Xəyanətkarın isə,
Həmişə
Başı
Qarışar
Yasına.

* * *

Qardaş,
Halal yolla get!
Xeyrini,
Şərini
Saf-çürük et.
Dediklərimi
Yadda
Saxla
Bir-bir.
Xeyirli iş,
Həmişə
Sərfəlidir.

* * *

Tanrı
Istənilən qədər
Ruzi verib sizə,
Bu nemətləri
Məhv etməyin.
Əyri yolla
Getməyin.
Qoruyun nemətinizi,
Qoruyun özünüzü,
Qoruyun düzünüzü...

* * *

Tanrı kimə qarşı
Qəzəblənsə,
Nə qədər
Üzü dönsə,
Ruzisini
Kəsməz onun.
Bəs siz?
Bir-birinizi
Aldatmayın.
Dünyada
Yaxşı nə var,
Yalnız
Onları sayın.

* * *

Kim
Öz qazancı ilə
Dolansa
Kim təmiz əməyinin
Yolunda yansa,
Kim yaşamaq üçün
Dağlara çıxıb
Kol-kos da qırsa
Ailəsini qorusa.
Gördüyü bu iş
Düzdür,

Çətindir,
Ancaq
Belə insanlar
Mərddir,
Mətindir.

* * *

Tanrı
Bol-bol
Ruzi versə də,
Ailəsini
Dolandırmağı
Bacarmayan
Namərddir.
Insanlar,
Bu fikir
Gecə-gündüz
Ürəyimi
Didir.

* * *

Biganəlik
Üzündən
Biliklərə çatmayan,
Küsməlidir
Özündən.
Qorxmamalıdır,

Əyri, doğru
Sözündən.
Savadı ilə
Öyünən,
Bir nadanın
Önündə,
Itirməməlidir
Vüqarı.
Unutmamalıdır ki,
Nadanı
Bağışlamayacaq
Tanrı.

* * *

Ilahi bir
Diləyim var.
Onu desəm,
Deyib ölsəm,
Məzarım da
Dinclik tapar.
Varlığım da
Gor evində,
Rahat yatar.
Ey ilahi,
Ey Yaradan,
Insanlara
Çatdırın ki,
Öyrənsinlər,

Öyrətsinlər.
Pisi, şəri,
Böhtanı yox,
Yaxşı nə var
Öyrətsinlər.
Yaddaşlara
Yaxşı kimi
Düzülsünlər.
Saf ömür edib
Mərd yaşayıb
Mərd köçsünlər.

***2003***

## KIŞ NƏĞMƏLƏRI

* * *

Şəkildə bir kənd var adı qəribə,
Kiş kəndi... Bu adı kim verib ona?
Ötüşüb üstündən neçə qərinə,
Nə qədər bürünüb çənə, dumana.

Deyirəm, bəlkə də bu kənddən doğub,
Şirin lətifələr, tünd zarafatlar.
Bu kəndin xəmri də daşdan yoğrulub,
Burda qış qış olur, bahar da bahar.

Danışan arısı, gülən gülü var,
Fikirlərə dalmış qayalarıyla.
Meşədə ayısı, göydə Ayı var,
Kiş çayı tanmır laylalarıyla.

Insana bəs edər bir gün də burda,
Insana bəs edər dağlar nəğməsi.
Buradan başlayır bahar da, qış da,
Buradan başlayır Şəkinin səsi.

* * *

Əlçatmaz dağları ikiyə bölən,
Kiş çayı səadət lentinə bənzər.
Gecə də, gündüz də danışan, gülən,
Yaşıl meşələri gəlin tək bəzər.

Bir əli zirvədə, biri düzəndə,
Dünyanı körpə tək sıxıb qoynuna.
Tarixlər yaşayır söhbət, sözündə,
Çevirər daşları o yan, bu yana.

Sıra qayaları mirvari kimi,
Düzüb küləklərə, asar boynundan.
Kiş çayı kamanm göynəyən simi,
Yaşayır səsində Kiş boyda cahan.

* * *

Bu yerləri eşitmişdim,
Gəldim, qəlbə köz ələndi.
Demişdilər... Gəlməmişdim,
Gəldim, dünyam təzələndi.

Tamaşadır başdan-başa,
Çayda sular daşa-daşa...
Dedilər ki, burda yaşa,
Söylədim ki, «düzələndi».

Qartal olub qayaları,
Zirvələrdən baxır qarı,
Sancmaz səni arıları,
Arılar da söz biləndi.

Nələr gördüm, qardaş, burda,
Qoymaz səni bir an darda,
Bu yerlərdə insanlar da,
Dərd böləndi, qəm böləndi.

* * *

Kiş kəndi dağların astanasıdır,
Daşlı cığırıyla, daşlı yoluyla.
Kiş kəndi dağların daş dünyasıdır,
Gülü, çiçəyilə, yaşıl koluyla.

Kiş kəndi yaxındı ulduza, Aya,
Dağları, göyləri alıb çiyninə.
Sanırsan üstünə aşacaq qaya,
Dolur, bir yandan da boşalır sinə.

Kiş kəndi dağlarda döyünən ürək,
Kiş kəndi dağlarm danışan dili.
Açasan qəlbini dağlara gərək,
Boylana saçmdan yamyaşıl əli.

Danışdı qocalar hey dönə-dönə,
Kişini bu kənddə kişi görmüşük.
Yaşını qayalar söylədi mənə,
Dedilər: göz açıb Kişi görmüşük.

* * *

Uzaq zirvələrdən bir çay sellənir,
Kiş çayı Kiş kəndin yaraşığıdır.
Çay boyu ağ daşlar dinir, dillənir,
Ağ daşlar bu çayın ağ işığıdır.

Dodağı nəğməli, laylalı bu çay,
Gecə də, gündüz də yuxuya getmir.

Qoynunda yuyunur, gözəlləşir Ay,
Bu qəribə səhnə gözümdən itmir.

Kiş kəndi sahilə sığınıb sanki,
Kənd gözəl, çay qədim, insanlar əziz.
Dağları dərəylə bölübdür iki,
Sağ meşə, sol meşə, sular tər-təmiz.

Sakinlər özü də bu çaya bənzər,
Baxışlar dumduru, sinələr sözlü.
Bu yerlər qədim bir nağıla bənzər,
Dünyası alovlu, ocağı közlü.

Ona əl uzatdım, əl verdi mənə,
Hər qonaq gəlişi şirinir ona.
Kiş çayı, Kiş kəndi köçdü kölnümə,
Bir çay duyğuları yetmədi sona.

* * *

Bu kəndin qəribə təbiəti var,
Burda soyuducu almağa dəyməz.
Ay Rakif, gəl məni şəhərdən apar,
Yay düşdü, şəhərdə qalmağa dəyməz.

Bu kənd, bu dağlar da gözəldi bəlkə,
Yaylağı yamyaşıl, hörükləri çay,
Mənim də ocağım közərdi bəlkə,
Pay göndər, əzizim, ocağından pay.

Deyirəm, nə yaxşı varsan həyatda,
Deyirəm, nə yaxşı Kiş kəndi durur.
Sənsiz unudardı dadın həyat da,
Mənim deyəcəyim, ay Rakif, budur.

Deyirəm, qoy səni nəzər kəsməsin,
Məni bu dünyanın yumruğu əzər.
Qara yel üstündən, Rakif, əsməsin,
Ağrıya ürəyim, de necə dözər?

Unuda bilmirəm dağı, dərəni,
Unuda bilmirəm baxışlarmı.
Qəlbinmi dərindi, çaymı dərindi?
Unuda bilmirəm alqışlarını.

* * *

Dağ ətrini qatıb südə,
Süd bişirdi Kiş gözəli.
Eh... Halallıq edə-edə,
Süd bişirdi Kiş gözəli.

Qara kömür alovlandı,
Ağrı-acı odda yandı.
Söz qəlbimdə havalandı...
Süd bişirdi Kiş gözəli.

Ləpələndi yaşıl meşə,
Səs yayıldı sanki Kişə.
Qızıl közü eşə-eşə,
Süd bişirdi Kiş gözəli.

O, adımı südlə yazdı,
Avqust ayı sandım yazdı.
Nə söyləsən, qardaş, azdı,
Süd bişirdi Kiş gözəli.

Burda duydum daş yuxusun,
Süd qoxusun, söz qoxusun.
Ürəyində ovsun-ovsun,
Süd bişirdi Kiş gözəli.

* * *

Ya nağıldır, ya da giley,
Kiş çayının çay nəğməsi.
Qulağımda səslənir hey,
Kiş çayının çay nəğməsi.

Bülbüllərin naləsidir?
Yox, dağların şən səsidir.
Təbiətin töhvəsidir,
Kiş çayının çay nəğməsi.

Duymaq üçün, dostum, tələs..
Nə ləngiməz, nə də bitməz.
Insanlardan ummaz əvəz,
Kiş çayının çay nəğməsi.

Yuxuların uçsa sənin,
Yuxu verər dərin-dərin.
Vərəqlənər sərin-sərin,
Kiş çayının çay nəğməsi.

Bir dünyalıq «cəngi»dir o,
Qayaların zəngidir o.
Günəş odun səngidir o,
Kiş çayının çay nəğməsi.

* * *

Mən burada bir gül gördüm,
Çırtma vursan, küsər səndən.
Mən burada bir gül gördüm,
Yarpaqları tel-tel, dən-dən...

Mən burada bir gül gördüm,
San insan tək danışırdı.
Yaddaşımda dünya hördüm...
Gül tonqal tək alışırdı.

Gözlərimdə ötüşürdü,
Möcüzələr kövrək-kövrək.
Yarpaqlar da öpüşürdü,
Səslənirdi xəfif külək.

Təbiətdə sehr varmış,
Daşdan çıxan bulaq kimi.
Gül küsərmiş, ağlayarmış,
Süd istəyən uşaq kimi.

Çiçəklər verib səs-səsə,
Rəqs edirdi göz önündə.
Bax bu evə kimlər gəlsə,
Qoşalaşar gül telində.

* * *

Iynə atsan düşməz yerə,
Kiş kəndinin meşəsində.
Heyvanları çəkər nərə,
Kiş kəndinin meşəsində.

Burda Günəş dəyməz gözə,
Gül ələnər dağa, düzə.
Qismət oldu hər şey bizə,
Kiş kəndinin meşəsində.

Düşünməsə, azar insan,
Bir əfsanə yazar insan,
Sevgini də yozar insan,
Kiş kəndinin meşəsində.

Bulaqlar da pıçıldaşar,
Sel-sular da pıçıldaşar,
Yarpaqlar da pıçıldaşar,
Kiş kəndinin meşəsində.

Pıçıldaşar sevişənlər,
Hər bir ağac nər oğlu nər.
Qırov düşər səhər-səhər,
Kiş kəndinin meşəsində.

***2008, Şəki, Kiş kəndi.***

# ÇAYLAR GERI DÖNMÜR

## I

Çaylar geri dönmür.
Saralmış yarpaqlar da
Uzaqdır, nəğmədən.
Saçlar da
Ağarır dən-dən,
Qarası görünmür.
Qurumuş çiçəklər də dərilmir
Saralmış həsrət kimi.
Dağların qapılarını
Döysə də bahar,
Ürəklərdə qar soyuğu var.
Ömrümüz də çaylar kimidir,
Axıb harasa tökülür.
Sonra da üstündə
Səssiz bir daş bitir
          bəzəyi olur mamır.
Çaylar geri dönmür,
Ömür də!
Axır, axır, axır...
Saralmış sevgimiz də
Geri qayıtmır.
Sapsarı saralır
          ürəklərin sarı simi.
Nə qədər sağıq,
          xatirələr yatmır
Gecə də, gündüz də,
Qapısının döyülməsini

Gözləyənlər kimi.
Göynəyir ürək
Və əllərimi isitdiyim ocaq!..
Təəssüf...
Bir zaman gələcək
Nə qapılar döyüləcək,
Nə qapılar açılacaq...
Olacaq
Sonsuz bir sənsizlik,
                    və nəhayətsizlik...

**II**

Çaylar...
Atır özünü zirvələrdən sonsuzluğa
          geri qayıtmır.

Çaylar...
Yüyrək çaylar...
                    yatmır ki, yatmır.
Yaşayır qayaların
                         qulaqlarında,
Dünyanı başına
                    götürmüş səsi.
Yamyaşıl nəfəsi.
Yaşadır məni də,
             dağları da,
                         ağacları da.
Tüstüsü göylərə dirək olmuş
                         ocaqları da.

Çaylar ümmanlara tələsir,
ümmanlara qoşulur,
Insanlar da
Gələcəyə can atır
Sabaha yol açır
Ümidə boylanır
Uzaqlara yol alır...
Bir qəhər boğur məni burda:
Çaylar sulara qovuşacaq
Əlvida deyib zirvələrdəki qara,
qayalardakı yosuna,
Mən isə ruhlar dünyasına.
Nə çaylar geri dönəcək,
Nə mən,
Hələ ki, götürüb ürəyimi
Gedirəm...
Ayaqlarım qabar-qabar,
Alır məni qucağına
yollar.
Gedirəm...
Gedəsiyəm qismətim qədər.
Gedirəm...
gedəcəm nə qədər ki,
üzümə örtülməyib səhər.
Nə mən geri dönəcəm,
nə çaylar.
Eh sənə nə var,
bahar, ay bahar ?
Yenə də qayıdacaq
Günəş,
Ay,

Sənin ardınca dönəcək
fəsillər
Nə mən geri dönəcəm,
nə çaylar
Nə də,
bizim
ömrümüzü sayan
illər...

### III

Zirvələrdən başlayır
çayların yolu...
Sonsuzluqdan
Sonsuzluğa gedir insanlar,
Qarış-qarış,
addım-addım...
Ümmanlara, axır çaylar
şırıl-şırıl
gizli-gizli
açıq-aşkar.
Görünmür yolların
sonu.
Sığınıb dərələrin dərinliyinə
axır çaylar
üzü enişə.
Sağ dərə,
sol meşə.
Söykənib torpağa
Boylanır Günəşə.

Insanlar da axır,
          çaylar da.
Biri zirvədən,
            biri zirvəyə
Sahillərini döyə-döyə.
Çox yaxşı duyuram
             bu hikməti mən.
Çaylar da,
          mən də

Yaşayırıq payımızı,
Yapışıb
Gözə görünməz Tanrının
Əlindən,
         ətəyindən...

***1998***

## QARLI XATIRƏLƏR

* * *

1953-cü il...
Işıqdan,
Telefondan uzaq,
Döşəməsi daş olan,
Şəhər yolundan uzaq,
Bir kənddə yaşayırdım.
(Neyləsin yazıq uşaq...)
Kitab, dəftər, qələm az,
Küləkli hava ayaz.
Buz eynəkli yol sızaq,
Bu salxımlı kol sızaq.
Ağaclar qar papaqlı,
Ürək bahar soraqlı.
Hanı o kənd məktəbi,
Səhər gözün açmamış...
Getməyə nə vardı ki,
Qayıtmaq çətin idi.
Evlərinə qayıdan
Balaca məktəblilər
Qoçaq və mətin idi.
Uşaq idim, boyu qısa,
Dərslər başa çatanda
Dizə çıxardı palçıq.
Rezin «qaloş»,əl yalın
Baş açıq...
Məni alıb çiyninə
Anam

Dönərdi evmizə.
Ağrıya dözə-dözə.
Keçib indi o zaman,
Keçib o aylar, illər
Yorub məni bu şəhər.
Uşaq olmaq istəyirəm
Kəndimizin palçığında
Itirdiyim,
Qara rezin «qaloş»umu
Gəzib tapmaq istəyirəm.
Dönmək,
Dönmək istəyirəm
Dağlar sizə
Kəndimizə!
Kəndimizə!

* * *

Anam
Özü toxuduğu
Yun palazdan birini
          satmışdı.
Mənə tüfəng almışdı.
Götürüb tüfənglərimizi
Dostum Rəhimlə bir gün
Çıxdıq ova.
Yaman soyuq idi hava.
Ağaclar da yatmışdı,
Dağlar,
      dərələr,
            qayalar,

Kirpiyinə kimi
Qara batmışdı.
Bir dovşan izinə
Düşdük.
Iz getdi,
Biz getdik.
Biz getdik,
Iz getdi.
Dərə getdik,
Düz getdik.
Nə dovşanı tapdıq,
Nə dovşanları.
Eşib qarı,
Çıxardıq yovşanları,
Doyunca iylədik.
Yovşan ətri hara,
Dovşan əti hara.

Deyirlər çoxalıb indi,
Sürü olub dovşanlar.
Dizə çıxsa da qar
Tapılmır ovlayan.
Tapılmır tüfəng,
Dünyasını dəyişib
Ovçular.
Çəkir məni o dağlar,
Udur məni dərələr
Çəkir məni güllələr.

Axtarmaq istəyirəm
O dovşanın izini.

Tapmaq istəyirəm mən,
Məhəbbətim kimi saf
Soyuq dağ dənizini
Göyün ağ dənizini..

Ürküdüb yamacların
Qorxusunu,
Ya dovşanı tapacam,
Ya da çevirib qarı,
Udacam
Həsrətin çəkdiyim
Yovşanın qoxusunu.

* * *

Şamaxı...
Ilk tələbə ömürümün
Birinci tələbə qışı.
Hər yerə qar kimi
Yağıb ehtiyac
Qram-qram satılır çörək,
Tələbələr
Yarı tox,
Yarı ac...
Qarşıda təzə il,
Təzə gün.
Kimi «sus» deyir,
Kimi də deyir «gül»...
Yandırır ürəyimi
Müəllimin tələbi:
«Sən, sovqat gətirməlisən».

Döyə-döyə gözümü,
Itirərək özümü,
Gedirəm...
Danışır ayağımın altında qar.
Yorur məni yollar.
Kəndimizdən şəhərə
Onun dediklərini
Mütləq gətirməliyəm,
Evmizin şah xörəyi
Olsa da ərişdə, umac...
Qışqırsa da ehtiyac,
«Təqaüd alım» deyə
Müəllim deyənləri
Elədim ki, elədim.
Qardaş, həyat belədi...
Deyirlər indi yoxdu
Bircə baş daşı qalıb,
Mənimsə yaddaşımda
Kirpikləri qovuran,
Qarı göyə sovuran,
O ilin qışı qalıb.
Ürəyim hey deyir ki,
Qayıdaq o illərə,
Qayıdaq o günlərə
Açıb dolu sinəmi
Deyirəm ki, «güllələ»!
Axı necə qayıdım?
Əli yalın, əli boş.
Içib qızıl şərabı
Sən sərxoş,
Mən də sərxoş...

Yaxşı ki, daşın qalıb
Uçub getmiş payızdan
Soyuq bir qışın qalıb.
Bu qış məni ayıltdı,
Bu qış məni qocaltdı.
Çırpınıram indi mən
Ağ qarın ağ dişində.
Qardaş, yoldan qayıtma
Işində ol, işində...
Ağ atları çapın siz,
Indi ki, çaphaçapdı...
Yox, bu bir zarafatdı...

* * *

1964-cü ilin qışında
Çıxdı qarşıma
O qız.
Sandım ki, taleyimə
Doğdu bir parlaq ulduz.
Sevirdim onu,
Sevirdim, ancaq...
Ayaq saxla, qardaş,
Dayan.
Sən demə ölmək
Ürəyi açmaqdan
Asanmış, asan.
Əriyirdim gilə-gilə,
Fikirlərim qırış-qırış.
Qəlbimdə buz
Beynimin qapılarında

Içəri təpilən qış.
Arzuları,
Sal qaya döşünü bəzəyən
Göyərçin yuvaları kimi
Ovuq-ovuq.
Əlim soyuq, ayağım soyuq.
Sanki yatağımda
Qar yatırdı.
Cürətim yalnız onu
Pəncərə şüşəsindən
Görməyə çatdırdı.
Ölürdüm-dirilirdim,
Dirilirdim-ölürdüm,
Bircə kəlmə söz üçün.
Əgər od istəsəydi,
Atılardım göz üçün.
Bir qarlı yanvar günü
Alıb soyuq qələmi
Bir dəftər vərəqində
Isti, kövrək bir xətlə
Yazdım: «Sevirəm səni».
Soyuq kitab içində
Göndərdim bacasından
Donub gözümdə o an.
Bir gün döyüldü qapım,
Səssiz gəldi bacısı,
Səssiz getdi bacısı.
Sən heç demə olarmış
Sükutun da acısı.
«Qardaş» demişdi mənə,
Mən də «bacı» çağırdım.

Bəs sevgi?
Bəs məhəbbət?
Mənim qəbir daşımdı!
Elə o vaxtdan bəri,
Qış «əziz» qardaşımdı!

* * *

Tayqa...
1968-ci ilin yanvarı...
Ömrümdə görmədiyim
Bir meşənin səssizliyi
Udub məni.
Öz-özümə deyirəm:
Doğmalarım unudub məni
Bişməmişəm əsgər kimi
Hələ çiyəm,
Heç bilmirəm mən nəçiyəm.
Qar üstünə qar ələnir,
Cığır üstdən cığır keçir.
Soyuq məni şərbət kimi
Alır, içir.
Gözətçiyəm...
Heç bilmirəm nəyi
Nədən qoruyuram.
Heç bilmirəm yoxam, varam...
Bir ağ kürkü, ağ əlcəyi
Geyindirib gətiriblər.
Sanıram ki, məni qardaş
Gedər-gəlməz...
Bir dünyaya ötürüblər.

Avtomat da boğazımdan
Daşa dönüb asılıbdır.
Mən bir əsgər heykəliyəm.
Çoxları da düşünür ki,
Dağ ürəkli, dağ kəliyəm.
Bu yanvardan
O yanvara əlim çatmır.
Iki yanvar arasında
Mən əsgərəm, ya sal daşam?
Köynəyim də yaşıl mamır.
Xəyalımda evimizin tavanından
Yağış damır...
Bu yanvardan
O yanvara əlim çatmır.

* * *

Atıb kəndi,
Atıb dərələri, dağları,
Soyuq bulaqları,
Döyüb sinəmə,
Işləmək, oxumaq naminə
Bakıya gəldim.
Qarlı bir gecədə
Göynəyə-göynəyə.
Keçirdim ömrümün bir giləsini
Şaxtalı, küləkli bir küçədə
Payız geyimində.
Nə halda, nə gündə...
Apardılar məni bir gün
Zəhmli bir mayorun yanına iş üçün.

Sərt ahənglə soruşdu:
«Pulun var»?
Çıxartdım partbiletimi
Elə bil qısqırdılar ona,
Bir meşəbəyi itini.
Yoldaş mayor,
Bəli, sən
Çox uzaq görmüsən
Qırmızı biletin taleyini.
Yaxşı duymusan
Hər şeyin dadını,
Hər şeyin iyini.
Hər qış gələndə
Sənin partbilet kimi
Qızarmış
Sifətinlə
Üz-üzə dayanıram.
Sən yoxsan dünyada
Mən isə boş yerə yanıram...
Dərin dərələrin
Dərinliyinə çəkir
Məni fikir.
Qoparır məni boz duman,
Dağ kollarının
Soyuq caynaqlarından.
Sürüyüb gətirir
Bu günkü, qışa
Pıçıldayır qulağıma astadan:
«Vurma özünü dağa-daşa
Götür qələmini,
Götür ağ vərəqləri,

Unut pis insanları.
Bu ağ qışı
Ağ kürk bilib
Gey əyninə.
Üşüməzsən heç vaxt!
Sonra da ömrünlə
Verib baş-başa
Qismətin qədər yaşa...»

* * *

Ey gözəl,
Sən ey mənim «mələyim»
Tapdığım, itirdiyim...
Dedin ki, - məni
Moskvaya apar.
Apardım.
Dedim gülər üzün,
Kəsilər qır-qır.
Deyirdilər ki...
Qar ki, yağdı
Şeytanlar yatır.
1977-ci ilin qışında
Şeytanlar yatmadı.
Mələklər nə səni,
Nə məni oyatmadı.
Qoşulub sənə,
Qoşulub mənə,
Qar topası oynadı
Bizimlə şeytanlar.
Sonra, əlbəyaxada

Çəkib ağ şəkilləri.
Minib uçan yelləri.
Gəlib «qazan qaynatdı».
Bakı boyda şəhəri,
Bir top kimi oynatdı.
Kimi baxıb inandı,
Kimi dedi «qar qızdı».
Kimi dedi «qar adam»,
Kimisi də dedi ki,
Bu yalan, ağ yalandı.
Bu da qış xatirəsi,
Bu da qış zarafatı.
Bu gün yenə qar yağır,
Külək əsir, soyuqdu.
Şeytanlar da oyaqdı...
Qara gün, qara yanvar
Bunu yaxşı bilirəm,
Çəkilib dara yanvar.
Sizi kədər boğmasın,
Deməyin şeytan girən
Ürəklər açılarmı?
Keçib daha a qızlar,
Qar topası düzəldib
Nişan alıb vurun siz,
Mənim ağ saçlarımı.
Oyansın qara saçım!...
Şeytanlar göz ağardır,
Heç özüm də bilmirəm
Şeytanların əlindən
Hara qaçım, hara mən?
Hara, hara,
Hara mən!!

* * *

Mənim üçün
«Baharın 17 anı»,
Filmlər dünyasının
        səsidir,
                nəfəsidir.
«Baharın 17 anı»
Hər il gələn baharın,
Hər il köçən baharın
Bir gənclik nəğməsidir.
Bunu Riqalı dostum,
Məndən də çox sevərdi.
Həmişə də qururla,
Məhəbbətlə deyərdi:
«Bu filmin ürəyi,-
Mənim körpəliyimə,
Mənim ömür-günümə,
Sevgilimə, sevgimə
Güc verən, qanad verən,
Bir şəhərdə  çəkilib,
Bir azəri  qızına,
Ürəyimi açdığım,
Budaqlar arasından
Şəfəqləri süzülən,
Aylı yerdə çəkilib».
Yan Yanoviç Riqaya,
Məni qonaq çağırdı.
Yenə də qar yağırdı...

Izn verdilər üç gün
Uçdum...
Qarışdı dünya,
Bizim təyyarəmizi
Qəbul etmədi Riqa.
Mənim üçün
«Baharın 17 anı»,
Əzizdir bahar qədər.
Görə bilmədim onun
Çəkildiyi yerləri.
Ürəyimdə soyuq qar,
Gözlərimdə
Riqanın çəkisi qədər
kədər
Döndüm Bakıya.
Eh, nə bilim,
Kim məni
Bir də
Qonaq çağıracaq...
Ürəyimə damıb ki,
Əgər Riqaya getsəm,
Yenə də qar yağacaq...
Kəsəcəkdir yolumu
O qarın bəyazlığı,
Qismətimin azlığı...

* * *

Mən bir ömür yaşayıram
Soyuqlu, istili
bir ömür.
Odlu, ocaqlı, işıqlı
Günəşli,
qarlı,
yağışlı
dumanlı,
tüstülü
bir ömür.
Hər insan ömrü belədir.
Gözünü açandan yumana kimi.
Torpağın zərifliyinə
Hopana kimi.
Unudur çoxları
Üstünü oxuya bilmədiyi
Qədim məzar daşlarını.
Göz yaşlarını,
yaddaşlarını.
Unudur çoxları
Öpdüyü, əllərini çəkdiyi,
təzə-təzə daşları.
Unudur
Gözəl bir insanın
səsini,
nəfəsini.

Unudur
Tanrının tərəzisini.
Tapşırılır torpağa
Nə qədər xatirə,
Şeir,
    sevgi,
        məhəbbət.
Nə qədər şirin zarafat
Nə qədər kövrək söhbət.
Unudur saydıqlarımı bə`ziləri,
Qəbir daşlarından uzaqlaşmamış.
Danış, məzar daşı,
                                danış...
Bağışlayın məni,
Dəyişə bilmədim söhbəti.
Nə vaxtsa bu daşlardan
Biri də mənim adıma
                                yazılacaq.
Bu daş da mənim daş pasportum
                                olacaq.
Qoşulmaq istəyirəm,
Nağıla dönmüş
                        ağ qara...
Dönmək istəyirəm bahara.
Qoy qarışsın bir-birinə
Qar, bahar.
Qarışsın xatirələrimə,
Zarafatlarıma,
Axıb qoşulsunlar qayğılara,
Danışan çaylara...

* * *

Torpağa tapşırdılar
onu...
Ağappaq qar yağırdı...
Son dəfə görüşmək
Dünyada hər şeydən,
Hər şeydən ağırdı.
Baxıram ona
Yuxarıdan aşağı.
Bir azdan bağlanacaq
Onun üzünə,
Tanrının işığı.
Ağappaq libasında
Nə düymələr vardı,
Nə də bərli-bəzəkli yaxalıq.
Yadıma düşdü
Elədiyi «ağalıq».
Sürdüyü avtomobillər
Geydiyi köynəklər,
Nadir çəkmələr.
Ayağının altına
Sığışmayan küçələr.
Yadıma düşdü nələr,
nələr...
Bilirdim,
Yaxşı bilirdim ki,
Kəfənlərin cibi olmur.
Gözlərimlə görməyim

Üşütdü məni.
Elə bil ki, məleykələr
Eşitdi  məni.
Qoluma girib
Çəkdilər kənara.
Öz-özümə deyirəm:
"O hara, mən hara,
Qəbristanlıq hara?"
Ağappaq qar yağırdı...
Bu gün də yağır...
Hər şeyə cavab tapmaq
            ağırdı
              ağır!
                çox ağır!!.

***2000***

## AKTYORUN PORTRETİ

***Qüdrətli aktyorumuz, Azərbaycanın***
***Xalq artisti Mikayıl Mirzəyə.***

**1**

Qayası danışan, ocağı yanan,
Ağsu dağlarından qopan zərrəsən.
Səsdən heykəl qoyan, sözdən daş yonan,
Sənətkar da sənsən, möcüzə də sən.

Bir xalqın dərdini öz dərdi bilən,
Bir xalqın göyərmiş vətən daşısan.
Yumruğu göylərdə düyülən, dinən,
Şeirin, şeiriyyətin vətəndaşısan.

Azadlıq carçısı Xəlil Rzanın,
Heykəli ucalır sənin səsində.
Torpaqdan yazanın, daşdan yazanın
Nəfəsi yaşayır od nəfəsində.

Vətən! Vətən! Deyib, titrəyən, əsən,
Kür ilə, Xəzərlə kükrəyən də sən!
Şair ürəyini sökən də sənsən,
Şair ürəyini kökləyən də sən!

Yaş udub, daş udub, baxan, göynəyən,
Aradan, yaradan keçən Arazsan.
Azərbaycan, deyib zəncir çeynəyən,
Mikayıl Mirzəsən!
Məmməd Arazsan!!!

Qayası danışan, ocağı yanan,
Ağsu dağlarından qopan zərrəsən.
Səsdən heykəl qoyan, sözdən daş yonan,
Mikayıl nəğməli, möcüzə də sən.

**2**

Dayan, ay danışan, ay qulaq asan,
Mikayıl Mirzədir çıxan səhnəyə.
Göyü qamarlayan qara buluddan,
İldırım yağışı tökəcək yenə...

Çırpınır mənim də qəlbimin simi,
Hər kəsin yeri var öz dünyasında.
Mikayıl, ləngərli gəmilər kimi
Hey üzür sahilsiz söz dünyasında.

Sərhədsiz bu ekran tanıdıb səni,
Sən də ekranları tanıtmısan ha...
Yanan şairlərin ürək səsini,
Gizli, pıçıltıyla demirsən daha.

Keçirib qəlbinin döyüntüsündən,
Şairi özünə sən tanıdırsan.
Od yağır gözündən, bir də sözündən,
Səhnədə özünü sən unudursan.

Səsin alır bizi dağ çayı kimi,
Aparır hamını söz ümmanına.
Sözü ürəyinin harayı kimi
Belə yetirirsən öz ünvanına.

Dəyişir dilində sözün cövhəri,
Bəzən yazdığını şair tanımır.
Atılır evlərdə sözün lövbəri,
Bir insan alışır, min ocaq yanır.

Hər şair aktyor doğula bilməz,
Şairi aktyor böyütməlidir.
Hər kiçik təpədən dağ ola bilməz,
Təpəni sevgimiz dağ etməlidir.

Səndə tanrı səsi, müqəddəsliyi,
Səndə bir ordunun qüdrəti vardır.
Sanıram mən səni «döyüş» dərsliyi,
Bu boyda dünyamız səsinə dardır.

Uçan buludlarla görüşə gəlin,
İldırım yağışı yağacaq indi.
Unudub hər şeyi, diqqət kəsilin,
Səhnəyə Mikayıl çıxacaq indi.

**3**

Buludlar qaralıb, göylər dolubsaq
Ulduzlar Mikayıl çayına düşüb.
Dünyada bir-iki qartal qalıbsa,
Biri də yurdumun payına düşüb.

Alıb qanadına şeiri, sənəti,
Qırmızı kitaba yazılasıdı.
Sonu görünməyən bu səadətin,
Əksi göy üzündən asılasıdır.

### 4

Bakıda bir məktəb tanıyıram mən,
«Mikayıl məktəbi» söyləyir hamı.
Odur bu məktəbin vuran ürəyi,
Odur bu məktəbin işığı, şamı.

O, ata, o, ana, doğma məhəbbət,
Cavandı, uşaqdı, ağsaqqaldı o.
Dalğası sədd qıran hünər, cəsarət,
Acıya acıdır, bala baldır o.

Burda Mikayıllar ulduza bənzər,
Mikayıl Mirzə də dan ulduzudur.
Söhbəti insanı nuruna bəzər,
Burda doğan Günəş ömrün yazıdır

Bakıda bir məktəb çiçəkləyibdi,
«Mikayıl məktəbi» əmanət kimi.
Toxumu Mikayıl özü əkibdir,
Solmaz bir bahara zəmanət kimi.

### 5

Qonaq oldum Mikayıla,
Xatirələr çiçəklədi.
Nurani tək çıxıb yola,
Uşaq kimi «iməklədi».

Doğma eldən danışdı o,
Anasından dedi, durdu.

Daş-torpağa qarışdı o,
O təşnədi, o qürurdu,

Dəryaçada batmasını,
Dili yana-yana dedi.
Xoruzu aldatmasını
Nağıl kimi vərəqlədi,

Dostu Xəlil, Məmməd Araz...
Köpükləndi Araz kimi.
Coşdu bir az, susdu bir az,
Nəğmə yüklü bir yaz kimi.

Uçub getdi, uçub gəldi,
İnsan oğlu quş olarmış.
Aylar dindi, illər dindi,
Dünya dolar, boşalarmış.

O qızdan da danışdı o,
Ulduzdan da danışdı o.
Kiminləsə «dalaşdı» o,
Kiminləsə alışdı o.

Arxivini soruşdum mən,
Dedi ki, yar, sinəmdədir.
Dedim, o qız? Dedi, əhsən,
Çoxdan o yar sinəmdədi.

Bildiyini, çəkdiyini,
Ağ kağıza köçür dedim.
Səpdiyini, əkdiyini,
Hamı yığır, biçir, dedim.

«Vaxtım yoxdu», deyib durdu,
«Məgər» – dedi, «ona dəyər?»
Sonda hələ göz də vurdu:
«Biri yazar, biri deyər».

Lap kövrəltdin məni, qardaş,
Ay insafsız, ay arxivsiz...
Döşəmədə qurub bardaş,
Sakit, səssiz baxırdıq biz...

**6**

***Dostum, şair Zülfüqar Şahsevənli ilə Ağsu dolaylarını enərkən radio dalğalarında Mikayıl Mirzə, Məmməd Arazın «Ana yurdum» şeirini oxuyurdu...***

«Azərbaycan, mayası nur, qayası nur ki,
Hər daşından alov dilli ox ola bilər,
«Azərbaycan» deyiləndə ayağa dur ki,
Ana yurdun ürəyinə toxuna bilər...»

Nurlu səsin işığında göründü dağlar,
Dumanlar da, dərələr də qulaq kəsildi.
Susdu yarpaq, susdu çiçək, susdu bulaqlar,
Qayalar da dəsmal çəkib alnını sildi.

Ulu səsin sehri tutdu ənginlikləri,
«Azərbaycan» dalğasını uddu yamaclar.
Göz önündə axıb gedən zənginlikləri
İşıq əlli, işıq dilli Günəş qucaqlar.

Ağsu çayı ulu dağı ikiyə bölüb,
Qayaları kötüyündən qoparır, gedir.
Mikayıl da dağ çayı tək dünyaya gəlib,
Ürəyində yatanları aparır, gedir.

Dolay-dolay bu dolaylar səni haraylar,
Sehrləyir meşələri şeirin qoxusu.
Xatirələr qanadında bu yaşıl bahar,
Dönüb olub zirvələrdə nəğmə toplusu.

Azərbaycan, Məmməd Araz, bir də Mikayıl,
Bu üçlüyün birləşməsi göy gurultusu.
Ağsu dağı, nə yatmısan? Səs gəlir, ayıl,
Qovaqların, çinarların qaçsın yuxusu.

«Azərbaycan – qayalarda bitən bir çiçək,
Azərbaycan, çiçəklərin içində qaya.
Mənim könlüm bu torpağı vəsf eləyərək,
Azərbaycan dünyasından baxar dünyaya...»

***1995/96***

## QIZIMA MƏKTUBLAR

***Moskvaya yola düşürdük...***

***Gözümü qızlarımdan çəkə bilmirdim. Bunu Könül də (qızlarımın ən kövrəyi) sezmişdi. Özünü saxlaya bilməyib hönkür-hönkür ağlamağa başladı. Anam onu bağrına basıb ovundurmağa çalışırdı: «...mənim ağıllı balam, səfərə çıxanın arxasınca ağlamazlar. Atan oxumağa gedir də...» Qızımın gözlərinə baxmağa qorxurdum. Qorxurdum ki, yenidən ağlayar. Avtomobilə əyləşib arxanı göstərən güzgüdə ona baxa-baxa həyətdən çıxdım. Anam küyümdən bir gəl-gəl su töküb Könülə verdi. Kirpiklərini döyə-döyə, əlləri titrəyə-titrəyə suyu arxamızca atdı...***

### I

Hər qəlbin bir cürə boşalması var,
Hər qəlbin bir cürə dolması, qızım.
Hərdən ürəklərin daş olması var,
Hərdən də sükuta dalması, qızım.

Hönkürdün...
Od dilli bu nida, bu səs
Bağrımın başında yandırdı ocaq.
Bu gün ağlamağı bacarmayan kəs
Sabah gülməyi də bacarmayacaq.

Hönkürdün...
Boşaldı bəndin-bərəcən,
Tökdün gurşadını qara buludtək.
Hələ bu dünyada çox şey görəcəm,
Hələ göynəyəcəm kamantək, udtək.

Kövrəldin, titrədin dodaqlarımda,
Sənin o çırpınan canına qurban.
Hönkürdün, kükrədin qulaqlarımda –
Ləngəbiz kəndindən Moskvayacan.

Aydınlıq çilədin yolumuza sən,
Aydınlıq içində olasan, qızım.
Həsrətin qoynunda əriyən, əsən
Sən mənim gülüzlü balamsan, qızım.

Hönkürdün... Boşaldı bəndin-bərəcən,
Qara bulud kimi dolan mən oldum.
Kölgəsi yollarda doğulan, itən,
Canı yanınızda qalan mən oldum.

**II**

Bu gün zəng elədin atana, qızım,
Dinlədim titrəyən hər bir kəlməni,
Siz mənim dünyada çiçəyim, nazım,
Ətriniz dəstəkdə məst edir məni,

Elə bil qəlbimdə qaymaq tutub su,
Zəng vurdun, yaramı nəsə qopardı.
Məni Moskvaya gətirən arzu
Çıraq qızlarımı kəndə apardı.

Özünü o kəndin doğması tanıt,
Səni bezdirməsin yağışı, qarı.
A qızım, Bakını hələlik, unut,
Babanın, nənənin işinə yarı.

Nənənin əli ol, ayağı ol sən,
Ta özü danışıb, dinənə kimi.

Gecələr o yurdun dayağı ol sən,
Atan yanınıza dönənə kimi...

...Bu gün məftillərin qəlbi döyündü,
Səsin qulağıma axdı çay kimi.
Telefon əlimdə saçına döndü –
Qıvrılıb açılan kövrək yay kimi.

Ay mənim «qurddilli» on yaşlı balam,
Ruhumu oynadan bu qılıq nədi?
Ay mənim şəkərim, ay mənim balım,
Ürəyimin başı sizsiz göynədi!

**III**

Plov dəmləyəcək nənən bu axşam,
Zəfəran ətirli bir kənd plovu.
Tonqal qalayacaq baban bu axşam –
Ərşə dirənəcək qızıl alovu.

Hamı yığışacaq süfrə başına,
Bizimsə yerimiz görünəcəkdir.
Həmişə cumduğun bayram aşına
Əllərin güc ilə sürünəcəkdir.

Bilirəm, yaşın da səfər üstədir...
(Böyümək istəyir bütün uşaqlar.
«Uşaq olum» – deyir, qayğı istəyir,
Nə qədər dünyada, qızım, yaşlı var.)

Nənənin gözləri süzüb gedəcək,
Gəzəcək körpəlik sahillərində.
Qəlbini bir kövrək həsrət didəcək,
Sonra da təsəlli tapacaq səndə.

**IV**

Məktubun bir dünya sevinc gətirdi,
Yer qədər, Göy qədər razıyam səndən.
Yazırsan ki, şəklin boylanır bu gün
Əlaçı şagirdlər «pəncərə»sindən.

Dəyişdi gözümdə dünyanın dadı,
İnsan ucalarmış ulduza, Aya.
Hər adam özü də sirli dünyadı,
Övlad sevincisə – ikinci dünya.

Şərəf lövhəsini bəzəyəcəksən,
Atan öyünəcək şəkillərinlə.
Hələ ömrümüzə nur səpəcəksən,
Güldanlar güləcək gül əllərinlə.

İnsanlıq adında lövhəmiz də var:
Orda istəyi var hər gözün, qızım!
Sinəndə yurd salsın əbədi bahar,
Sən mənim şah misram, şah sözüm, qızım,

**V**

Qar yağır, ağaclar batıb ağ «gül»ə,
Qış günü baharı oyadasıyam.
«Nə vaxt dönəsisən?» –yazırsan elə:
Durnalar dönəndə qayıdasıyam.

Məktubun gözümdə alışdı, yandı –
Gecənin qoynunda bir çıraq kimi.
Elə bil yatmışdım, qızım, oyandım –
Ayaq səslərinə qalxan dağ kimi.

Həyat bir yanadır, bala bir yana,
Dünyada hər şeyi duyuram, qızım.
Bu bahar təhsilim yetişir sona,
Mən daha günləri sayıram, qızım.

Durnalar dönəndə dönəsiyəm mən –
Bir durna nəğməsi dodaqlarımda.
Asılıb günəşin kirpiklərindən –
Alışıb-yanacam yanaqlarında.

**VI**

Bakı məktəbindən ayırdım səni,
Tənhalıq sıxmışdı babalarını.
Dedim ki, qoy görsün o yurdum səni,
Əli ağac tutan balalarını.

Sənin də sümüyün bərkisin bir az,
Şəhərin zəhəri çıxsın canından.
Yandırsın al Günəş, qurutsun ayaz,
Bir nəsil böyüsün körpə qanında.

O kəndin torpağı, daşı qızıldır,
Qızılı, qızıllar qızıl etməli.
İşığı qızıldır, yaşı qızıldır,
Qızıllar daş üstə daş göyərtməli.

O kənd atanı da ata mindirib,
O yurda bir heykəl yondurmaq üçün.
Alova mindirib, oda mindirib,
Hardasa bir ocaq yandırmaq üçün.

Qaldıra bilmədim göylərə Yeri,
Heykəl qoymasam da, yazım-pozum var.

Yaddan çıxanların boş qalmaz yeri,
Yaddan çıxanları Mətləbim yazar...

Bakı məktəbindən ayırdım səni,
Tənhalıq sıxmışdı babalarını.
Dedim ki, qoy görsün o yurdum səni,
Əli ağac tutan balalarını.

**VII**

Niyə çox sevirsən ananı qızım?
Analar allahdı, Allah da təkdi.
Mən də öz anamı sevirəm, quzum,
İndi qara saçı bəyaz çiçəkdi.

Gecə də, gündüz də alışa, yana,
Dönüb Günəş olmaz, ulduz ulduzdu.
Dolan bu dünyanı o yan-bu yana,
Anasız balalar elə ucuzdu...

Ana ögeydisə... harayda, ündə...
Bu dərdin qəlbində dağ ola bilməz.
Dağlar elə dağdı, dağ geyimində,
Əriməz, ələnməz, dağıla bilməz.

Ana övlad üçün əriyib gedir...
Sən də bu qayğıya qarışacaqsan.
Hələ nə yaşın var?
                    Hər şey öndədir,
Sən də ana kimi alışacaqsan.

***Moskva, 1983***

## NAMUSLU DÜNYA

***Natiq Qocayevin "Namussuz dünyanın sakinləri" serialını oxuduqdan sonra.***

Dünya
Sənin haqqında çoxları danışıb
Çoxları sənin daşına, torpağına
Ağına-qarana düyün-düyün,
Damla-damla qarışıb.
Sənin haqqında
Nizami də yazıb,
Füzuli də.
Məmməd Araz da yazıb,
Məmməd Aslan da.
Mən də yazmışam,
Bu gün də yazıram.
Yazmağa
Həmişə də hazıram.

Istəmirəm barışmağı,
Məyər dünya dəyişib?
Sönüb kəndimin çırağı,
Məni dünya dəyişibdir.

Salamlar da saralıbdı,
Gen dərələr daralıbdı.
Zirvələri qar alıbdı,
Məyər dünya dəyişib?

Tanrı təmkin verib aca,
Manat üçün getmə borca.

Əyilməz, ələnməz uca,
Məyər dünya dəyişib?

Xeyri-şəri bilmək olmur,
Yaxşıları görmək olmur.
Kişi kimi ölmək olmur,
Məyər dünya dəyişib?

Allah, ucalmasın minnət,
Dolaşıbdır hörmət, nifrət.
Ümid - dövlət, ümid - sərvət?..
Məyər dünya dəyişib?

Dünya
Qoca dünya,
Ulu dünya,
Hara gedirsən, hara?
Saçları yaşıl-yaşıl,
Saçları üzüm salxımı kimi qara.
Saçları
Ağappaq, dən-dən,
Əvvəli və sonu görünməyən.
Nə bilim, nə dünya...

Görüşə tez gələrdin,
Duyulardı nəfəsin.
Deyərdin «şən» sözünü:
- Heyif...
Allah qara eləsin,
Bu dünyanın üzünü.

Bəzəyərdik ikimiz,
Bənövşə mən, lalə sən,

Bizim kəndin düzünü...
                    - Heyif...
Allah qara eləsin,
Bu dünyanın üzünü.

Sıldırım qayalar da,
Nə susmusan, danış, din!..
Mamır basıb izimi...
                    - Heyif
Allah qara eləsin,
Bu dünyanın üzünü.

Dağlardan da uzaqsan...
Görmürəm kəndimizdə,
Atəş dolu gözünü.
                    - Heyif
Allah qara eləsin
Bu dünyanın üzünü.

Həyat yaman ağırdı...
Axı necə güləsən?
Deməliyəm düzünü...
                    - Heyif...
Allah qara eləsin
Bu dünyanın üzünü.

Baxmırsan insanların
Ərşə dayanmış qəminə, dünya!
Baxma yaşına
Batmısan bu gün
Gözlərini yandıran göz yaşına.
Sənə vəfalı da dedilər,

Vəfasız da dedilər.
Çoxları sinəndə
At oynadıb güldülər də.
Çoxları da şərbətini içə-içə
Dərdləri içində öldülər də.
Amma səni
Belə çağıran olmamışdı.
Səni belə bir günə
Bir kəs salmamışdı.
Qınamıram Natiqi,
Qınamayın Natiqi.
Sən də qınama,
Onun nə günahı.
Bu adı sən özün qazanmısan.
Nə qədər gec deyil
Oyan yuxudan,
Nə qədər gec deyil, oyan!
Namuslu dünya, oyan!!.
Sonra sənə başqa bir
Ağır, çox ağır
Ad da taparlar.
Qaytar namussuzların namusunu.
Qaytar uluların ulusunu.
Qaytar qeyrətsizlərin qeyrətini.
Arsızların arını.
Qaytar odunu, ocağını,
Yağışını, qarını.
Qaytar
Qoxuma həsrət qalan,
Yuxuma həsrət qalan
Torpaqlarımı, meşələrimi,
Qayalarımı.

Hayımı, harayımı,
Qaytar
Kəlbəcəri,
Laçını,
Şuşanı.
Tök daşı ətəyindən
Yerbəyer elə pisini, yaxşını.
Qaytar sakinlərini,
Qaytar, düz yola qaytar.
Ürəyimiz böyük olsa,
Sevgimiz böyük olsa,
Çatar hamıya, çatar.
Unut kinini, unut şəri.
Gəl sənli-mənli deyək:
«Lənət şeytana»
Gəl sənli-mənli deyək:
«Lənət yalana,
Lənət bizi bu günə salana!»
Qaytar
Dodaqlarında
Bayatıları sönmüş anaları.
Qaytar bir əlcə çörəyə
Həsrət qalmış qızların
Çilik-çilik olmuş,
Namusunu, arzusunu.
Itirdiyi yuxusunu...
Qaytar yaşamaq eşqinə
Gözlərinin odunu satan,
Adını satan,
«Qadın»ların mənliyini,
«Kişi»lərin qeyrətini.
Dünya, de sözünü,

Əlindən yapışıb
Səni uçurumlara aparana.
Qayıt səni bu günə çatdıran
Yolların əvvəlinə.
Qayıt müqəddəsliyə,
Qayıt Qurana.

Ürək yanma boş yerə,
Dünya düzələn deyil.
Elə düşüb daş Yerə,
Dünya düzələn deyil.

Ömrü boyu yoldadır,
Qara... Yaşıl... Boyadır.
Demə hər şey sayadır,
Dünya düzələn deyil.

Yalvarmağa dili yox,
Çağırmağa əli yox.
Sonu yox, əvvəli yox,
Dünya düzələn deyil.

Şirindən çox acı var,
Kimin kimə borcu var.
Nə qədər ki acı var,
Dünya düzələn deyil.

Deməyə söz tapmıram,
Dözən bir göz tapmıram.
Ocaqda köz tapmıram...
Dünya düzələn deyil.

Məgər nəfəs, nəfəsdir?
Düşünən var...
Nə kəsdir?
Vur boynumu əbəsdir...
Dünya düzələn deyil.
Ilahi kəlamları
Allahh mənim üçün göndərib.
Gəl oturaq düşünək,
Gəl oturaq dərdləşək.
Sən tək, mən tək, o da tək.
Təklik yıxacaq bizi.
Təklik boğacaq bizi.
Onsuz da gecikmişik.
Ürəyim deşik-deşik,
Ürəyim parça-parça.
Qanıma şəkər düşüb
Mən ağ qandan qorxmuram!
Mən taundan qorxmuram!
Namusdan qorxuram mən,
Saçım ağappaq, dən-dən
Ölümə gedən yolun
Çoxunu getmişəm mən.
Mən Natiqin yazdığı
«Serial»dan qorxuram.
Mən bu boyda dünyada
Dünyanın özü boyda
Qalmaqaldan qorxuram.

Istəyirəm gizli-gizli yağam dərdə,
Bu dünyanın dərd soyudan qışı yoxdu.
Nədir məni əzən belə, üzən belə?...
Naşı dünya, bu dünyada naşı yoxdu!..

Sahibi var gülərin də, ağların da,
Sahibi var köçənlərin, sağların da.
Yeyər səni, yeyər məni bircə anda,
Kim deyər  ki, bu dünyanın dişi yoxdu?!..

Eh, nə bilim, ya işıqdı, ya da rüzgar,
Ya bir külək, ya bir boşluq, ya da bahar.
Nə ilqarı, nə vəfası , nə yarı var,
Gözü çoxdu gözlərinin yaşı yoxdu.

Başdan doğub ölçü, biçi, tərəzi də,
Baş dediyin çəkilibdi tərəzidə.
Daşa dönüb tərəzidə baş özü də,
Bu dünyanın  nəyi varsa, başı yoxdu...

Baş üstündə baş daşları göyərəcək.
«Daş» başları, baş daşları bəzəyəcək.
Ağır dərddi, şərabları süzün içək...
Bu dünyanın məzarı var, daşı yoxdu!
Əzabı var, acısı var, başı yoxdu!!.

Dünya,
Çox yazıblar
Sənin haqqında
Natiq də yazdı...
Natiq sənə,
Sənin öz əllərinlə
Sənin boyda bir böyük
Heç bilmirəm nə qazdı...
Yox, yox, sən ölməmisən,
Bu qəbir boş qalacaq.

Yox, yox, sən ölməmisən,
Hələ göynəyir ocaq...
Hələ göynəyir ürək,
Hələ çırpınır külək.
Yox, yox, sən ölməmisən,
Bu qəbir boş qalacaq.
Ancaq, ancaq və ancaq...

Dünya saydığını saydı,
Allah haqqı yerdə qoymaz...
Vicdanım Günəş boydadı,
Allah haqqı yerdə qoymaz.

Nə baxırsan acı-acı,
Qızıldır başının tacı?
Tanrı qoruyacaq acı -
Allah haqqı yerdə qoymaz.

Gülüşdən yaşa bir addım,
Az qalıb, yaşa, bir addım...
Ağappaq qışa bir addım,
Allah haqqı yerdə qoymaz.

Bu gün gücüm sözə çatır,
Gözümdə fəlakət yatır.
Tutan tutur, atan atır...
Allah haqqı yerdə qoymaz.

Hay-haraya dözən Tanrı,
Hay-harayı əzən Tanrı.
Niyə dönmür üzün Tanrı?
Allah haqqı yerdə qoymaz...

***1999***

## MÜNDƏRİCAT

KARVAN ....................................................3
ARXALI DAĞLAR ...............................17
ƏSGƏR QARDAŞIMA ...........................37
ATALAR, ANALAR, OĞULLAR ..........47
MÜSTƏNTİQ ..........................................63
IKI OĞUL ATASI ......................................76
QIZIL QAN ...............................................107
VƏFA ..........................................................118
ŞAMAXI DƏFTƏRINDƏN ......................138
ATAMIN NƏSIHƏTLƏRI ........................184
KIŞ NƏĞMƏLƏRI ....................................346
ÇAYLAR GERI DÖNMÜR .......................356
QARLI XATIRƏLƏR ................................359
AKTYORUN PORTRETİ .....................377
QIZIMA MƏKTUBLAR .......................384
NAMUSLU DÜNYA ................................390

ŞAHMƏMMƏD

# SEÇİLMİŞ ƏSƏRLƏR
# Beş cilddə

Cild IV

Yğılmağa verilmişdir: 29.03.09
Çapa imzalanmışdır: 29.05.09
Format 84x105, 1/16,
Ş.ç.v. 25, tiraj 1000

“MBM” mətbəəsində çap olunumuşdur.